**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycanda sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi istiqamətləri” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Qəhrəmanov Mir Taleh Təzəxan**

**BAKI – 2019**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d., dos. Əhmədov Fariz Saleh**

**"___" ____________ 20__-ci il**

**"Azərbaycanda sənaye istehsalının ərazi üzrə təşkilinin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda**

**MAGİSTR DİSSERTASİYASI**

**İxtisasın şifri və adı: 060405 "Sənayenin təşkili və idarə edilməsi"**

**İxtisaslaşma: Müəssisə iqtisadiyyatı**

**Qrup: 500**

**Magistrant**
**Qəhrəmanov Mir Taleh Təzəxan**
**_________________imza**

**Elmi rəhbər:**
**i.e.n., dos. Əhmədov Bağış Sabir**
**______________________imza**

**Proqram rəhbəri**

**i.ü.f.d., b.m Hümbətova Suqra İnqilab**

**____________________imza**

**Kafedra müdiri**

**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI - 2019**

**“The directions of improvement in the deployment of industries by location”**

**Summary**

**The relevance of research: Efficient deployment of industrial enterprises is an important element of the issues of territorial integrity of productive forces and is one of the priority economic measures that have the potential to boost economic development and social prosperity.**
**Purpose and tasks of the research: The main purpose of the research is to find theoretical and practical approaches to improving the efficiency of industrial production in the regions based on a complex and organized analysis of the location of industrial production on the territory and regions of the country, and providing relevant recommendations and recommendations.**
**Used research metods: Dissertation was analyzed by various methods, including analysis, synthesis, and also by deduction and induction methods**
**Research information base: Researches are based on local economic writers, also other foreign economics, their books, thesis and other journals including local development and the theories of regional achievement**
**Research restrictious: The object of the research is the patterns of formation of territorial and location structure of industrial production, the influence of market mechanisms and state policy on territorial organization of production, method and methods of improvement of industrial placement of industrial production in market conditions**
**Research results: Methodology and methodology of economic and social justification of location of industrial enterprises on the territory have been determined as the main result of this thesis**
**Key words: economy, regional development, industry**

## İXTİSARLAR VƏ İŞARƏLƏR:

| | |
|---|---|
| **AR** | - Azərbaycan Respublikası |
| **ARDSK** | - Azərbaycan Respublikası Dövlət Statistikası Komitəsi |
| **AİŞ** | - Azərbaycan İnvestisiya Şirkəti |
| **KOS** | - Kiçik və Orta Sahibkarlıq |
| **AİZ** | - Azad İqtisadi Zonalar |

# MÜNDƏRİCAT

**GİRİŞ.........................................................................................................7**

**I Fəsil SƏNAYE ƏRAZİ ÜZRƏ YERLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI..............................................................................................11**

1.1. Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsi qanunauyğunluqları......................11

1.2. Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinə təsir edən amillər.................15

1.3. Sənaye müəssisələrinin yerləşməsinin əsaslandırılması...................................24

**II Fəsil AZƏRBAYCAN REGİONLARINDA SƏNAYE İSTEHSALI İNKİŞAFININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ.............................33**

2.1. Ölkədə sənayenin inkişafının və onun ərazi üzrə yerləşməsinin mövcud vəziyyətinin təhlili..............................................................................................33

2.2. Ölkədə sənayenin ərazi strukturunun formalaşmasına təsir edən amillərin qiymətləndirilməsi..........................................................................................40

**III Fəsil AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFININ ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ......................60**

3.1. Sənayenin ərazi strukturunun təkmilləşdirilməsinin və regionlarda sənayenin 0inkişafının prioritet istiqamətləri..........................................................60

3.2. Sənaye istehsalının ərazi üzrə yerləşməsinə dövlətin təsir mexanizmi...........67

3.3. Regionlarda sənayenin inkişafı üçün sənaye məhəllərinin yaradılması….......83

**NƏTİCƏ VƏ TƏKLİFLƏR..........................................................................87**

**İSTİFADƏ EDILMIŞ ƏDƏBIYYAT..............................................................90**

Cədvəllərin siyahısı..........................................................................................94

Şəkillərin siyahısı.............................................................................................95

# GİRİŞ

**Mövzunun aktuallığı.** Azərbaycan 1991-ci ildə öz müstəqilliyini bərpa etdikdən və sovet əsarətindən qurtulduqdan sonra dövlətin qarşısında duran başlıca vəziyyət ölkənin neft və qeyri-neft sektorlarını inkişaf etdirmək, dayanıqlı sənaye potensialına sahib regionlarımızda istehsalatı canlandırmaq və əhalinin məşğulluğu və rifahını təmin etmək olmuşdur. Məlumdur ki, müstəqilliyin ilk illərində iqtisadiyyatı dirçəltmək və sənayeni inkişaf etdirmək mümkün olmamış, siyasi hərc-mərcliklər səbəbindən hər hansı iqtisadi islahatlar aparılmamışdır. Sonrakı illərdə Azərbaycanın iqtisadiyyatı inkişaf etsə də, sadəcə neft faktoru üzərində fokuslanmış və onun əsasında inkişaf etmiş, nəticə etibarilə isə ölkənin qeyri-neft və sənaye potensialı lazımınca qiymətləndirilməmişdir. Hazırki şəraitdə dövlət müstəqilliyinin təmin olunması, milli iqtisadiyyatımızın bazar prinsipləri əsasında formalaşması digər şərtlərlə yanaşı, ölkə sənayesinin ərazilər üzrə düzgün və səmərəli təşkili səviyyəsindən də bilavasitə asılıdır. Sənaye müəssisələrinin ərazi miqyasında səmərəli yerləşdirilməsi məhsuldar qüvvələrin ərazi baxımından təşkili məsələlərinin vacib bir cəhəti olmaqla, iqtisadiyyatın inkişafı və sosial tərəqqini təmin etmək potensialına sahib prioritet təsərrüfat tədbirlərindən biridir. Sənaye istehsalının ərazilər üzrə səmərəli yerləşdirilməsi təbii sərvətlərdən səmərəli istifadə edilməsini, əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsini, əmək məhsuldarlığının artırılmasını və iqtisadi resurslardan qənaətli şəkildə istifadə əsasında istehsalın səmərəliliyinin yüksəldilməsini, iqtisadi rayonların optimallaşdırılmış şəkildə sosial-iqtisadi inkişafını təmin edir. Hər hansı bir sənaye müəssisəsinin müəyyən bir yerdə yerləşməsi həmin regionda nəqliyyat, rabitə və digər sahələrin inkişafına, istehsalın enerji və xammalla təminatı, rayonlararası və sahələrarası əlaqələrin mürəkkəbləşdirilməsinə, ətraf-mühitin mühafizəsinin əhəmiyyətinin artmasına və s. təsir göstərir. Bütün bunların məntiqi nəticəsi olaraq ərazi üzrə səmərəli və məhsuldar yerləşdirmə müəyyən mənada həm cəmiyyətimizin, həm də ölkəmizin inkişafında müsbət bir rol oynayır.

**Mövzunun öyrənilmə vəziyyəti**. SSRİ məkanında 70 ildən artıq bir dövrdə məhsuldar qüvvələrn yerləşdirilməsində və ərazicə təşkilində obyektiv iqtisadi

əsası olmayan prinsip və vasitələrdən istifadə olunmasının mənfi nəticələri müasir dövrdə özünü daha çox büruzə verir və regionlarımızın formalaşmasına böyük təsir göstərir, indiyə qədər regionlararası fərqlənmələr aşkar şəkildə müşahidə olunur. Belə ki, respublikanın hər bir regionu güclü potensial imkanlara (sənaye əhəmiyyətli təbii sərvətlərə və ucuz işçi qüvvəsinə) malik olmasına baxmayaraq, hazırda ölkə miqyasında sənaye müəssisələrinin ərazicə yerləşdirilmə səviyyəsi bu potensial imkanların mövcudluğuna müvafiq deyil. Belə ki, 2017-ci ilin statistikasına əsasən, ölkədə fəaliyyət göstərməkdə olan sənaye müəssisələrinin böyük bir hissəsi tək bir regionda cəmlənmişdir. Belə ki, ölkə üzrə fəaliyyət göstərən sənaye müəssisələrinin 1253-ü Bakı şəhərində (qəsəbələr daxil olmaqla) yerləşir, sonra ümumi saya görə Aran, Gəncə-Qazax və Abşeron iqtisadi rayonları gəlir. Belə bir situasiyada yerli resurslardan səmərəli istifadə edilməsi və ölkəmizdə yaranmış bir sıra sosial-iqtisadi problemlərin (işsizlik, məşğulluğun yetərincə təmin olunmaması, aşağı gəlir və s.) səmərəli həllinin ən mühüm şərtlərindən biri də sənaye istehsalının ərazi üzrə quruluşunun təkmilləşdirilməsidir. Bütün bu qeyd olunanlar özlüyündə sözügedən sahədə elmi araşdırmaların aparılmasını zəruri edir.

**Tədqiqatın məqsədi və vəzifələri.** Tədqiqatın başlıca məqsədi sənaye istehsalının ölkənin ərazi və regionları üzrə yerləşdirilməsinin kompleks və mütəşəkkil təhlili əsasında onun təkmilləşdirilməsi və regionlarda sənaye istehsalı üzrə səmərəliliyinin artırılmasına dair nəzəri və praktiki cəhətdən əsaslandırılmış üsullar tapmaq, müvafiq təklif və tövsiyyələri verməkdən ibarətdir.

Tədqiqatın məqsədinə müvafiq olaraq dissertasiya işi yazılarkən qarşıya aşağıdakı qeyd olunan vəzifələr qoyulmuş və öz həllini tapmışdır:

- sənaye istehsalının ərazi baxımından yerləşdirilməsinin mahiyyəti və prinsiplərini, habelə, ona təsir edən amilləri araşdırmaq;
- sənaye müəssisələrinin yerləşdirilməsinin iqtisadi-sosial cəhətdən əsaslandırılmasının metodikasını müəyyənləşdirmək;
- müasir şəraitdə regionlarımızda sənayenin müasir vəziyyətini geniş şəkildə təhlil etmək;

- regionlarımızda cari və potensial sənaye müəssisələrinin inkişaf problemlərini təhlil etmək;

- regionlarımızda sənaye istehsalı üzrə perspektiv inkişaf istiqamətləri müəyyənləşdirmək;

- ölkə ərazisində sənaye müəssisələrinin ərazicə təşkilinin dövlət tərəfindən tənzimlənilməsi yollarını göstərmək.

**Tədqiqatın obyekti** müvafiq olaraq Azərbaycan sənayesi və onun ərazi üzrə yerləşdirilməsidir.

**Tədqiqat işinin predmetini** sənaye istehsalının ərazi və yerləşmə strukturunun formalaşdırılması qanunauyğunluqları, bazar mexanizmi və dövlət siyasətinin istehsalın ərazi üzrə təşkilinə mövcud təsiri, bazar münasibətləri şəraitində sənaye istehsalının ərazicə yerləşdirilməsinin təkmilləşdirilməsinin metodu və üsulları təşkil edir.

**Tədqiqatın nəzəri və metodoloji əsası** modern elmi biliklərə söykənməklə, iqtisad elminin klassiklərinin istehsalın ərazicə səmərəli təşkili haqqında müddəaları, nüfuzlu və görkəmli iqtisadçı-alimlərin sənaye istehsalının ərazi üzrə təşkil problemlərinə həsr olunmuş elmi tədqiqatları, dünya ölkələrinin cari təcrübəsi, respublikanın iqtisadçı-alimlərinin bu mövzu ilə əlaqədar moboqrafiya və nəzəri fikirləri və s. təşkil edir. Dissertasiya işi yazılarkən müəllif tərəfindən sözügedən məsələlərlə bağlı Azərbaycan Respublikası Milli Məclisi tərəfindən qəbul edilmiş qanun, qərar və cari proqramlardan, ölkə prezidentinin fərman və sərəncamlarından, hökumətin qərar və sərəncamlarından, dövlət proqramları və digər normativ-hüquqi sənədlərdən də istifadə edilmişdir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi-yeniliyinə aşağıda qeyd olunanları şamil etmək mümkündür:

- sənaye müəssisələrinin ərazi üzrə yerləşdirilməsinin iqtisadi və sosial cəhətdən əsaslandırılması metodika və üsulu müəyyənləşdirilmişdir;

- respublikanın əksər iqtisadi rayonlarının sənaye potensialı araşdırılmış və onlardan səmərəli və effektiv istifadə yolları göstərilmişdir.

- ölkə ərazisində sənaye müəssisələrinin ərazicə təşkilinin inzibati qaydada tənzimlənməsi yolları araşdırılmış və faydalı təkliflər verilmişdir.

**Dissertasiya işinin həcmi, quruluşu:** Dissertasiya işi giriş, üç fəsil və nəticədən ibarətdir. Birinci fəsildə sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin nəzəri məsələlərindən bəhs olunur. İkinci fəsil regionlarımızda sənaye istehsalının müasir vəziyyətinin təhlil olunmasına həsr edilmişdir. Nəhayət, üçüncü fəsildə isə Azərbaycan regionlarında sənaye istehsalının inkişaf perspektivləri və istiqamətləri araşdırılır. İşin sonunda müvafiq ədəbiyyat siyahısı göstərilmişdir.

# I Fəsil SƏNAYE İSTEHSALININ ƏRAZİ ÜZRƏ YERLƏŞDİRİLMƏSİNİN NƏZƏRİ ƏSASLARI

## 1.1. Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsi qanunauyğunluqları

İstehsalın intensivləşdirilməsi və dayanıqlı olması, onun səmərəliliyi və effektivliyinin artırılması və bunun əsasında xalqın maddi-mədəni, həmçinin, sosial həyat səviyyəsinin yüksəldilməsi hər bir dövlətin iqtisadi strategiyasının əsasını təşkil etməkdədir. Bu problemlərin müvəffəqiyyətli şəkildə həlli müəyyən mənada da sənaye istehsalının ərazicə müvafiq və səmərəli yerləşdirilməsinin yaxşılaşdırılmasından, dövlətlər və regional təsərrüfatların daha da ixtisaslaşdırılmasından və proporsional regional inkişafdan, onların malik olduqları yerli ehtiyatlardan səmərəli şəkildə istifadə etmək məqsədilə müxtəlif səviyyəli ərazi-istehsal komplekslərinin formalaşdırılması və inkişafından asılıdır. Sənaye istehsalının səmərəli yerləşdirilməsi və onun cəmiyyətin inkişafında oynadığı müsbət və mütərəqqi rol ilk növbədə sənaye istehsalı və onun mahiyyətindən irəli gəlir.

İqtisadiyyatın inkişafının modern mərhələsində sənaye istehsalının düzgün yerləşdirilməsinin olduqca vacib əhəmiyyəti vardır. Ölkənin sosial, iqtisadi və mədəni inkişafını elmi-texniki tərəqqiyə söykənərək sürətləndirmək üçün qarşıda duran vəzifələrin müvəffəqiyyətli şəkildə yerinə yetirilməsi müəyyən mənada sənaye istehsalının səmərəli yerləşdirilməsindən də asılıdır.

Sənaye istehsalının səmərəli yerləşdirilməsi öz növbəsində cəmiyyətin inkişaf etdirilməsinin mühüm ictimai-iqtisadi problemlərilə qarşılıqlı və üzvi əlaqədədir. Sənaye istehsalının ərazi baxımından səmərəli yerləşdirilməsi ictimai istehsalatın dinamizmi və səmərəliliyinin artırılmasını təmin edir. Bununla birlikdə, sənaye istehsalının səmərəli yerləşdirilməsi ictimai (sosial) əməyə qənaət edilməsini, əmək ehtiyatları və digər imkanlardan məqsədəuyğun şəkildə istifadə edilməsi yolu ilə bir regionun kompleks şəkildə səmərəli inkişafını təmin edir. Əhalinin maddi rifah vəziyyətinin yüksəldilməsi öz növbəsində şəhər və kənd, zehni əmək və fiziki əmək, habelə, mədəni-məişət xidmət səviyyəsinə görə

rayonlararası fərqlərin aradan qaldırılmasında danılmaz rol oynayır.

Qeyd etmək lazımdır ki, sənaye istehsalının ərazicə yerləşdirilməsinin modern formaları təsərrüfatın ərazicə təşkilinin təkmilləşdirilməsi, həmçinin, regionların iqtisadiyyatının formalaşmasına geniş təsir göstərir. Təsərrüfatın regional səviyyədə strukturu bunun əsasında daimi dəyişir, istehsal və sosial infrastruktur öz növbəsində yenidən qurulur və genişlənir. İstehsalın modern sahələrinin tərkibcə genişləndirilməsi əsasında ixtisaslaşdırılmanın inkişaf etdirilməsi regionların iqtisadiyyatının struktur keyfiyyətinin dəyişməsinə gətirib çıxarır. Həmçinin, rayonlararası və rayondaxili istehsal və sənaye əlaqələri genişlənir. Müxtəlif səviyyədə ərazi istehsal birləşmələrinin miqdarları artır. İctimai istehsalın ərazicə təşkili müəyyən qanunauyğunluqların təsiri nəticəsidir. Bu qanunauyğunluqlar özlüyündə hər hansı bir cəmiyyətdə iqtisadi qanunların spesifik təzahür formaları hesab olunur. Xalq təsərrüfatının iqtisadi və sosial qanunlarla bağlı ərazi üzrə təşkilinin qanunauyğunluqlarını bilmək sadəcə onların obyektiv istiqamət və xarakterini müəyyən etmək deyil, həmçinin, bu qanunauyğunluqları tətbiq etməyi bacarmaq, onlardan iqtisadiyyatın konkret inkişaf mərhələlərində, ayrı-ayrı rayonların konkret sosial-iqtisadi şəraitlərində istifadə etməyi bacarmaq deməkdir. Qanunauyğunluqlardan düzgün istifadə mexanizmi sənaye istehsalının ərazicə təşkilinin elə metod və üsullarının seçilməsini nəzərdə tutur ki, bu zaman seçilən metodların əhəmiyyətli miqyasda təzahürünə imkan verilməli, həm də qanunauyğunluqlar bir-birilə qarşılıqlı əlaqədə olmalıdır.

Ümumilikdə, buradan belə nəticə hasil olur ki, xalq təsərrüfatının elmi surətdəəsaslandınlmış ərazicə təşkili və idarə olunması dövlət siyasətinin əsas qaydaları, yəni xalq təsərrüfatının ərazi üzrə təşkil prinsiplərinin işlənib hazırlanması ilə nəticələnir. Hazırki şəraitdə sənaye istehsalının səmərəli yerləşdirilməsində istifadə edilən elmi cəhətdən əsaslandırılmış başlıca prinsiplər aşağıdakılardan ibarətdir (Hüseynov T.Ə., 2000, s.35):

Sənaye istehsalının xammal mənbələri və istehlak rayonlarına uyğun şəkildə yaxınlaşdırılması prinsipi.

Bu prinsipə riayət edilməsi ən vacib məsələlərdən biri hesab olunur. Çünki sözügedən prinsipə riayət etməklə ölkənin ərazisində mövcud olan təbii resurs və qaynaqların səmərəli şəkildə təsərrüfat dövriyəsinə cəlb edilməsi məsələsini həll edir, əlavə nəqliyyat xərcləri azaldılır, yəni xammalın uzaq məsafələrə daşınmasının qarşısı alınır, müəssisələrin ixtisaslaşma səviyyəsini və onların optimal ölçüsü müəyyən edilir, nəticə etibarilə isə, ictimai istehsalın iqtisadi səmərəlilik prinsipi yüksəldilir.

Sənaye istehsalının ölkə ərazisi üzrə vahid qərarda yerləşdirilməsi prinsipi.

Sənaye müəssisələrinin ərazicə təşkilində bu prinsipə riayət edilməsi ilə ölkəmizin bazar iqtisadiyyatına keçid dövrü zamanı mövcud olan ən aktual sosial-iqtisadi problemlərin həllində köməklik göstərmək olar, belə ki, bu prinsipə riayət edilməsi ölkənin iqtisadi rayonlarının sosial-iqtisadi inkişafının tarazlığını təmin edir, təbii resurslardan və əmək ehtiyatlarından səmərəli istifadə məsələsi həll edilir, əhalinin qeyri-mütəşəkkil miqrasiyası prosesinin qarşısını alır, bundan başqa, bu və ya digər sosial problemlərin həllində öz köməkliyini göstərir.

İqtisadi rayonlar arasında səmərəli əmək bölgüsü və onların təsərrüfatlarında kompleks inkişafa nail olmaq prinsipi.

Sözügedən prinsipin rəhbər tutulması iqtisadi rayonların təsərrüfatlarının kompleks inkişafını təmin etməklə qalmır, həmçinin, onların sənaye istehsalı üzrə ixtisaslaşması istiqamətlərini də müəyyən edir. İqtisadi rayonun xüsusiyyətləri, onun xalq təsərrüfat kompleksində rolu və yeri, təbii iqtisadi şərait nəzərə alınmaqla rayonun sənayeləşmə profili müəyyən olunur, sənayenin həmin rayon üçün səciyyəvi olan prioritet sahəsinin inkişafına üstünlük verilir. İqtisadi rayonların kompleks inkişaf etdirilməsini təmin etmək üçün yerli (lokal) xammala istinad olunmalıdır. Kompleks inkişafetmə naminə uzaq rayonlardan xammal daşınması yolverilməzdir, çünki belə olan halda arzuedilən nəticəyə nail olmaq qeyri-mümkün bir iş olur, komplekslik hesabına əldə edilən iqtisadi və sosial səmərə lüzumsuz nəqliyyat xərcləri hesabına azaldılır.

İqtisadiyyatın beynəlmiləlləşdirilməsi, habelə, beynəlxalq əmək bölgüsündə iştirakın zəruriliyi prinsipi.

İqtisadiyyatın beynəlmiləlləşdirilməsi prinsipi bazar iqtisadiyyatı şəraitində dünya ölkələrilə xarici iqtisadi fəaliyyətə girmək məqsədi ilə birgə müəssisə və bizneslərin yaradılmasında və inkişaf etdirilməsində mütləq nəzərə alınmalıdır. İqtisadiyyatın beynəlmiləlləşdirilməsi ilə beynəlxalq əmək bölgüsündə iştirakın zəruriliyi prinsipinin prioritet hesab edilməsi ölkə sənayesinin sahə quruluşunu təkmilləşdirməklə məhsuldar qüvvələrin ərazi üzrə səmərəli təşkil olunmasına təminat verir, dünya ölkələri ilə qaşılıqlı iqtisadi fayda əldə etmə əsasında əməkdaşlıq etməyi də ön plana çəkir. Bu zaman daha bir məsələ xarici investorların sərmayə qoymaq arzularının dövlətin müvafiq qurumları tərəfindən diqqətlə öyrənilməsi zəruriliyidir. Xarici investorun (sərmayəçinin) sərmayəsini yönəltmək üçün hansı sahəni seçməsinə mütləq müstəqillik verilməlidir. Bu, özlüyündə təbii hesab olunmalıdır, çünki onun məqsədi gəlir əldə etmək olduğun üçün o, bu işdə özünün səriştəliyinə, şəxsi təcrübəsinə və cəsarətinə əsaslanır. Ancaq həmin sənaye obyektinin harada inşa olunması məsələsi məhsuldar qüvvələrin yerləşdirilməsi ilə bağlı prinsiplər nəzərə alınmaqla həll edilməlidir. Sənaye istehsalının yerləşdirilməsindən əvvəl inşa olunacaq müəssisənin ölçüsü müəyyən edildiyi zaman onun məhsullarının ixracat imkan və potensialı diqqətdən yayınmamalı, qonşu ölkələrin o məhsullara ehtiyacları da nəzərə alınmalıdır.

Ölkənin xarici təcavüzdən qorunması və ətraf-mühitin mühafizəsi prinsipi.

Sözügedən prinsipə əməl edilməsinin olduqca böyük sosial-iqtisadi əhəmiyyəti var. Belə ki, hazırki dövrdə ölkənin xarici təcavüzdən müdafiə olunması və ətraf-mühitin qorunması problemi dünyanın bütün ölkələri üçün ən aktual və qlobal problemlərdən biri hesab olunur. Keçmiş SSRİ-nin tərkibində olduğumuz vaxtda bu prinsipə heç cür riayət edilməmişdi. O illərdə respublikada sənayenin ərazicə yerləşdirilməsini bilavasitə mərkəz həll edirdi. Bunun arzuolunmaz nəticəsidir ki, Azərbaycanda ekologiya belə acınacaqlı vəziyyətə düşmüşdür.

Azərbaycan Respublikasında sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinin elmi cəhətdən əsaslandırılmış prinsiplərilə yanaşı, müstəsna və

özünəməxsus cəhətləri də mövcuddur ki, onları nəzərə almamaq mümkün deyil. Bu cəhətlər aşağıda qeyd olunanlardan ibarətdir:

-Azərbaycan Respublikasının sənaye profili amilini müəyyən edən neft tədriclə tükənməkdə olan və bərpası mümkün olmayan təbii sərvətlər sırasında yerləşməsi;

-Yaxın perspektivdə sənayenin sahə və ərazi quruluşlarınn optimallaşdırılması və zənginləşdirilməsi;

-Xammaltutumlu (sənayetutumlu) sənaye sahələri inkişafından birmənalı şəkildə əmək və elmtutumlu sənaye sahələri inkişafına keçmək;

-Miqrasiya prosesinə laqeydliyin mövcudluğu və izafi əmək resurslarından yerlərdə düzgün istifadəyə nail olmaq;

-Ənənəvi sənaye mərkəzləri üzrə ehtiyat ərazinin tükənməsi, elmi idarə və tədris müəssisələrinin həmin mərkəzlərdə təmərküzləşməsi, habelə, yüksək təhsil senzinə malik olan azad əmək resurslarının pərakəndə vəziyyətdə olması;

-Təbii-iqtisadi və sosial imkanların gerçəkləşdirilməsində yeni müəssisə və müəssisə filiallarının yerləşdirilməsində dəqiq əsaslandırmaların aparılması;

-Sənaye istehsal üzrə beynəlxalq əməkdaşlıq və respublikanın əlverişli və strateji coğrafi-nəqliyyat şəraitinə malik olması;

-Filial, yaxud müəssisənin yerləşdiriləcəyi rayon seçilən əsnada əhalinin ənənəvi sənətkarlıq oriyentasiyasının, dini adətlər və s. amillərin nəzərə alınması (Hüseynov T.Ə., 2000, s.25).

Bazar iqtisadiyyatı və bazar münasibətləri şəraitində qeyd olunan prinsiplərin nəzərə alınması istehsalın ərazicə səmərəli təşkili baxımından olduqca ciddi əhəmiyyət kəsb etməkdədir. Çünki istehsalın ərazi baxımından təşkilinin prinsiplərinin müəyyənləşdirilməsində yol verilmiş səhvlərin sonradan korrektə edilməsi ciddi və arzuolunmaz itkilərlə müşaiyət olunur.

## 1.2. Sənaye istehsalının ərazi üzrə yerləşdirilməsinə təsir edən amillər

Sənaye müəssisələrinin ərazicə yerləşdirilməsində elmi cəhətdən təməlləndirilmiş prinsiplərə riayət etməklə yanaşı, həmin prosesə təsir edə bilən müxtəlif amil və faktorlar da mütləq surətdə nəzərə alınmalıdır. Sənayenin ərazi üzrə yerləşdirilməsi və təşkilində təbii-coğrafi amillər, əmək ehtiyyatları, texniki amillər, istehsalın ictimai təşkil formaları, nəqliyyat amilləri, sosial və d. qəbildən olan amillər təsir göstərir. Bütün bu qeyd olunan amillər bir-birinə təsir göstərir. Sənayenin yerləşdirilməsinə onların təsir dərəcəsi ölkənin müxtəlif iqtisadi rayonlarının məhsuldar qüvvələrinin inkişaf səviyəsindən, sənayenin ayrı-ayrı sahələrinin iqtisadi və sosial xüsusiyyətlərindən asılıdır. Gələcək müəssisə və obyektlərin tikilməsi və istifadə olunmasının iqtisadi göstəriciləri həmin amillərin düzgün nəzərə alınmasından birbaşa asılıdır. Sənayedə ictimai (sosial) əmək məhsuldarlığının səviyyəsini, həmçinin, sənaye istehsalının ayrı-ayrı sahələrini yerləşdirərkən əldə edilən iqtisadi səmərəliyi sözügedən amillər müəyyənləşdirir.

İndi həmin amillərdən bəzilərinin sənayenin ərazicə yerləşdirilməsinə təsiretmə xüsusiyyətlərini nəzərdən keçirmək lazımdır. Qeyd olunduğu kimi, sənaye müəssisələrinin ərazi üzrə yerləşməsinə təsir göstərən amillərdən biri və bəlkə də ilki təbii-coğrafi amillərdir. Həmin amillərə bunla aiddir: ölkənin ayrı-ayrı regionlarında faydalı qazıntılar, regionlarda əhalinin məskunlaşmasının coğrafiyası, su enerjisindən istifadə edilməsinin mümkünlüyü, təbii su yolunun mövcudluğu, meşə resursları üzrə kəmiyyət və keyfiyyət xarakteristikası, regionun iqlim şəraiti və s. Sənaye istehsalnın yerləşdirilməsinə təsir göstərən təbii amilin formaları sənayenin ayrı-ayrı sahələrinin ərazicə yerləşdirilməsində özünəməxsus şəkildə təsir bağışlayır. Belə ki, hasilata əsaslanan sənaye sahələrində, su energetikasında təbii şərait müəssəsələrin tikintisi və istifadə edilməsinin bütün texniki-iqtisadi göstəricilərinə birbaşa təsir göstərir. Regiondakı mövcud faydalı qazıntıların yatım xarakteri, ehtiyyatların kəmiyyət xarakteristikası, qazıntıların fiziki-kimyəvi xassələri hasilat sənayesi müəssisələrinin təmərküzləşmə səviyyəsini, hasilat metodunu, çıxardılan maddələrin ilkin emal xarekterini müəyyən edir. İqtisadi səmərəlik göstəricilərinin kəmiyyəti mədən müəssisələrnin

ölçüsündən, hasilat texnikasından, çıxardılan maddələrin ümumi xassələrindən asılıdır. Adındır ki, xüsusi vəsait qoyuluşları, məhsulun maya-xammal dəyəri və əmək məhsuldarlığı kimi bir sıra göstəricilər kömürün və filizlərin kimyəvi xammalların açıq üsulla çıxardıldığı iri mədən çıxarma müəssisələrində, tərkibində faydalı komponentlərin faizi xeyli olan faydalı qazıntıların çıxardılmasında daha da əlverişli olur. Əlverişli təbii şərait özlüyündə daha az istismar xərci ilə iri su elektrik stansiyalarını yaratmağa imkan verir. Təbii şərait hasilat sənayesinin yerləşdirilməsi vasitəsilə emal sənayesinin bir sıra sahələrinin yerləşdirilməsinə də təsir göstərir. Belə ki, qara və əlvan metalurgiya müəssisələri filizlərin çıxardıldığı yerə, ağac emalı müəssisələri oduncağın tədarük olunduğu yerə meyil edir; enerjitutumlu sahələr ən çox və bir qayda olaraq yanacaq və elektrik enerjisi mənbələri yaxınlığında yerləşdirilir.

Təbii amilin formalarından biri hesab olunan su ehtiyatı sənayenin bir çox sahələri, məsələn, qara metallurgiya müəssisələri, su elektrik stansiyaları, kimya sənayesi və digər sahələrin yerləşdirilməsinə vacib təsir göstərir. Regionlarda kifayət qədər su ehtiyyatının olmaması, hətta metalurgiya üçün lazım olan qədər xammal ehtiyatı olduqda da qara metallurgiya zavodlarının yaradılmasını ləngidə bilər. Təbii amil qismində iqlim şəraiti də sənayenin ərazicə yerləşdirilməsinə özünəməxsus formada təsir göstərə bilir. Belə ki, iqlimi çox soyuq rayonlarda mənzil, paltar, qida xərcləri iqlimi isti rayonlara nisbətən çox olur. İqlimi soyuq rayonlarda müəssisələri inşa edərkən əsaslı vəsait qoyuluşları iqlimi isti rayonlardakına nisbətdə çox olur və onun istismar xərcləri də, həmçinin, yüksəkdir. Qeyd eləmək lazımdır ki, modern dövrdə elmi-texniki tərəqqinin yüksək səviyədə inkişaf etməsi nəticəsində sənaye istehsalı yerləşməsinə təsir edən təbii amillərin təsirini texniki sıradan amillər qismən də olsa zəiflədə bilir. Belə ki, əgər təbii amil sənaye müəssisələrnin yerləşdirilməsini xammal bazası, təbii resursların olub-olmaması və s.-dən asılı edirsə, texniki amil, əksinə, həmin problem və çatışmazlıqları bir çox hallarda ciddi şəkildə azaldır. Mineral xammal və yanacaq növlərinin hasil edilməsi, saflaşdırılma və emalının yeni metodları əvvəllər istifadə

edilməsi qeyri-mümkün olan yataqları sənayenin istifadə əhatəsinə müvəffəqiyyətlə cəlb eləməyə imkan verir (Məmmədov R.H., 2006, s.78).

Qeyd edilməlidir ki, elmi-texniki tərəqqi sənayenin bir sıra sahələrinin yerləşdirilməsinə təbii amilin təsirini yalnız zəiflədə bilər, lakin onu bütünlüklə aradan qaldıra bilməz. Bu səbəbdən də müasir şəraitdə, dövlət və ya sənaye fəaliyyətilə məşğul olan hər bir sahibkar fəaliyyət göstərməyə başlayacağı sənayenin yerləşdirilməsini planlaşdırdıqda, müəssisələrin yaradılacağı rayonun seçilməsini, rayonlar üzrə istehsal ixtisaslaşmasını və faydalı qazıntıların müxtəlif yataqlarının öyrənilməsini və iqtisadi baxımdan hərtərəfli səciyyələndirilməsini, iqtisadi cəhətdən ən effektiv və səmərəli variantı seçmək məqsədilə hər varianta miqdar cəhətdən iqtisadi-maliyyə qiyməti verməlidir.

Təbii şəraiti iqtisadi baxımdan qiymətləndirmədən və onların mümkün təsirini nəzərə almadan ölkənin ayrı-ayrı iqtisadi rayonları üzrə sənayenin səmərəli yerləşməsi mümkün deyildir. Bunun üçün ölkənin bütün rayonları üzrə xammal, yanacaq və enerjinin potensial ehtiyatları barədə, onların öyrənilmə dərəcəsinə, ayrı-ayrı ehtiyatlarn kəmiyyət xarakteristikasına və keyfiyyət xassələri təsnifatına dair ümumi məlumatlara malik olmaq gərəkdir.

Qeyd olunduğu kimi, sənaye istehsalının yerləşməsinə təsir göstərən ən mühüm və vacib amillərdən biri elmi-texniki tərəqqidir. Sənaye istehsalının yerləşməsinə elmi-texniki tərəqqinin bir neçə əsas istiqaməti: elektrikləşmə, kimyalaşdırılma, texnoloji proseslərin xarakter və təkmilləşdirilməsi bilavasitə təsir göstərməkdədir. Elektrikləşmə məlum olduğu kimi, sənayenin əksər sahələrinin yerləşməsinə bu və ya digər dərəcədə təsir göstərir. Sənayenin enerjiyə daha çox tələbatı olan sahələri, əsasən, (elektro-metallurgiya, süni lif istehsalı və s.) ucuz elektrik enerjisi istehsalının cəmləşdiyi regionlarda, zəngin yanacaq ehtiyatları olan zonalarda yerləşdirilir. Haızrki dövrdə elmi-texniki tərəqqinin yüksək inkişaf tempi nəticəsində, elektrik enerjisinin uzaq məsafələrə çatdırılması ayrı-ayrı sənaye müəssisələrnin istənilən yerdə yerləşdirilməsində təbii-coğrafi şəraitin arzuolunmaz təsirini azaltmağa imkan verir. Bundan əlavə, elektrikləşmənin sənaye istehsalı yerləşdirilməsinə təsiri nəqliyyat xərclərinin

azaldılması vasitəsi ilə həyata keçirilir. Yəni dəmir yol nəqliyyatının elektrikləşməsi xammalın, materialın və hazır məhsulun daşınması zamanı nəqliyyat xərclərində azalmaya imkan verir.

Hazırki şəraitdə elmi-texniki tərəqqinin başlıca istiqamətlərindən biri olan kimyalaşdırmanın sənaye istehsalının ərazicə yerləşdirilməsinə təsiri getdikcə artır. Belə ki, maddələrin kimyəvi vasitələrlə emal edilməsi emal sənaye sahələrinin yerləşdirilməsini təbii şəraitin həlledici təsirindən, qismən də olsa, xilas edir. Bununla birlikdə, elmi-texniki tərəqqinin inkişaf etməsi nəticəsində kimyalaşdırmanın əhatəsinin genişləndirilməsi müxtəlif növlü və xassəli enerji və xammal ehtiyatlarını emal eləmək üçün yeni-yeni imkanlar açır. Bu isə müxtəlif regionlarda bir çox istehsal sahəsinin xammal bazasını genişləndirir, sənayenin ərazi baxımından təşkilinin elmi cəhətdən əsaslandırılmış prinsiplərini düzgün həyata keçirməyə, xüsusilə də, sənaye istehsalının ölkənin bütün ərazisi üzrə vahid qərarda yerləşdirilməsinə imkan yaradır. Elmi-texniki tərəqqinin digər vacib istiqamətləri olan avtomatlaşdırılma və kompleks mexanikləşdirmənin sənaye istehsalının yerləşməsinə təsiri böyükdür. Belə ki, təbii amil qismində mövcud olan əmək resursları məhdudluğunu zəiflədə bilər və bununla, əmək resursları məhdud regionlarda sənaye istehsalının yerləşdirilməsinə geniş şərait yaradar (Məmmədov R.H., 2006, s.70).

Sənaye istehsalının yerləşməsinə qeyd olunan amillərlə yanaşı, istehsalın ictimai təşkil formaları da, məsələn, təmərküzləşdirilmə, ixtisaslaşma, kooperativləşmə və kombinləşmə ciddi şəkildə təsir göstərir. İstehsalın təmərküzləşdirilməsi, başqa sözlə, iri müəssisələrin bir yerdə cəmlənməsi, təbii olaraq güclü xammal, yanacaq-energetika bazası yaradılmasını tələb edir. Təmərküzləşmə prosesi nəticəsində yaranmış iri müəssisələr böyük həcm və miqdarlarda xammal, material və energetika istehlak etdikləri halda, onların özlərinin istehsal etdikləri məhsulların istehlakçılarının çox olması və hazır məhsulların daşınma radiusunun yetərincə böyüklüyü iri həcmdə nəqliyyat xərcləri tələb edir. İstehsalın ictimai əsaslarla təşkili formalarından biri olan ixtisaslaşdırılma, təmərküzləşdirmə formasında da olduğu kimi, nəqliyyat amililə

sıx surətdə bağlı olur. İxtisaslaşdırılmış müəssisələr nəzdində istehsal olunmuş məhsulların istehlakçılara çatdırılması məsafəsinin böyüklüyü, digər bir tərəfdən xammal və materialların digər müəssisələrdən ixtisaslaşdırılan müəssisəyə daşınma prosedurası yük daşıma işləri və xərclərini xeyli dərəcədə artırır.

İstehsalın ictimai təşkil forması olan kooperativləşdirmənin sənayenin yerləşməsinə təsiri, ərazi-istehsal komplekslərinin yaradılma zərurətini meydana çıxarmışdır. Ərazi və istehsal komplekslərinin yaradılması, əsasən, bu kompleksə daxil olmuş ayrı-ayrı müəssisələr arasında rayon daxilində və rayonlar arasında kooperasiya əlaqələrinin yaradılmasının zəruriliyini tələb etdiyindən, sənaye istehsalı yerləşdirilməsində bu amilin də nəzərə alınması vacibdir. Kooperasiya əlaqələrini diqqətə almadan yerləşdirilən sənaye obyektlərinin iqtisadi-maliyyə səmərəliyini düzgün müəyyən etmək mümkün deyil. Sənaye istehsalının ərazicə təşkili zamanı kooperasiya əlaqələri tələb eləyən, xüsusilə də maşınqayırma, kimya, yüngül sənaye sahələrinin yerləşməsi də elmi cəhətdən əsaslandırılmış prinsiplərə söykənməlidir. İstehsalın kombinləşdirilməsi sənayenin müxtəlif ərazilərdə yerləşməsinə təsir göstərir. Kombinləşdirmə zamanı tullantıların bir çox növləri sənayenin müxtəlif sahələrinə görə ilkin xammal olur ki, bu da həmin istehsal prosesi üçün təbii xammal ehtiyatlarına malik olmayan rayonlarda müxtəlif istehsal sahələrinin yerləşdirilməsinə imkan verir.

Kombinləşdirmə nəqliyyat amilinin yerləşdirilməyə təsirini müəyyən qədər azaldır, çünki bir istehsaldan əldə edilən yarımfabrikatlar və ya yarımməhsullar sonralar bilavasitə həmin kombinatın başqa istehsalatında emal edilir. Sənaye istehsalının yerləşməsinə ciddi surətdə təsir göstərə bilən amillərdən biri də nəqliyyat amilidir. Sənaye sahələrində istehsal edilən məhsulların maya dəyərinin ümumi həcmi ölkə ərazisi üzrə sənayenin istehsalının necə yerləşməsindən də asılıdır. Sənayenin ərazicə yerləşdirilməsinin yaxşılaşdırılması xammal və hazır məhsulun həddən artıq uzaq məsafələrə səmərə və faydasız daşınmasını azaltmağa imkan verir. Bu da özlüyündə sənaye məhsullarının ayrı-ayrı növlərinin ilkin maya dəyərində xammal, material, yanacağın daşınma xərclərinin payını müəyyən dərəcədə azaltmağa geniş şərait yarada bilir. Məhz bu

səbəbdən, nəqliyyatın təsiri altında sənayenin müəyyən sahələri xammal mənbələrinin yaxınlığnda, digərləri onların məhsulları üçün istehlak yerlərində, digər sahələrsə ucuz enerji mənbələrinin yaxınlığında yerləşdirilməlidir.

Belə bir fakt da qeyd olunmalıdır ki, sənaye istehsalının ərazicə təşkili prosesində nəqliyyat amilinin təsiri hasilat sənaye obyektlərinin yerləşdirilməsinə şamil etmək olmaz. Bu səbəbdən, faydalı qazıntı məkan baxımından haradadırsa hasilat sənayesi də məhz orada yerləşdirilməlidir. Lakin emal sənayesi müəssisələri hasilat sənayesindən fərqli olaraq ərazi baxımından yerləşdirilərkən həm hasilat sənaye obyektlərinin yaxınlığında, həm də tamamilə başqa rayonlarda təşkil edilə bilər. Emal sənayesi obyektlərinin yerləşdirilmə yerini seçərkən nəqliyyat amilinin təsiri nəticəsində çoxvariantlılıq yaranır ki, onlardan da ən əlverişli olanını seçmək üçün yaranmış variantları texniki-iqtisadi və maliyyə cəhətdən əsaslandırmaq lazımdır.

Yeni bazar iqtisadiyyatı və münasibətləri sisteminə keçmiş Azərbaycan Respublikasında sənaye istehsalının ərazicə təşkili işində nəqliyyat amilinin rolu kifayət qədər böyük olacaqdır.

Qeyd olunmalıdır ki, respublikanın xarici ölkələrlə iqtisadi əlaqələrini genişləndirməkdən ötrü çox əlverişli nəqliyyat və coğrafi şərait mövcuddur və bunu gələcəkdə genişləndirməyə görə əlavə imkanlar da vardır. Hazırda yaxın xarici ölkələrə istehsal edilən məhsulu ixrac və idxal eləmək üçün sərfəli dəmiryolu şəbəkəsi və dəniz nəqliyyatından istifadə etmək imkanı kifayət qədər çoxdur. Bunlardan əlavə, son vaxtlar “TRASEKA” proqramı çərçivəsində icra edilən “Tarixi İpək Yolu”nun bərpası layihəsi də respublikamızda sənaye istehsalının ərazicə yerləşdirilməsi işinə müsbət təsir göstərəcəkdir. Sənaye istehsalının ərazi baxımından təşkili işinə təsir göstərə bilən həlledici amillərdən biri də demoqrafik amildir. Başlıca demoqrafik amillərə: ölkənin ayrı-ayrı rayonlarında əmək ehtiyyatlarının kəmiyyət-keyfiyyət xarakteristikası, kadrların ixtisaslaşma səviyyəsi, əmək qabiliyyətli əhalinin sənaye istehsalına cəlb edilmə imkanları və d. aiddir. Əmək ehtiyyatlarının coğrafi yerləşməsi hər şeydən əvvəl sənayenin daha çox zəhmət tələb edən sahələrinin yerləşməsinə təsir göstərir.

Ölkənin ümumi ərazisi üzrə əhalinin yerləşməsi ictimai (sosial) istehsalın yerləşdirilməsinin nəticəsi olsa da, yeni sənaye obyektlərinin inşa edilməsi yeri seçilərkən həmin dövrdə məhsuldar qüvvələrin ərazicə təşkilinin faktiki vəziyyətini nəzərə almaq lazımdır. Ayrı-ayrı rayon və ya bölgələrdə əmək ehtiyatlarının struktur və ixtisas tərkibini nəzərə almaq lazımdır. Ancaq vaxtilə Azərbaycan Respublikasında sözügedən amillər nəzərə alınmadan ölkənin rayonları üzrə sənaye obyektləri plansız və qeyri-bərabər şəkildə yerləşdirilmişdir və nəticədə, ölkənin ucqar rayonlarında xeyli sosial-iqtisadi problemlər yaranmışdır. Belə ki, uzaq və ucqar rayonların əhalisinin paytaxta və ya xarici ölkələrə miqrasiyasına rəvac vermişdir.

Yaradılması planlaşdırılan sənaye obyektinin yerləşmə yeri seçilərkən sosial qəbildən olan amilləri, xüsusilə də, ətraf mühitin qorunması, əmək və məişət şəraitinin yaxşılaşdırılması, qeyri-istehsal sahələrinin inkişaf etdirilməsi və bunlarla birlikdə, xalqa məxsus milli adət-ənənələri mütləq şəkildə nəzərə almaq lazımdır.

Sənaye istehsalını ərazicə səmərəli yerləşdirmək üçün yuxarıda sadalanan amillərdən əlavə, sənayenin ayrı-ayrı sahələrinin yerləşdirilmə xüsusiyyətləri də nəzərə alınmalıdır. Sənaye sahələrini yerləşdirərkən, adətən, aşağıda qeyd olunan xüsusiyyətlər nəzərə alınır:

- sənaye sahəsində istehsal olunan məhsulun əsas iqtisadi təyinatı, kütləvilik dərəcəsi və ölkənin iqtisadi-sosial rayonları üzrə istehlakçı miqyasları, habelə, məhsulun daşınmaya davamlılığı;
- sahədə istehlak olunan ilkin xam materialların xarakteri, ölkənin ərazisi üzrə xammal ehtiyatları mənbələrinin yayılma dərəcəsi, sənaye xammalının ən mühüm növlərinin daşınmaq üçün davamlılığı;
- sahənin texniki və ləvazimat bazası, tətbiq ediləcək texnologiyanın xarakteri, istehsalın istilik-enerji tutumu, suya tələbatı, istehsal tullantılarının əsas xarakteri və s;

- müəssisənin tip və quruluşu, onun ölçüsü, strukturu, ixtisaslaşma və yönəliş xarakteri və kombinləşmə imkanı;
- müvafiq sahənin rayonun iqtisadi kompleksinin ixtisaslaşdırılmasına və əsas profilinə təsir dərəcəsi, sahənin müəssisələrinin iri yaşayış məntəqələrinin yaranmasına ehtimal olunan təsiri və s. (Nadirov A.A., 1976, s.44).

Vurğulanan bu xüsusiyyətlərin yerləşdirməyə təsiri sənayenin ayrı-ayrı sahələrində biri-birindən fərqli olur. Belə ki, elektrik stansiyaları yerləşdirilərkən, mineral yanacağın əksər növlərinin daşınmağa az davamlı olmasını və hidravlik ehtiyatların daşınmaq üçün əlverişli olmamasını; elmi-texniki tərəqqi və inqilab nəticəsində elektrik enerjisinin uzaq məsafələrə çatdırılmasının mümkün olmasını, iri elektrik stansiyalarının inzibati-iqtisadi rayonların ixtisaslaşmasına mümkün təsirini nəzərə almaq lazımdır. Lakin o da qeyd olunmalıdır ki, elektrik stansiyalarının yerləşməsinə enerji istehlakçılarının yerləşməsi və ümumi xarakteri, yüksək voltlu verilmə xətlərinin inşaatının dəyəri və istismar xərcləri, elektrik enerjisini uzaq məsafələrə çatdırarkən itkilərin kəmiyyəti, elektrik enerjisi və istiliyin istilik elektrik stansiyalarında kombinləşdirilmiş istehsalının mümkünlük dərəcəsi də təsir göstərir.

Sənayenin aparıcı və əsas sahələrindən olan qara metallurgiya müəssisələri yerləşdirilərkən metallurgiya istehsalının materialtutumluluğunu, ilkin xammal və hazır məhsulun çətin daşınmasını, istehsal olunan məhsulun nomenklaturasını, müəssisə tipini (tam metallurgiya dövriyyəli kombinat, zavod və ya emal zavodu), istehsal prosesində xeyli miqdarda su tələb olunmasını, habelə, iri metallurgiya kombinatlarının sənayenin bir sıra sahələri və iri şəhərlərin yaranmasına mümkün təsirini də nəzərə alırlar. Metallurgiya istehsalının materialtutumluluğu müəssisənin filiz və kömür hasil edilən yerlərdə qurulmasını şərtləndirir.

Kimya sənayesinin fərqli sahələrini yerləşdirərkən: istifadə edilən xammalların qeyri-məhdudluq dairəsini, sənayenin bir çox sahələrinin tullantıları və yanaşı məhsullarının kompleks emaledilmə imkanlarını, bir xammal növündən və ya müxtəlif xam material növlərindən eyni və ya analoji məhsul növünü almağın mümkünlüyü, ölkənin bütün iqtisadi rayonlarında yayılan xammal növləri

bazasında sintetik materialların geniş istehsal imkanı olmasını nəzərə almaq lazımdır.

Maşınqayırma sənayesi yerləşdirilərkən: maşınqayırmanın ayrı-ayrı sahələrində istehsal olunan məhsulun xarakteri; sahənin metaltutumluluq dərəcəsi; maşınqayırma məhsulunun kütləvilik səviyyəsi; bu və ya digər iqtisadi rayonda sənaye və xalq təsərrüfatının başqa sahələrinin ixtisaslaşması; iqtisadi rayonun sənaye baxımından inkişaf səviyyəsi; ixtisaslaşmanın, xüsusilə də, detallar üzrə ixtisaslaşma və maşınqayırma müəssisələrinin kooperativləşməsinin geniş imkanları; hər bir iqtisadi rayonda, hətta hər yerdə maşınqayırmanın bir çox məhsul növlərinin istehlak olunması və s. nəzərə alınır.

Bir sözlə, sənayenin istehsalının ərazicə təşkili işində təsir göstərə biləcək hər bir amil və xüsusiyyət ayrı-ayrılıqda tam şəkildə öyrənilməli və elmi cəhətdən əsaslandırılmalıdır.

**1.3.Sənaye müəssisələrinin yerləşdirilməsinin əsaslandırılması**

Sənaye müəsisələrinin iqtisadi-maliyyə cəhətdən əsaslandırılmış yerləşdirilməsi ölkənin təbii əmək resurslarınn effektiv şəkildə istifadəsi, səmərəsiz daşınmalara ayrılan xərclərin azaldılması, əhalinin sənaye istehsalı məhsullarına tələbatının dolğun şəkildə ödənilməsi üçün zəmin rolunu oynayır.

Sənaye müəssisələrinin xammal, enerji mənbələrinin yaxınlığında yerləşdirilməsi həmin regionun ümumi inkişafına, həmçinin, təbii xammal ehtiyatları və enerji mənbələrilə zəngin ətraf ərazilərin də öyrənilib mənimsənməsinə, onlardan kompleks istifadəyə kömək edir. Ağır sənaye müəssisələrinin bu cür xammal və enerji mənbələrinin yaxınlığında yerləşdirilməsinin iqtisadi cəhətdən əsaslandırılması lüzumsuz xərclərdən qurtulmaq deməkdir. Fərqli şəkildə, hazır məhsul istehsal eləyən yüngül sənaye müəssisələri isə istehlakçıya yaxın yerləşdiriməlidir. Bu, özlüyündə, iqtisadi cəhətdən bu cür əsaslandırılır ki, hazır məhsul istehlakçıya çatdırılarkən zərər olmasın, müəssisələr lüzumsuz yol xərclərindən xilas olsun. İstənilən halda başlıca məqsəd istehsalın səmərəliliyinin artırılması, istehsal xərclərinin azaldılması və

əmək məhsuldarlığının artırılmasından ibarətdir. Ölkə ərazisində paylanmış müəssisələrin, istehsal qruplarının müvafiq yerləşdirilməsi hər zaman elmi əsaslandırma və ya təməl tələb edir. Bunun üçün xüsusi metod və vasitələr mövcuddur, onların köməkliyi ilə yerləşdirmə variantları seçilir, istehsal effektivliyi və təsərrüfatın ərazicə təşkilinin effektivliyi qiymətləndirilir. İstehsalın yerləşməsinin yüksək effektivliyinin əldə edilməsi elm və təcrübənin başlıca vəzifəsidir. Təsərrüfat subyektlərinin yerləşməsinin nəzəri konsepsiyalarının formalaşdırılmasının başlanğıcını, bir qayda olaraq, görkəmli alman alimi Tyunen İ. "Kənd təsərrüfatı və milli iqtisadiyyata qarşı münasibətdə təcrid edilmiş dövlət" (1826) kitabının çapı ilə əlaqələndirirlər. Öz silsilə tədqiqatlarında Tyunen sərhədlər daxilində kənd təsərrüfatı məhsulunun birgə satış bazarının və ölkənin sənaye malları ilə təmin olunması mənbəyini mərkəzi şəhərin mövcud olduğu mücərrəd, iqtisadi cəhətdən təcrid edilmiş dövlətin qismində nəzərdən keçirirdi.

Digər görkəmli alman mütəfəkkiri Launxard V. ayrı-ayrı sənaye müəssisələrinin xammal mənbələri və məhsulun satış bazarlarına nisbətən optimal yerləşdirilməsi prosesini tədqiq etmişdi. İstehsal xərcləri tədqiq edilən bütün ərazi üçün bərabər şərtlərlə qəbul olunurdu.

Müəssisənin optimal şəkildə yerləşdirilməsi yeri daşınacaq yüklərin və məsafələrin çəki nisbətlərindən asılı olmaqla tez-tez dəyişirdi. İstehsalın müvafiq şəkildə yerləşdirilməsi nəzəriyyəsinə alman iqtisadçısı Veber A. də öz geniş töhfəsini vermişdir. Onun hələ 1909-cu ildə dərc edilmiş "Sənaye yerləşdirilməsi haqqında: xalis ştandort nəzəriyyəsi" kitabında Veber istehsal yerləşdirilməsinin amillərinin onların təsir, ümumilik dərəcəsi və təzahürünə görə ətraflı və müfəssəl təsnifatını hazırlamışdı. Alim təsərrüfat fəaliyyəti yerləşdirilməsindən asılı olaraq onun üçün üzə çıxacaq iqtisadi faydanı göstərirdi. Sözügedən fayda istehsal üzrə və müəyyən sənaye məhsullarının satışına görə xərclərin ixtisarından ibarət idi və məhsul istehsalı üzrə ən az xərclərlə hazırlığın optimal yerinin seçilməsi demək idi. Məhsuldar qüvvələrin yerləşdirilməsi nəzəriyyəsinin xüsusiyyətlərinin yeni və novator istiqamətlərindən biri İsveçli alim Xarqerstrandın "İnnovasiyaların diffuziyası" nəzəriyyəsidir; bu nəzəriyyəyə əsasən, bütün sosial-iqtisadi inkişaf

prosesi birmənalı şəkildə innovasiyaların yaranmasının və yayılmasının məntiqi nəticəsidir. Yeniliklərin və ya innovasiyaların diffuziyası məkan-zaman prosesidir, onun başlıca mahiyyəti “uzun dalğaların” gedişində istehsalın prioritet sahələrinin dəyişdirilməsilə bağlı olan makroiqtisadi və regional inkişaf çərçivəsində innovasiya ocaqlarının yaranmasının və iqtisadi məkana diffuziyasının sürətinin həlledici rol oynamasından ibarətdir.

Fransız iqtisadçı alimi Perrunun “Artım qütbləri” konsepsiyası da məşhurdur. Nəzəriyyənin təməlində yeni əmtəə və xidmətləri yaradan lider sahələrin iqtisadi strukturda aparıcı rol oynaması haqqında təsəvvür dayanır. Lider (və ya aparıcı) sahələrin müəssisələrinin yerləşdirildiyi iqtisadi məkanın mərkəzləri məntiqi şəkild istehsal amilləri qütblərinə çevrilirlər, çünki onlar həmin amillərin daha effektiv və səmərəli istifadəsini təmin edirlər. Buradan iqtisadi artımın qütblərinin formalaşdırılmasını şərtləndirən müəssisələrin ərazi üzrə təmərküzləşməsi irəli gəlir.

Perrunun ideyalarının inkişaf etdirilməsində artım qütbləri və yeniliklərin diffuziyasının əsasında urbanizasiya prosesini analiz edən X.Lasuenin və artım qütblərinin əsas təsnifatını hazırlayan və konkret mərkəzlər və sahələrin öyrənilməsinə keçidi təklif edən Darventin də böyük töhfələri olmuşdur. Ümumiləşdirdikdə, istehsalın ərazicə yerləşdirilməsinin iqtisadi əsaslandırılma metodologiyası özündə aşağıdakı mühüm mərhələləri birləşdirir:

-Müasir inkişaf və yerləşdirilmənin analizi;

-Sahə və ayrı-ayrı müəssisələrin perspektiv inkişafının əsas şərtləri və amillərinin təyin edilməsi;

-Variant seçimi və optimal inkişaf variantının müəyyən olunması (Məmmədov R.H., 2006, s.66).

İlkin mərhələdə istehsalın inkişaf və yerləşdirilməsində disproporsiyalar (ayrı-ayrı etaplar arasındakı uyğunsuzluqlar) və istehsal rezervləri öyrənilir, yəni inkişaf və yerləşdirilmə prosesində qüsurlar aşkar edilir və onların təkmilləşdirilməsi üçün yollar müəyyənləşdirilir. Bu zaman aşağıdakı göstəricilər də nəzərə alınır:

1. xammal qaynaqları ilə təminat;

2. məhsulun natura və dəyər ifadəsində istehsal həcmi;

3. maya dəyəri;

4. material tutumluluğu;

5. enerji tutumu;

6. kapital qoyuluşu;

7. gəlirlik (rentabellik);

8. əsas fondların dəyəri, kapital məhsuldarlığı, istehsalat obyektlərinin fəaliyyəti;

9. əmək məhsuldarlığı göstəriciləri.

İstehsalın mühüm inkişaf amili bu sahədə istehsal-texniki xüsusiyyətlərinin və elmi-texniki tərəqqinin səviyyəsinin nəzərə alınması hesab olunur. Belə ki, müxtəlif texnoloji proseslərin köməyilə eyni məhsul buraxan müəssəsələr müxtəlif yerləşdirilmə amillərilə xarakterizə edilirlər. Bir çox istehsalın yerləşdirilməsi üçün resurs və ya qaynaq amili həlledici məna kəsb edir.

Fərqli sferalar və onların struktur bölmələri öz istehsal və texnoloji spesifikası vasitəsi ilə göstəricilərə görə məhsul vahidinin istehsal edilməsinə göstərilən resursların xərclərini də nəzərdə tutan enerji, material, su, həmçinin, əmək və kapital tutumlarını fərqləndirirlər. İstehsalın yerləşməsində ekoloji amillərin rolunun gücləndirilməsilə əlaqədar istehsalın ətraf-mühitə mənfi təsirinin azaldılmasının səviyyəsini xarakterizə eləyən istehsalın ekoloji tutumluq göstəriciləri də (normativ və standartlar) aktualdır. İstehsalın yerləşməsi üçün nəqliyat və istehlak amilləri böyük əhəmiyyət kəsb edir. Nəqliyyat və istehlak amillərinin diqqətə alınması metodlarından biri istehsal və satış zonalaşmasının və bərabər istehsal və nəqliyyat xərclərinin iqtisadi sərhədlərinin təyin olunmasıdır.

Elmtutumlu istehsal müəssisəsinin yerləşdirilməsi zamanı elmi-peşəkar mərkəzlərin və yüksək ixtisaslı kadrların mövcud olması, onların öyrədilməsi imkanları da mütləq surətdə nəzərə alınır. Üçüncü mərhələdə müəssisələrin yerləşdirilməsinin seçilən yerlərinin və istehsal həcmlərinin əsasında fərqli sayda mümkün inkişaf istiqamətləri (və ya variantları) hazırlanır.

Sənaye müəssisələrinin yerləşməsi variantlarının iqtisadi-maliyyə səmərəlik meyarı yerləşdirilmənin müxtəlif variantlarında məhsul istehsalına və istehlakçılara daşınmasına sərf olunan ümumi xərclərin azaldılması dərəcəsidir. Yerləşdirilmə variantlarının müqayisəli iqtisadi səmərəlik göstəriciləri investisiya qoyuluşlarının iqtisadi-maliyyə səmərəliyini müəyyənləşdirərkən tətbiq edilən göstəricilərdir. Yerləşdirilmənin səmərəliyini müəyyən etməkdə keyfiyyət təhlili olduqca vacib işdir, çünki yerləşdirilmənin həmin variantının nəticələri çox vaxt uzun müddətdə özünü göstərir ki, bu isə səmərəliyin kəmiyyət etibarilə təzahür etməsini çətinləşdirir. Yerləşdirmənin ən səmərəli və effektiv variantı çəkilmiş xərclərin minimuma, yaxud xalis cari dəyərlərin maksimuma bərabər olduğu variantlardır. Rayonların eyni olmaması və müxtəlifliyi istehsal xərcləri səviyyəsində, investisiya qoyuluşları həcmində, istehsal və qeyri-istehsal fondlarının məsrəfləri arasında olan nisbətdə təzahür edir. Bu səbəbdən, hər hansı istehsalın yerləşdirilmə variantını əsaslandırarkən ayrı-ayrı rayonlar arasındakı fərqlərini nəzərə almaq lazımdır. Əks təqdirdə, seçilmiş yerləşdirilmə rayonunun iqtisadi səmərəliyi təhrif edilmiş olar.

Yerləşdirilmə variantlarının müqayisəli və iqtisadi səmərəliyini müəyyən edərkən ən vacib məsələ məhsulun istehlak olunduğu yerdə həmin məhsulun maya dəyərinin əsasında variantların da müqayisə edilə bilməsidir. Bunun üçün variyasiyalardan hər biri üzrə istehsal xərcləri birbaşa müəssisədə deyil, həm də nəqliyyat, yükvurma və yükboşaltma xərcləri, habelə, daşınılan sənaye yüklərinin saxlanılması xərcləri də müəyyən edilmək yolu ilə hesablanmalıdır. Nəqliyyat xərcini müəyyən edərkən quru, su və hava yollarının vəziyyəti, iqlim şəraiti, məhsulun istehsal məntəqəsindən istehlak məntəqəsinə qədər olan məsafə və daşınma xərclərinə təsir edən digər şərtləri nəzərə alınmalıdır. Nəqliyat xərclərinin kəmiyyətləri nəqliyyatın texnika ilə təchiz olunması, mal dövriyyəsi həcmi, sərbəst yükdaşıma vasitələrindən istifadə edilməsi nəzərə alınmaqla müəyyən edilir.

Yerləşmə variantlarının müqayisəli şəkildə səmərəliliyi hesablanarkən məhsulu istehlak eləyən bütün rayonlar üçün orta maya dəyərindən istifadə eləmək lazımdır. Orta maya dəyəri məhsul istehsalının maya dəyərinə, habelə, onun

istehlak məntəqəsinə qədər daşınmasının maya dəyərinə, məhsul istehlakının məqsədəuyğunluq sərhədinə, məhsulun ümumistehlakında ayrı-ayrı maddələrin nisbətlərinə əsasən hesablanır. Yerləşdirilmə variantlarının iqtisadi səmərəliyi sadəcə əsas istehsal fondlarına sərf olunan məsrəflərdən deyil, həmçinin, müəssisələrin yerləşməsi şərtlərindən irəli gələrək yaradılmış qeyri-istehsal fondlarına çəkilmiş xərclərdən çox asılıdır. Bu səbəbdən də, qeyri-istehsal təyinatlı fondların yaradılmasına xərclənən əlavə məsrəfləri mütləq nəzərə almaq lazımdır. Bir qayda olaraq, sənaye obyektinin tikintisinin yerləşməsi rayonun müvafiq təsərrüfat və təbii ehtiyatlarına zərərlə müşayiət edilir. Aşkardır ki, sənaye tikintisilə əlaqədar itkilər nəzərə alınmalı, onların ödənməsinə çəkilən məsrəflərsə yerləşdirilmiş müəssisənin aid olduğu sahənin ümumi məsrəflərinə daxil edilməlidir (Məmmədov R.H., 2006, s.70).

Yerləşdirilmə variantlarının müqayisəli şəkildə iqtisadi səmərəliyini müəyyən etmək üçün xammal və yanacağın xüsusi sərfiyyatı, fəhlələrin orta istehsalat norması və s. natural texniki və iqtisadi göstəricilər sistemindən geniş istifadə eləmək lazımdır. Yerləşdirilmə variantlarının müqayisəli və iqtisadi səmərəliyinin müəyyən edilməsi tam investisiya qoyuluşları və məhsulun cəmiyyət baxımdan maya dəyərini uçota almağı da nəzərdə tutur. İqtisadi rayon daxilində sənaye müəssisəsinin inşa ediləcəyi məntəqənin seçilməsi həm tikinti iqtisadiyyatına (onun davamiyyəti və dəyərinə), həm də işə salındıqdan sonra müəssəsənin işinin iqtisadi səmərəliyinə təsir göstərir. Tikinti məntəqəsini iqtisadi baxımdan əsaslandırılarkən nəzərə almaq lazımdır ki, iri şəhər və regionlarda sənayenin həddən artıq təmərküzləşdirilməsi yolverilməz haldır; əlverişli və məhsuldar iqtisadi şəraitdə müəssisəni orta və xırda şəhərlərdə yaratmaq lazımdır; adətən, müəssisələrin vahid energetik baza və ümumi kommunikasiyası olan istehsal kompleksləri şəklində yerləşdirilməsi daha məqsədəmüvafiqdir; yaşayış yerlərinin inkişaf və təkmilləşmə şəraiti və planlaşdırmasını nəzərə almaq lazımdır; müəyyən edilmiş sanitariya-gigiyenik tələblərə və normalara, həmçinin, mülki müdafiə tələblərinə riayət eləmək lazımdır.

Sənaye müəssisəsələrinin yerləşmə məntəqəsinin əsaslandırılması üçün onun

ölçüsü, profil və ixtisaslaşma xarakteri, habelə, onun kombinləşmə tipi barədə məlumata malik olmaq lazımdır. Bu məlumatlar yerləşdirilmə rayonunu əsaslandırarkən, müəyyən zaman ərzində həmin sahə müəssisələrinin optimallaşdırılmış ölçü normativləri və rayonlararası koperativləşmə nəzərə alınmaqla hesablanan xammal, yanacaq və hazır məhsulun rayon balansına əsasən işlənib hazırlanır. Sənaye müəssisəsinin tikilməsi məntəqəsinin əsaslandırılması zamanı rayon yerləşdirilməsində mövcud olan amillər də nəzərə alınır.

Nəqliyyat xərc və məsrəflərini azaltmaq məqsədi ilə tikinti üçün seçilən məntəqə maksimum dərəcədə xammal mənbələrinə və hazır məhsul istehlak yerlərinə yaxınlaşdırılmalıdır. Belə ki, ayrı-ayrı xammal növləri və hazır məhsulun daşına bilinməsi - çəkisi,həcmi, xarakteri və s. mütləq surətdə nəzərə alınmalıdır.

Seçilən tikinti məntəqəsi nəqliyyat yollarının olmasilə (yaxud onların çəkilməsi üçün əlverişli şəraitin olmasilə), elektrik təchizat mənbələri, tikinti materialları, həddən artıq əsaslı və fundamental vəsait qoyuluşları tələb etməyən su təchizatı mənbələri və çirkab sularının axıdılması üçün imkanların mövcudluğu ilə səciyyələndirilməlidir. Müəssisənin yerləşdirilmə məntəqəsi seçilərkən sənayenin hər bir sahəsi öz tələblərini təqdim eləyir. Məsələn, metallurgiya zavodunun inşası üçün məntəqə seçilərkən onun yaxınlığında ilkin xammal olmasına, metallurgiya zavodunun işlənməsi üçün lazımi, uzaqdan gətirilməsi sərfəli və qənaətli olmayan, tikinti materiallarının, odadayanıqlı materialların, flüslərin olmasına diqqət yetirilir; həmçinin xeyli sututacaqların olması lazımdır. Hasilat sənayesi sahələrində müəssisənin yerləşdirilməsi yerinin seçilməsində ən mühüm problem qazıntı yatağının kəmiyyət və keyfiyyətinin iqtisadi cəhətdən qiymətləndirilməsidir. Müəssisənin yerləşməsinin bir neçə variantını müqayisə eləmək və optimal olanını tapmaq üçün müəyyən iqtisadi göstəricilərdən istifadə edilir ki, bunların əsaslarını aşağıdakılar təşkil edir: əlaqəli sahələrin – xammal-yanacaq, energetika, su təchizatı və nəqliyyat, mənzil tikintisinin inkişaf etdirilməsinə çəkilən məsrəflər nəzərə alınmaqla tikilməkdə olan müəssisənin güc vahidinə fundamental vəsait qoyuluşları; məhsulun ümumi maya dəyəri və istehlakçıya çatdırılması dəyəri; əsaslı vəsait qoyuluşlarının ödənilmə müddəti

(səmərəlik əmsalı), habelə, xalis cari dəyər göstəricisi.

Əlavə olaraq, hazırki dövrdə xüsusi nəzarət altında olan regional inkişaf nəzəriyyələri ilə bağlı yanaşmaları da qeyd etmək məqsədəuyğundur. Belə ki, əsası 18-ci əsrdə Adam Smitə qədər uzandığı qəbul edilən və 1970-ci illərdə güclənməyə başlayan qloballaşma prinsipi regional inkişaf anlayışında dəyişiklik yaradan ən önəmli faktordur. 1929-cu ildə başlayan Böyük Böhranın yaratdığı təsirlər Keynsin dövlət müdaxiləsinə əsaslanan iqtisadi siyasəti nəticəsində arasında qaldırıla bilmişdir. 1970-ci illərin staqflyasiya probleminə qədər davam edən Keynsçi iqtisadi siyasətlər həm makroiqtisadi dəyişikliklər baxımından, həm də böyümə, inkişaf və xaricə genişlənmə məsələlərində toplumun iqtisadiyyatdakı yerini genişlətmiş, dövlətin yerli orqanlar qarşısında gücünü artırmışdır (Hoover E.M, 1963, s.48).

Klassik regional inkişaf siyasətlər zəif inkişaf etmiş regionların sənayeləşməsi və modernləşdirilməsi ilə bölgələr arasında bərabərsizliyi azaltmağı hədəfləmişdir. Bu siyasətlərin təməli nisbətən az, lakin böyük həcmdə investisiyaların iqtisadiyyatın müəyyən sahələrində və ya coğrafi ərazilərdə həyata keçirilməsi və əldə ediləcək faydalılığın genişlənərək digər ərazilərə yayılması düşüncəsinə dayanır. Bu siyasətlərin alətləri isə infrastrukturun yaxşılaşdırılması, sahibkarlığın və ya özəl sektorun təşviq edilməsi olub, region daxili investisiyaların artırılması məqsədini güdür.

- Bir neçə dinamik sahədə və regionda başlayır və digər sektor və sahələrə yayılır.
- Əsas diqqət urbanizasiya, sənayeləşmə, kapitalyönümlü inkişaf, yüksək texnologiyanın istifadəsi, xarici və miqyaslı iqtisadiyyatın maksimum səviyyəyə çıxarılmasına yönəlir.
- İnkişaf, əsasən, böyük miqyaslı investisiya layihələrini, artan funksional və regional inteqrasiya fəaliyyətlərini, bunu təmin edəcək olan irimiqyaslı özəl və dövlət qurumlarını, böyük miqyaslı paylama mexanizmlərini və bu vahidlərə və ya bu vahidlər arasındakı axının qarşısını alan iqtisadi, sosial, mədəni və qurumsal əngəllərin azaldılmasını əhatə edir (Boudeville J., 1966, s.50).

Bu siyasətlərin bir sıra regionlarda regionlararası ziddiyətlərin aradan qaldırılmasında uğurlu olması ilə bərabər, struktur məsələlərin həll olunmasında təsirli olduğunu demək olmaz. Stohr, misal olaraq, İtaliyanı göstərmiş və 60-cı illərdə mərkəzi hakimiyyətin böyük maliyyə qaynaqları klassik nəzəriyyəyə uyğun olaraq inkişaf qütbləri yaratmaq məqsədilə regional siyasətlərə ayırdığına işarə edərək klassik inkişaf nəzəriyyəsinin nəticələrini belə ümumiləşdirmişdir: "Son 30 ildə mərkəzdən güclə tətbiq olunan inkişaf strategiyaları, yaşayış standartlarındakı bərabərsizliyin azaldılmasında uğurlu olmadı. Tam əksinə, bu bərabərsizliklər daha da artdı. Bu vəziyyət həm sosial siniflər arasında ziddiyətlər, həm də coğrafi ərazilər arasındakı ziddiyətlər üçün keçərlidir".

## II Fəsil AZƏRBAYCAN REGİONLARINDA SƏNAYE İSTEHSALI İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİNİN TƏHLİLİ

### 2.1. Ölkədə sənaye istehsalının inkişaf vəziyyətinin və ərazi strukturunun qiymətləndirilməsi

Hal-hazırda Azərbaycanın fərqli regionlarında sosial-iqtisadi inkişafın ümumi səviyyəsinə görə müşahidə olunan böyük fərqlər əvvəlki vaxtlarda uzun müddət istehsal prosesinin ərazicə təşkilində buraxılan səhvlərin nəticəsidir.

Apardığımz təhlillərdən sonra məlum olur ki, son vaxtlarda, əsasən də ölkə Prezidenti tərəfindən təsdiqlənən "Azərbaycan Respublikasının regionlarının sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları (2004-2008, 2009-2013 və 2014-2018-ci illər)" həyata keçirildikdən sonra regionların ümumi sosial-iqtisadi inkişafının göstəricilərində xeyli artım meylləri əmələ gəlmişdir. Belə ki, əksər regionlarda yeni müəssisələr yaradılmış, onların da əsasında yeni iş yerləri açılmışdır.Regionlarda yeni yaradılan müəssisələrin sayında kəskin fərqlər mövcud olmuşdur. Bu, çox səmərəli bir meyildir və perespektiv üçün daha çox gücləndirilməlidir. Lakin bununla birlikdə, ölkənin ayrı-ayrı regionları üzrə sənayenin istehsalı qeyri-bərabər şəkildə inkişaf etməkdədir və onların ümumi istehsaldakı məxsusi çəkiləri olduqca fərqlidir. Regionlarda sənaye istehsalının bu cür zəif inkişaf etməsi bir çox amillərlə əlaqədardır. Aşkardır ki, sənaye istehsalının indiki və perespektiv inkişafına təsir eləyən əsas amillərdən biri müəssisəyə qoyulan investisiya qoyuluşudur. Çünki investisya iqtisadiyyatın sabitləşdirilməsinin, habelə perspektiv inkişafının əsas vasitələrindən biri kimi çıxış edərək, real ümumi kapitalın artırılmasında iqtisadi səmərəliyin stimullaşdırılmasında, yəni rəqabətəqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasında vacib rol oynayır. Onun istifadə nəticəliliyinin və yığım səviyyəsinin yüksək olması real istehsalın canlandırılmasının, həmçinin, iqtisadiyyatın yeni sektorlarının yaradılmasının və inkişafının başlıca əlaməti olmaqla böhranlı hadisələrin aradan qaldırılmasına, bununla da, ölkənin milli sərvətlərinin artırılmasına zəmin yaradır.

Azərbaycanın milli iqtisadiyyatına yönəldilmiş istər daxili, istər xarici investisyaların ölkənin rayonları üzrə bölgüsü zamanı kəskin fərqlər ortaya çıxır. 2014-cü ildəki statistikadan məlum olur ki, sözügedən ildə ölkədə əsas kapitala yönəldilmiş investisiyanın 70 faizdən çoxu Bakı şəhərinin, 3.36 faizi Abşeron iqtisadi rayonunun, 4.95 faizi Gəncə-Qazax, 1.38 faizi Şəki-Zaqatala, 1.93 faizi Lənkəran, 2.24 faizi Quba-Xaçmaz, 6.98 faizi Aran, 0.59 faizi Yuxarı Qarabağ, 1.04 faizi Dağlıq Şirvan və 5.61 faizi Naxçıvan iqtisadi rayonlarının payına düşmüşdür. Lakin uğurlu islahatlar nəticəsində sonrakı illərdə bu faiz 50 faizədən azalmışdır (https://www.stat.gov.az, 2014).

Həyata keçirilən kapital qoyuluşlarının ümumi ərazi quruluşu Abşeron iqtisadi rayonunun, xüsusilə, Bakı şəhərinin sənaye potensialının ümumrespublikanın sənaye potensialı həcmində xüsusi çəkisinin xeyli artmasına gətirib çıxarmışdır. Hazırda respublikamızın iqtisadiyyatının cari vəziyyətində, xüsusilə də, investisiyanın məhdudluğu şəraitində sadəcə daxili imkanlar hesabına həyata keçirilməsi mümkün olmayan sənaye istehsalı ərazi quruluşunun təkmilləşdirlməsinə və rayonların hazırki resurslarından səmərəli şəkildə istifadə olunmasına nəzərə çarpan dərəcədə təsir göstərmək və investisya qoyuluşunun artırılması naminə həmin rayonlarda ortaq müəssisələrin inkişafının dəstəklənməsi vacibdir. Bazar iqtisadiyyatı şəraitində regionlarımızda sənayenin inkişaf etməsinə nail olunmasında sahibkarlıq faaliyyətinin inkişaf səviyyəsinin xüsusilə əhəmiyyəti vardır. Belə ki, ölkənin regionlarında mövcud olan sənaye müəssisələrinin əksəriyətinin uzun müddət işləməməsi onların məntiqi olaraq yenidən qurulmasını tələb edir. Sənaye müəssisələrinin yenidənqurulması üçün mane olan əsas amillərə ilkin növbədə, yerli sahibkarlığın zəif inkişafını misal çəkirlər.

Aparılan təhlil və tədqiqatlar da göstərir ki, hazırda regionların əksəriyyətində sahibkarlıq fəaliyyətinin, xüsusilə, sənaye sektorunda sahibkarlığın inkişaf etmə səviyyəsi zəifdir. Bunun təbii nəticəsidir ki, regionların əksəriyyətində istehsal olunmuş sənaye məhsullarının həcmində xüsusi bölmə çox xırda paya malikdir.

Hazırda regionlarda sahibkarlıq fəaliyyətnin inkişafına xeyli amillər təsir edir. Bu amillər, ümumi şəkildə, aşağıdakılardan ibarətdir:

- regionlarda əlverişli və məhsuldar sahibkarlıq mühitinin tam formalaşmaması;

- regionların sənaye müəssisələrində iqtisadi islahatlar, o cümlədən özəlləşdirmə prosesinin zəif getməsi;

- müəssisələrin yaradılması, qeydiyyat və faaliyyəti ilə əlaqədar təşkilati və bürokratik maneələrin rayonlarda xeyli sayda olması.

Regionların sənaye inkişafında olan ciddi problemlərdən biri də, hal-hazırda proqressivləşən sənayenin maddi-texniki bazisinin əsası kimi çıxış edən başlıca fondların texnoloji və yaş strukturunun pisləşməyidir. Şübhəsiz, bu da regionların sənaye müəssisələrində əsas istehsal fondlarının yeniləşməsi və sıradan çıxması əmsalının aşağı olmasilə əlaqədardır.Aparılan təhlillərdən o da məlum olur ki, 2017-ci ildə respublikamızın regionları arasında sənaye müəssisələrində əsas istehsal fondlarının ən çox yeniləşməsi Bakı şəhərində olmuşdur. Bundan fərqli olaraq, bu göstəricilər başqa rayonlarda, məsələn, Sumqayıt şəhərində 1,0 və 0,3 faiz, Şəki şəhərində 4,3 və 0,1 faiz, Xaçmaz rayonunda 0,2 və 0,4 faiz, İmişli rayonunda 2,1 və 0,1 faiz təşkil etmişdir. Respublikanın bütün regionlarında sənayenin əsas istehsal fondlarının təzələnməsi əmsalı nisbətən yüksək olduğu halda sıradançıxarılma əmsalı isə kiçikdir. Belə ki, 2017-ci ildə təzələmə əmsalı sıradançıxarılma əmsalından müəyyən qədər yüksək olmuşdur (https://www.stat.gov.az, 2017).

Sözügedən rəqəmlərdən məlum olur ki, sənayedə, əsasən də, cari əsas istehsal fondlarının yenidən qurulması deyil, yenilərinin yaradılması prosesi həyata keçirilir ki, bunun da hesabına onların ümumi dəyərinin artım tempi yüksək olur. Göründüyü üzrə, regionların sənaye müəssisələrində köhnə avadanlığın dəyişdirilməsi prosesi ləng baş verir, müəssisələr özlüyündə bu prosesi sürətləndirmək imkanına malik deyillər.

Regionlarda sənaye müəssisələrnin inkişaf problemlərindən biri də regionlarda bu sahədə kadrların çatışmazlığıdır. Son illər ərzində regionlarda

sənaye müəssisələrində sənaye işçilərinin sayında müəyyən artım müşahidə olunmasına baxmayaraq, bu göstərici iqtisadi rayonların əhalisinin ümumi sayında azlıq təşkil etməkdədir.

Regionların sənaye müəssisələrində işçi axıcılığının başlıca səbəblərindən biri həmin müəssisələrdə əmək haqlarının digər sahələrə nisbətən aşağı səviyyədə olmağıdır. Belə ki, ölkənin müxtəlif regionlarının sənayesində orta aylıq əmək haqları səviyyələri arasında kəskin fərqlər vardır.

Təhlillər göstərir ki, regionlarda yüksək səviyyəli mütəxəssis-fəhlə kadrların iri şəhərlərdə cəmləsməsi nəticəsində bir çox sənaye müəssəsələrində uzun illər ərzində toplanan istehsal və texnoloji biliklərin itirilməsi baş vermişdir və bu isə müasir şəraitdə istehsalların bərpası prosesində kadr problemini həlledici amillərdən əsas birinə çevirmişdir.

Rayonun ümumi əhalisinin sənaye yönümlu ixtisas-peşə səviyyələrinin aşağı olduğuna görə sənaye müəssəsələrində əmək məhsuldarlığı aşağıdır. Regionlarda mövcud sənaye müəssisələrinin əksəriyyətnin maliyyə vəziyyətləri yaxşı olmadığına görə, sözügedən müəssisələrdə texniki silahlanma işi kifayət qədər yaxşı aparılmır. İnkişaf etmiş ölkələrin ümumi tərcübələrindən məlum olur ki, bu cür müəssisələrin texniki səviyyələrinin yaxşılaşdırlmasında regionlarda faaliyyət göstərən lizinq kompaniyalarının böyük rolu var. Ancaq nəninki ölkə regionlarında, hətta ümumi respublikada istehsal vasitələrinin icarəyə verilməsilə məşğul olan lizinq müəssisələri çox azdır. Bu baxımdanda da regionlarda sənaye müəssisələrinə xidmət edən lizinq kampaniyalarının fəaliyyəti stimullaşdırılmaldır. Belə ki, həmin müəssisələrə vergi güzəştlərinin edilməsi məqsədəuyğun olar.

İstər ölkə, istər regional miqyasda maddi istehsal sahələrinin, o cümlədən də, sənaye sahələrinin inkişaf etməsinin əsas hərəkətverici qüvvələrindən biri də infrastruktur – istehsal və bazar infrastruktur sahələrinin inkişafı səviyyəsidir.

İnfrastruktur sahələrinin inkişafı ictimai istehsalın yerləşməsinin səmərəliliyinin yüksəldilməsinə xeyli təsir göstərir. Müasir istehsal məhsuldar qüvvələrin əsas elementi olan insan kapitalı amilinə, xüsusilə, onun keyfiyyət

xarakteristikası qarşısında yeni-yeni tələblər qoyur. İşçilərin ixtisası, peşə hazırlığı, əmək və məişət şəraiti, istirahəti və bütün maddi və sosial tələbatlarının tam ödənməsi məsələsi ön plana keçir. Buna sadəcə xidmət sahəsinin yüksək səviyyədə inkişaf etdirilməsi hesabına nail olmaq mümkündür.

Hazırkı şəraitdə infrastruktur sahəsinin region üzrə inkişafı sahəsində bir sıra geriliklər vardır:

- Respublikanın rayonlarının istehsal və xidmət sahəsi qeyri-mütənasib şəkildə yerləşdirılmişdir;

- Xidmət sahəsinin maddi-texniki bazasının geri olması və göstərilən xidmətlərin keyfiyətinin aşağı olması;

- Respublikada rayon, şəhər və kənd yerlərində xidmət müəssisələrnin maddi-texniki bazası, fondlar ilə təmin olunması, müasir elmi-texniki tərəqqi nailiyyətlərinin istehsalata tətbiqi və idarəetmə metodları bir-birindən kəskin şəkildə fərqlənir. Regionun istehsalının infrastrukturu digər sistemlərdə də olduğu kimi özündə giriş, əsas proses və çıxış elementlərini birləşdirir (Hoover, 1963, s.48). İstehsalın infrastrukturunun fəaliyyəti “proses”ini ərazi təsərrüfat sisteminə görə məhdud keyfiyyət-kəmiyyətdə istifadə olunan resursların material istehsalları və təkrar istehsalına şəraitin yaradilması əks etdirir. İstehsalın infrastrukturunun “çıxış”ı keyfiyyətində regionun davamlı və ardıcıl inkişafını təmin edəcək material istehsalının fəaliyyət nəticəliyi çıxış edir. Bazar münasibətlərinin şəraitində vahid kompleks şəklində regionun istehsalat infrastrukturunun fəaliyyətləndirilməsində, yer və rolunun dəqiqləsdirilməsində, optimal istehsal-sahə strukturunun təminatında, idarəetməsi sistemində, yerli və mərkəzi orqanlar ilə qarşılıqlı münasibətlərdə bir sıra nəzəri və metodolojı problemlər mövcuddur. Bu cür problemlər kəskinliyi ilə önə çıxmasa belə, kompleks daxilində inkişaf eləyən bazar münasibətlərilə bağlı daim təkmilləşdirilmələr tələb edir. Sözügedən problemlərin qarşısının alınması, onların mülayimləşdirlməsi regionların istehsal infrastrukturunu xarakterizə eləyən göstəricilər sisteminin dəqiq təyinat və metodoloji baxımdan tənzimlənilməsini şərtləndirir. Regionun istehsalat infrastrukturu, habelə, bütövlükdə onun sosial-iqtisadi inkişafının əsas göstəricilər

sistemi özündə bir sıra mürəkkəb struktural elementləri əks etdirir. Həmin göstəricilər sistemi daha ziyadə idarəetmə məsələlərində müəyyən meyarların nəzərə alınmasını şərti edir. Buraya sosial, iqtisadi və şəhər tikintisi kimi inkişaf effektlərini əhatələyən göstəricilər daxildir. Ümumi mənzərədə regionların istehsal infrastrukturun göstəriciləri müəyyən mühüm sosial-iqtisadi parametrələrdə səciyyələnən regionun əhalisinin həyat səviyyələrini əks etdirməlidir.

Hər bir region və ya bölgə özünün sosial-iqtisadi tərkibi, inkişaf səviyyəsi və başqa xarakterik cəhətləri ilə unikallıq təşkil etməkdədir. Bu xüsusilik regionun istehsal infrastrukturunun onun ümumi sosial infrastrukturu ilə qarşılıqlı əlaqəsinin təyinatında mühüm əhəmiyyət daşıyır. Bununla birlikdə, bütün regionlar ölkənin vahid sosial-iqtisadi məkanı çərçivəsində, iqtisadiyatı daxilində inkişaf edirlər. Bu qarşılıqlı əlaqənin təyinatında infrastrukturların təsiri birindən digərinə keçir. Nəticədə, əvvələn nəzərdə tutulanın əksi yaranmaqla qarşılıqlı keçid formalaşır. Bu dövriyə spiralvari formada bütün növ infrastrukturların qarşılıqlı və intensiv əlaqəliliyini əks etdirir. Bununla birlikdə, burada hər bir infrastruktur vahid bənd qismində yalnız xassəlilik əlamətinə görə qarşılıqlı əlaqədə olur. Buna görə, regional idarəetmə istehsalat infrastrukturu ilə sosial infrastruktur inkişaf stimullarını tapmaqla birlikdə, onların ümumi olan xassəvi əlamətlərinə təsir eləmə alətlərinə də malik olmalıdır. Əslində, real həyatın özündə də istehsal infrastrukturu ilə sosial infrastrukturun ayrı şəkildə mövcudluğu mümkün deyildir. Təcrübədə regional iqtisadi-sosial artımın istehsalat infrastrukturundan asılılığı əhəmiyyətli dərəcədə inkişaf etmiş ümumi sosial infrastrukturadan asılıdır. İnkişaf etməmiş sosial infrastruktur ınsanlara sosial motivasiyalarını dolğun şəkildə reallaşdırmağa imkan vermir. Buna görə, regionun istehsalat infrastrukturunun inkişaf proqramlarını həyata keçirən zaman onun tərkib hissəsi olan sosial infrastrukturun inkişaf proqramı da, həmçinin, hazırlanıb reallaşdırılmalıdır.

Region istehsal infrastrukturunun inkişaf strategiyasında bu cür yanaşma zəruridir və bu reallıq özündə bəlli digər istiqamətlərin də həyata keçirilməsini şərtləndirır. Burada əsas istiqamət regionun "pasport tərtibatı" zamanı ideoloji dəyişiklik və təkmilləşdirmələrin aparılması ilə bağlıdır. Hal-hazırda bir çox

ölkələrdə regionun infrastrukturunun müxtəlif obyektlərinin inventarizasyasını aparmaq məqsədi ilə belə pasportlar yaradılır. Sözügedən sənəd regionun bütün infrastruktur növlərinin qarşılıqlı əlaqəliyinin təminatında, xüsusilə də, istehsal infrastrukturunun qarşılıqlı əlaqəliyində mühüm rol oynayır. Hər bir region özünəməxsus və spesifik iqtisadi göstəricilərilə fərqlənir. Lakin modern regionun iqtisadi gücü, sosial keyfiyyəti ümumi formalaşmış göstəricilər sisteminə malikdir. Burada başlıca rolu istehsalat infrastruktura və sosial infrastrukturun təkmilliyi, sənaye və kənd təsərrüfatı məhsullarının həcmi, istehlakın qiymətləri, real pul gəlirləri, məşğulluq səviyyəsi, əsas kapital investisiyaları və sair kimi göstəricilər oynayır.

Aparılan təhlillər nəticəsində regional istehsalat infrastrukturunun fəaliyyətləndirilməsi və inkişaf etməsinin metodoloji əsasda tədqiqi bir daha göstərir ki, hər bir region özünəməxsus coğrafi mövqeyi, ərazi komponentləri, iqtisadi-sosial quruluşuna görə ümumi olduğu qədər də fərqlidir. Sözügedən fərqlilik bir sıra iqtisadi göstəricilərlə xarakterizə oluna bilər. Nəzəri və praktiki materialların araşdırılması, habelə, regionların müasirlik, rəqabətlik baxımından deyil, məhz təbii resurs bazası, əhalinin sayı, onun iqtisadi aktivlik və digər ərazi komponentləri ilə ixtisaslaşaraq fərqləndiyini göstərir. Həmin ixtisaslaşma isə müvafiq təsnifat prinsiplərini özündə əks etdirərək ərazi strukturunda formalaşan, təşəkkül edən istehsal gücləri ilə xarakterizə olunur. İnkişaf eləyən bazar münasibətləri idarəetmənin və menecment texnologiyalarının təkmilləşməsi bütün səviyyələrdə struktur dəyişikliklərilə müşayiət olunur.

Müasir dövrdə regionun inkişaf səviyəsi bazar seqmentlərinin genişliyi və modernliyilə bağlıdır. Regionun funksional strukturu təbii qaynaq, sosial, iqtisadi, dini, etnik, demoqrafik və s. amil-əlamətlərin vəhdətidir. Bu funksıonallığı isə dörd mühüm infrastruktur – istehsalat, sosial, ekoloji və institusional infrastrukturlar müəyyənləşdirilir. Bununla birlikdə, bu strukturda informasiya, maliyyə və kredit və kommersiya elementlərini özündə ehtiva edən əsas təkanverici qüvvəyə malik olan bazar ifrastrukturu çıxış edir. Hər bir infrastruktur elementi və bazar seqmenti regionun funksional strukturunda özünəməxsus yer tutur. Müasir zamanda iqtisadi

baxımdan inkişaf etmiş region özünün istehsal infrastrukturilə üstünlük təşkil edir. Nəzəri tədqiqatlar göstərməkdədir ki, region təkcə xüsusi iqtisadi maraqların daşıyıcısı və iqtisadi münasibətlərin subyekti olaraq deyil, habelə, təbii və insani resursların yerləşməsi kimi, həmçinin, əmtəələrin istehsal və istehlakı, xidmət sferasının cəmləşdirilməsi regional-bazar məkanı kimi çıxış edir. Regional infrastrukturun faaliyyətləndirilməsi və inkişafında mühüm yeri bütövlükdə bu infrastrukturun tərkib hissələri olan material, maliyə, əmək resursları və təbii sərvətlərdən səmərəli istifadəni özündə əks etdirən istehsalat infrastrukturu tutur. Buna görə, regional inkişaf strategiyasında mövcud istehsal infrastrukturunun başlıca xüsusiyyətləri, problemləri, digər infrastruktur formaları ilə qarşılıqlı münasibətlərinin nəzərə alınması vacibdir. Sözügedən münasibətlər ölkədaxili iqtisadi və sosial durumla bağlı olsa da, qlobal meyillərdən də əhəmiyətli dərəcədə asılıdır.

## 2.2. Azərbaycanın iqtisadi rayonlarında sənayenin inkişafının müasir vəziyyəti

Azərbaycan Respublikası keçmiş SSRİ-nin tərkibində olduğu müddətdə ölkəmizdə sənaye müəssisələrinin qeyri-səmərəli yerləşdirilməsi şəhərlə kənd arasındakı kəskin fərqlərin yaranmasına səbəb olmuşdur. Həmin fərqlərin azaldılması və ölkədaxili regionlarda sosialiqtisadi inkişafa nail olmaq məqsədi ilə son on bir il ərzində ölkə Prezidenti tərəfindən uğurla "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları(2004-2008, 2009-2013 və 2014-2018-ci illər)" təsdiq edilmişdir. "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramları"na əsasən, ölkədə Bakı istisna olmaqla 10 iqtisadi rayon müəyyən olunmuşdur. Həmin iqtisadi rayonlara Abşeron iqtisadi rayonu (Abşeron və Xızı rayonları, Sumqayıt şəhəri), Gəncə-Qazax iqtisadi-rayonu (Ağstafa, Daşkəsən, Gədəbəy, Goranboy, Göygöl, Qazax, Samux, Şəmkir, Tovuz rayonları, Gəncəvə Naftalan şəhərləri), Şəki-Zaqatala iqtisadi-rayonu (Balakən, Qax, Qəbələ, Oğuz, Zaqatala, Şəki rayonları), Lənkəran iqtisadi-rayonu (Astara, Cəlilabad, Lerik, Masallı, Yardımlı, Lənkəran rayonları), Quba-Xaçmaz iqtisadi-

rayonu (Dəvəçi, Xaçmaz, Quba, Qusar, Siyəzən rayonları), Aran iqtisadi-rayonu (Ağcabədi, Ağdaş, Beyləqan, Bərdə, Biləsuvar, Göyçay, Hacıqabul, İmişli, Kürdəmir, Neftçala, Saatlı, Sabirabad, Salyan, Ucar, Zərdab rayonları, Şirvan, Mingəçevir, Yevlax şəhərləri), Yuxarı Qarabağ iqtisadi-rayonu (Ağdam, Tərtər, Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl, Füzuli rayonları, Xankəndi şəhəri), Kəlbəcər-Laçın iqtisadi-rayonu (Kəlbəcər, Laçın, Zəngilan, Qubadlı rayonları), Dağlıq Şirvan iqtisadi-rayonu (Ağsu, İsmayıllı, Qobustan, Şamaxı rayonları) və Naxçıvan iqtisadi-rayonu (Naxçıvan şəhəri, Babək, Culfa, Ordubad, Sədərək, Şahbuz, Şərur rayonları) daxildir (Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008)).

Sənayenin inkişaf səviyyəsi istənilən ölkənin stabil və məqsədyönümlü iqtisadi inkişafının təmin edilməsində ən mühüm amillərindən biridir, ona görə ki, sənaye iqtisadiyyatın mürəkkəb bir sahəsi kimi, özlüyündə cəmiyyətin müxtəlif tərəflərinin inkişafını tələb edir və bu inkişaf səviyylərindən asılı olaraq, onun rəqabət qabiliyyəti formalaşır. Son dövrlərdə ölkəmizdə aparılan genişmiqyaslı, əhatəli və fundamental islahatlar nəticəsində iqtisadiyyatın bütün sahələrində olduğu kimi, sənaye sahəsində də dirçəliş yaşanmaqdadır. Xüsusilə də, son illərdə istehsal sahələrinin inkişaf etdirilməsi, yeni-yeni müəssisələrin yaradılması, ölkəmizin neft-qaz sənayesinin sürətli inkişafı ümumi daxili məhsulun (ÜDM) strukturunda sənaye istehsalı payının getdikcə artmasını şərtləndirmişdir. Belə ki, 2018-ci il üzrə ölkənin ümumi daxili məhsulunda sənaye istehsalı həcmi 48,4 faiz təşkil etmişdir. Qeyd etmək lazımdır ki, hələ 2013-cü ildə ölkədə sözügedən rəqəm 46,3 faiz təşkil etmişdi. Sənaye müəssisələri və həmin sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 2018-ci ilin yanvar-noyabr aylarında 44,0 mlrd. manatlıq və ya əvvəlki ilin müvafiq dövrilə müqayisə olunduqda 1,4 faiz daha çox sənaye məhsulu istehsal edilmişdir. Sənayenin qeyri-neft sektorunda ümumi məhsul istehsalı 9,1 faiz, neft sektorunda isə 0,3 faiz artım göstərmişdir. Sənaye məhsulunun hardasa 73,4 faizi mədənçilik və mədənçıxarma sektorunda, 21,9 faizi emal sektorunda, 4,0 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sektorunda, 0,7 faizi isə su təchizatı, tullantıların təmizlənilməsi və

emalı sektorunda istehsal edilmişdir. Neft hasilatı sahəsinə xarici investisiyaların cəlb olunması və sözügedən sahədə istehsalın artımı sənayenin sahə strukturunda bu sahənin payının da artmasına gətirib çıxarmışdır. Qeyd olunan dövrdə mədənçıxarma sənayesi üzrə istehsal həcmi təqribi 2,5 dəfə artmışdır. Nəticədə isə, sənaye məhsulu strukturunda neft-qaz hailatı sahəsinin payı yüksəlmişdir. Emal sektorunda avtomobil, qoşqular və yarımqoşqular istehsalı 29,1 dəfə, poliqrafiya məhsulları istehsalı 2,3 dəfə, tütün məmulatları istehsalı 2,2 dəfə, elektrik avadanlıqları və mebel istehsalı hər biri 2,1 dəfə, toxuculuq sənayesi məhsulları istehsalı 42,4 faiz, dəri və dəri məmulatları, habelə, ayaqqabı istehsalı 28,3 faiz, tikinti materialları istehsalı 28,2 faiz, metallurgiya sənayesi məhsulları istehsalı 16,3 faiz, ağacın emalı və ağacdan məmulatların istehsalı 13,1 faiz, içki istehsalı 8,3 faiz, rezin və plastik kütlə məmulatları istehsalı 6,2 faiz, kağız və karton istehsalı 3,8 faiz artım göstərmiş, kimya sənayesi məhsulları istehsalı 1,5 faiz, kompüter, elektron və optik məhsulların istehsalı 9,7 faiz, maşın və digər avadanlıqların quraşdırılması və təmir işləri 10,8 faiz, əczaçılıq məhsulları istehsalı 17,1 faiz, maşın və digər avadanlıqların istehsalı isə 24,4 faiz faiz azalmışdır (https://www.economy.gov.az/, 2018).

**Şəkil 1. 2018-ci ilin ikinci yarısının əvvəlinə olan məlumata əsasən sənayedə ümumi buraxılışın istehsalı (milyon manatla)**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

**Şəkil 2. 2018-ci ilin ikinci yarısının əvvəlinə olan məlumata əsasən sənaye sahəsində çalışan işçilərin sahə bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Şəkildə son ilin ikinci yarısının əvvəlinə şamil edilən məlumatlar əsasında sənaye sahəsində çalışan işçilərin sahə bölgüsü qeyd olunmuşdur. Bu məlumatlara əsasən bəzi nüansları nəzərdən keçirək.

2018-ci ildə Azərbaycanda çoxsahəli və ardıcıl islahatlar həyata keçirilmiş, qeyri neft sektoru üzrə ixracın həcminin artırılması ilə əlaqədar stimulverici tədbirlər həyata keçirilmiş, regional inkişaf, eləcə də dövlət-vətəndaş, dövlət-sahibkar arasında yaranan münasibətlərin hər iki tərəf üçün uyğun formada tənzimlənməsi, özəl sektorun inkişafı və SME(kiçik və orta sahibkarlığa) dövlət tərəfindən dəstək verilməsi kimi prioritet sahələr üzrə xüsusi tədbirlər görülmüşdür. Bu tədbirlər bilavasitə dayanıqlı inkişafa, ərazi üzrə sabitliyin və xalqın rifahının artırılmasına yönəldilmişdir.

Qeyd olunan bu islahatların nəticəsidir ki, 2018-ci il üzrə ölkədə ümumdaxili məhsul 1.4 % artaraq 79.8 milyard manat olmuşdur. Hər bir nəfərə düşən ümumdaxili məhsulun həcmi isə 8126 manat təşkil etmişdir.

**Şəkil 3. Ötən illə müqayisədə real artım tempi(%-lə)**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

2018-ci ildə ümumdaxili məhsulun həcmində qeyri neft sektoru 1.8%, neft sektoru isə 0.6% artım müşahidə olunmuşdur. ÜDM-in ümumi həcmində isə neft sektorunun payı məhz 41.5 faiz təşkil etmişdir.

AR Statistika Komitəsindən əldə olunan məlumatlara müvafiq olaraq qeyd edək ki, 2018-ci ildə ölkəmizdə ümumi xarici ticarət dövriyyəsi 29.2 milyard dollar təşkil etmişdir. Əlavə olaraq, ixracın payı 18.9 milyard dollar, idxalın həcmi isə 10.3 milyard dollar təşkil etmişdir. Belə olduğu halda 2018-ci ili 8.6 milyard dollar həcmində müsbət saldo ilə başa vurduğumuzu qeyd edə bilərik. Keçən illə müqayisədə isə bu period ərzində qeyri-neft ixracının həcmi 10.5 faiz artmışdır. Azərbaycan İnvestisiya Şirkətinin son illər ərzində qarşıya qoyduğu ən mühüm məsələlərdən biri, elə məhz qeyri neft sektorunun istehsalın ümumi həcmində payının artmasına nail olmaqdan ibarət idi. Qeyri neft ixracının həcminin keçən illərlə müqayisədə 10.5% artması məhz qarşıya qoyulan siyasətin düzgün yolda olduğunu və prosessual fəaliyyətin stabil və daim irəliyə doğru addımlarla irəlilədiyinin əyani sübutudur.

**Şəkil 4. İqtisadiyyata kredit qoyuluşları (milyon, AZN)**




**Mənbə:** Azərbaycan İnvestisiya Şirkətinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.aic.az

Qrafikə diqqət yetirsək, 2018-ci ilin sön rübündə iqtisadiyyata qoyulan kredit həcminin keçən illə müqayisədə pik səviyyəyə çatdığını görmüş olarıq.

**Şəkil 5. Əhalinin əmanətləri (milyon,AZN)**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

**Cədvəl 1. Regionlarda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 1219 | 1225 | 1170 | 1153 | 1253 |
| Abşeron iqtisadi rayonu | 218 | 235 | 253 | 236 | 234 |
| Gəncə-Qazax iqtisadi rayonu | 264 | 271 | 297 | 288 | 247 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 113 | 116 | 132 | 141 | 125 |
| Lənkəran iqtisadi rayonu | 76 | 77 | 90 | 95 | 86 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 75 | 79 | 91 | 95 | 93 |
| Aran iqtisadi rayonu | 323 | 321 | 329 | 329 | 329 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 30 | 31 | 37 | 38 | 36 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 4 | 5 | 8 | 8 | 7 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 40 | 39 | 44 | 44 | 45 |
| Naxçıvan iqtisadi rayonu | 135 | 135 | 132 | 134 | 127 |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

**Cədvəl 2. Regionlar üzrə sənaye məhsulunun həcmi**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 |
|---|---|---|---|---|---|
| Bakı şəhəri (qəsəbələrlə) | 30303.8 | 28167.3 | 22448.2 | 27468.7 | 34100.1 |
| Abşeron iqtisadi rayonu | 512.8 | 545.4 | 627 | 981 | 1265.1 |
| Gəncə-Qazax iqtisadi rayonu | 305.5 | 328.3 | 426.6 | 616 | 770.8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 74834.6 | 87242.5 | 109.026 | 193191 | 243749 |
| Lənkəran iqtisadi rayonu | 70770 | 70994.8 | 75307.8 | 102196 | 129255 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 81720.8 | 77862.6 | 77688.7 | 94265.1 | 143761 |
| Aran iqtisadi rayonu | 858.9 | 963 | 881.9 | 1145.7 | 1469.7 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 18112.2 | 23916.5 | 24164.6 | 29350 | 45649.4 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 94.7 | 83 | 649.1 | 562.5 | 531.9 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 15038.3 | 18672.2 | 17140.4 | 19631.8 | 23013.8 |
| Naxçıvan iqtisadi rayonu | 862.9 | 891.5 | 916.8 | 942.9 | 967.1 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.stat.gov.az

Qeyd olunduğu kimi, respublikadaxili regionlarımızın sənayecə ən inkişaf etmişlərindən biri Abşeron iqtisadi-rayonudur. Bu iqtisadi-rayon Azərbaycan Respublikasının iqtisadi-sosial cəhətdən ən inkişaf etmiş iqtisadi rayonudur. Bu rayon Respublikamızda əsas nəqliyyat qovşağı hesab olunur. Abşeron iqtisadi

rayonu, Bakı şəhəri də daxil olmaqla, ölkənin faydalı qazıntılarla zəngin olan rayonlardandır. İqtisadi rayon neft, qaz, misar daşı, əhəng daşı, sement xammalı, kvarıs və tikinti qumları ehtiyalarına malikdir.

Ölkədə istehsal edilən sənaye məhsullarının 90 faizdən çoxu Bakı şəhəri daxil olmaqla, bu iqtisadi rayonun payına düşməkdədir. Rayonun sənayesi yerli neft-qaz, tikinti materialları, həmçinin, kənd təsərrüfatı xammalının emalına əsaslanır. Sənaye müəssisələrinin əksəriyyəti istehsal vasitələri istehsal eləyən sahələrdən ibarətdir. Sənaye rayonu olan Abşeron iqtisadi rayonunun, Bakı şəhəri daxil olmaqla, iqtisadiyyatnda neft və qazçıxarma, neft emalı, neft kimya və kimya, maşınqayırma, qara-əlvan metallurgiya, energetika, elektrotexnika, yüngül yeyinti sənayesi üstünlük təşkil edir.İqtisadi rayon, Bakı şəhəri daxil, respublikada neft-qaz hasilatının hamısını, əlvan-qara metalların 68-88 faizini, maşınqayırma, metal emalı məhsulunun 90 faizini, meşə emalı, ağac emalı və sellüloza-kağız emalı məhsulunun 70 faizini, yeyinti və yüngül sənaye məhsulunun 30-50 faizini istehsal edir. Tikinti, nəqliyyat, rabitə, nəqliyyat, xidmət sahələrinin 65 faizi sözügedən iqtisadi rayonda cəmləşmişdir. Abşeron iqtisadi rayonu, Bakı şəhəri daxil, respublika sənaye müəssisələrinin ümumilikdə 40 faizini, tikinti, nəqliyyat, rabitə və xidmət sahələrininsə 50 faizə qədərini özündə cəmləşdirir (https://www.stat.gov.az).

Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsinə görə dövlətin kredit siyasətinin təkmilləşdirilməsi də zəruridir. Yəni, ölkənin ucqar regionlarında yeni yaradılmış sənaye müəssisələrinin formalaşdırılması üçün dövlət həmin müəssisələrin bir neçə il maliyyələşməsinin müəyyən bir hissəsini güzəştli kredit hesabına üzərinə götürə bilər. Eyni zamanda, həmçinin, dövlət sənayenin ərazi quruluşunun təkmilləşdirilməsində nəzərəçarpacaq dərəcədə bir təsir göstərən sənaye müəssisələrinə istehsalı genişləndirmək, onları modernləşdirmək üçün əlverişli şərtlərlə kredit verə bilər. Bu siyasəti hazırda məhz AZərbaycan İnvestisiya Şirkəti həyata keçirir. Bunla bağlı xüsusi layihələr nəzərdə tutulmuşdur, və həm qısamüddətli, həm də uzunmüddətli dövrdə qeydəalınacaq dərəcədə nəticə əldə edildiyi müşahidə olunmuşdur.

**Cədvəl 3: Ölkənin iqtisadi rayonları üzrə hər nəfərinə düşən məhsul buraxılışı, cari qiymətlərlə, manatla**

| | 2013 | 2014 | 2015 | 2016 | 2017 | 2018* |
|---|---|---|---|---|---|---|
| Bakı şəhəri | 20187.0 | 20523.6 | 18218.7 | 21224.4 | 24747.9 | 27804.1 |
| Abşeron iqtisadi rayonu | 2530.8 | 2797.7 | 2845.6 | 3428.8 | 4067.9 | 5271.8 |
| Gəncə-Qazax iqtisadi rayonu | 2255.2 | 2179.0 | 2211.1 | 2386.3 | 2913.2 | 2874.8 |
| Şəki-Zaqatala iqtisadi rayonu | 2359.7 | 1718.9 | 1876.3 | 2019.5 | 2508.5 | 2557.3 |
| Lənkəran iqtisadi rayonu | 1444.8 | 1515.1 | 1619.5 | 1805.1 | 2029.3 | 2000.1 |
| Quba-Xaçmaz iqtisadi rayonu | 2552.2 | 2388.1 | 2294.9 | 2525.6 | 2976.0 | 3130.3 |
| Aran iqtisadi rayonu | 2548.1 | 2520.8 | 2509.6 | 2581.1 | 3236.7 | 3392.6 |
| Yuxarı Qarabağ iqtisadi rayonu | 700.8 | 772.5 | 688.7 | 858.7 | 1064.6 | 939.0 |
| Kəlbəcər-Laçın iqtisadi rayonu | 434.1 | 298.6 | 296.9 | 277.5 | 303.6 | 317.5 |
| Dağlıq Şirvan iqtisadi rayonu | 1791.0 | 1821.9 | 1925.0 | 2117.8 | 2547.2 | 2742.2 |
| Naxçıvan Muxtar Respublikası | 6661.9 | 6517.4 | 6842.6 | 7371.8 | 7625.4 | 7761.7 |

**Mənbə:** Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.stat.gov.az

Cədvəldən göründüyü kimi, son 6 il ərzində ölkənin regionları üzrə adambaşına düşən məhsul buraxılışında əsaslı dəyişikliklər və fərqlər nəzərə çarpmaqdadır.

Bakı şəhərində illər ərzində stabil olaraq məhsul buraxılışında artım olduğunu görmək mümkündür. Abşeron iqtisadi rayonunda məhsul buraxılışı 2018-ci ildə 2013-cü illə müqayisədə demək olar iki dəfə artmışdır. Xüsusilə də Xızı rayonunda 2013-cü ildə əgər adambaşına düşən məhsul buraxılışı 4126 manat idisə, son ilin statistik məlumatında bu göstərici 14228 manat olmuşdur. Regionlar arasında yeganə mənfi artım məhz Kəlbəcər-Laçın iqtisadi rayonunda qeyd edilmişdir.

Abşeron iqtisadi rayonunun sənayesinin inkişafında neft sektoru daha çox ön planda durur. Son zamanlarda yeni neft və qaz yataqlarının istismarı bu rayonun strateji mövqeyini gücləndirmiş, dünya təsərrüfatında onun əhəmiyyətini

artırmışdır. Bakı şəhəri daxil olmaqla, sözügedən iqtisadi rayonun sənayesində metallurgiya müəssisələri üstün çəkiyə malikdir. Rayonun sənayesinin strukturunda metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsal payının yüksəkliyi Sumqayıt alüminum zavodunun , "Azərboru" səhmdar cəmiyyətinin istehsalı bərpa etmələri ilə əlaqədar olmuşdur. Bakı şəhəri də daxil, iqtisadi rayonun sənaye strukturnda kimya və neft-kimya sənayesi mühüm yer tutur. Bu sənaye sahəsndə texniki spirt və kauçuk, plastik kütlə və materiallar, sintetik qətrannar, müxtəlif növ gübrə, kimyəvi yuyucu tozlar və mühafizəetmə vasitələri, avtomobil şinlər, polietilen, etilenpropilen, maye xlor və s. istehsal olunur. Son zamanlarda kimya sənayesinin inkişafı isə, əsasən, dünya neft bazarında olan qiymətlərin artımının təsiri hesabına baş vermişdir. Belə ki, "AzərKimya" Dövlət Şirkəti neft-kimya sənayesi üçün zəruri xammal hesab edilən ilkin qovulma benzinini güzəştli qiymətlər ilə neft emalı müəssisələrindən alır. İqtisadi rayon həmçinin güclü yanacaq-energetik bazaya malikdir. Ölkədə çıxarılan neft-qazın, istehsal edilən elektrik enerjisinin əksər hissəsi bu rayonun payına düşür. Yerli yanacaq xammal əsasında təşkil olunmuş yanacaq-energetika kompleksi isə respublikada elektrik enerjisi istehsalının hardasa 50 faizini, yanacaq sənayesi məhsulunun isə düz 94 faizini verir.

Azərbaycan maşınqayırma sənayesinin yeni və sürətlə inkişaf edən sahələri – cihazqayırma, elektrotexnik və radioelektronika Abşeron iqtisadi rayonunda, Bakı şəhəri də daxil, cəmləşmişdir. İqtisadi rayonda maşınqayırma sənayesinin mühüm hissələrindən biri - təmir bazası da mövcuddur. İqtisadi rayonda habelə tikinti sənayesi müəssisələrndə şüşə, polimer tikinti materialları və s. istehsal olunur. Rayonda tikinti və inşaar materialları - şüşə (Bakı və Sumqayıt şəhərlərində), divar daşı və kağızı (Qaradağ, Güzdək, Korgöz və.s), sement (Qaradağ), polimer tikinti materiallar (Sumqayıt), dəmir-beton konstruksiyalar məmulatları və s. istehsal edən nəhəng müəssəsələr vardır. Abşeron iqtisadi rayonu tikinti materialları sənayesinin inkişafı baxımından respublikanın digər iqtisadi rayonları ilə müqayisədə yüksək kompleksliyi və intensivliyi ilə fərqlənir.

Respublikada istehsal olunan mişar daşının 80 faizi Abşeron iqtisadi rayonunun payına düşür.

Son illərdə, Bakı şəhəri də daxil, bu iqtisadi rayonda bir sıra yeni sənaye müəssəsələri yaradılmışdır. Həmin müəssisələrə "Azbentonit", "BISMAK" biskvit vəmakaron istehsal müəssisəsi, tikinti materialları istehsal ilə məşğul olan "Maqnum-S" şirkəti, "Azkompozit" boru istehsalı zavodu, "Norm" MMC sement zavodu, "Dizayn-Genay Azərbaycan" polietilen və poli-propilen boru zavodu, zeytun emal və qablaşdırılması zavodu, "Azərbaycan Aluminiumu" ASC-nin Sumqayıt "Alüminium" istehsal sahəsində 1 və 2 saylı elektroliz korpuslarını və s. müəssisələri nümunə göstəmək olar. Ancaq buna baxmayaraq, rayonda sənaye müəssisələrinin yenidən qurulması, bir sıra yeni müəssisələrin yaradılmasına da ehtiyac vardır. Abşeron iqtisadi rayonunda, Bakı şəhəri xaric olmakla, sənaye müəssisələrinin yerləşməsini məqsədəmüvafiq edən əsas amillərə bu rayonda satış bazarının nisbətən böyük olması  (Bakı şəhərinə yaxınlıqla əlaqədar), inkişaf etmiş infrastruktura və ixtisaslı işçi qüvvəsinə malik olması və s.-ni aid etmək olar.

Quba-Xaçmaz iqtisadi-rayonunun sosial-iqtisadi inkişafında sənaye sektorunun payı olduqca kiçikdir. Ölkədə istehsal edilən sənaye məhsullarının 1,2 faizə qədəri bu iqtisadi rayonun payına düşür. İqtisadi rayon sənayesinin əsasını yüngül və yeyinti sənayesi təşkil edir, bu da başlıca olaraq meyvə-tərəvəz, şərab və süd məhsulları emalatına əsaslanır. Kənd təsərrüfatının inkişafı, eyni zamanda, emal və sənaye sahələrinin - yüngül və yeyinti sənayesinin inkişafına təkan vermişdir.

Rayonun aqrar və sənaye kompleksinin əsasını meyvə-tərəvəz konservi istehsalı (Xaçmaz, Xudat, Quba), balıqların emalı (Xudat), xalça toxuculuğu (Quba, Xaçmaz, Qusar, Qonaqkənd, Pirəbədil) sahələri təşkil eləyir. Xaçmazda və Dəvəçidə taxıl və süd məhsulları emal edilir. Quba-Xaçmaz iqtisadi rayonun əsas təbii sərvətləri neft, təbii qaz, yanar şişt, qum, çınqıl, gil, mineral sulardır (Qubada Xaltan, Cimı, Xaşı, Siyəzəndə Qalaltı). Neft və qazın hasilatı (Siyəzən), elektrotexnika zavodu (Quba), metal qırıntıları emalı (Xaçmaz) iqtisadi rayonun ağır sənayesinin əsasını təşkil edir. Quba, Siyəzən və Xaçmazda kərpic zavodu,

tara müəssisələri də var. Siyəzən, Çarxi və Dəvəçidə quşçuluq kompleksləri mövcuddur. Son vaxtlarda Xaçmazda və Qubada Modul İES-lər tikilmişdir.

İqtisadi rayon ərazisindən keçən telekammunikasiya xətləri ölkənin nəqliyyat-iqtisadi əlaqələrinin inkişafında mühüm rola malikdirlər.

Son illərdə Quba-Xaçmaz rayonunda bir sıra təzə sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrə Qubada "AzKon" biskvit məmulatları müəssisəsi, Xaçmaz rayonunda "Qafqaz Konserv" müəssisəsi və "AzPlodeksrort MMC" və s. müəssəsələri misal göstəmək olar.

Quba-Xaçmaz iqtisadi rayonunun sənaye məhsulunun həcmi göstərilən on il zərfində təqribən iki dəfədən çox artmışdır. Baxmayaraq, son illərdə fəaliyyət göstərən müəssisələrin sayında nisbətən azalma müşahidə olunur, ancsq bu, istehsal olunan məhsulun həcminə təsir göstərməmişdir.Yəni on il əvvəlkilə təqribi eyni sayda müəssisə fəaliyyət göstərsə belə, məhsul istehsalı on il əvvələ nisbətən iki dəfədən də çox olmuşdur. Sənaye məhsulunun həcmində belə yüksək göstəricilər əhalinin orta aylıq əmək haqlarının artmasına səbəb olmuşdur.

Şəki-Zaqatala iqtisadi-rayonunun ərazisi faydalı qazıntılarla zəngindir. Azərbaycan Respublikasnın mis ehtiyatlarının demək olar ki, hamısı, kükürd kolcedanın 90 faizi, tsinkin 99 faizi bu iqtisadi-rayonun payına düşür. Qafqazın iri polimetal yataqlarından biri olan Filizçay yatağı bu rayonun ərazisindədir. Dağlıq və dağətəyi yerlərdə çınqıllar, qum və digər tikinti materialları da mövcuddur. Ölkənin ümumi sənaye məhsulunun bir fazi bu iqtisadi rayonun payına düşür. Şəki-Zaqatala iqtisadi-rayonunun sənayesi yeyinti və yüngül sənayelərindən ibarətdir. Yeyinti sənayesi iqtisadi rayonun ümumilikdə sənaye məhsulunun 95 faizini təşkil edir və bu sənaye müəssisələrinin faaliyyəti, əsasən, yerli kənd təsərrüfatı xammalına əsaslanır.

Yeyinti sənayesi isə bağçılıq, tütüncülük və heyvandarlıq məhsullarının emalına əsaslanır. Şəki yeyinti kombinatı və habelə, şərab zavodları, Qəbələ, Qax, Balakən, Nic meyvə və tərəvəz konserv zavodları, Zaqatala fındıq və qızıl gül yağı zavodu, çay fabriki, Şəki ət kombinatı yeyinti sənayenin əsas müəssisələridir.

Bundan əlavə, yerli tələbatı ödəyən çörək bişirmə, şərq şirniyatı, spirtsiz içkilər istehsal edən kiçik müəssəsələr də fəaliyyət göstərir.

Yüngül sənayenin əsasını ipəkçilik, toxuculuq və tikişcilik təşkil edir. Bütün rayon mərkəzlərində müxtəlifölçülü tikiş sənayesi müəssisələri fəaliyyət göstərir. Şəkidə kustar üsulu ilə bəzəkli toxumalar olan ipək parça və pərdələr, kəlağayılar, yaylıqlar toxunur. Tütünçülüyün inkişafilə əlaqədar Şəki, Qəbələ, Balakən və Zaqatala tütün fermentasiya zavodları fəaliyyət göstərir. Sənayenin digər sahələrinə yerli xamal bazasına əsaslanan Zaqatala mebel fabrikini, kərpic zavodunu, Balakən tara müəssəsəsini aid etmək olar.

Şəki-Zaqatala iqtisadi-rayonunda yeni açılan müəssisələrə misal olaraq Zaqatalada gül yağı emalı zavodu, Cənubi Qafqazda bu tipli ən böyük konserv zavodu - "Qəbələ konserv zavodu"nu, "Gilan" tikinti materialları istehsal kompleksini və yeyinti məhsulu istehsalı müəssisəsini, Qaxda "Kapital-N" firmasının mineral süfrə suyu istehsal müəssisəsini, Oğuzda yeni konserv zavodunu, Şəkidə meyvə şirəsi və konserv zavodları, illik istehsal gücü 20 milyon kərpic olan Kərpic zavodunu da misal göstərə bilərik.

Neft, təbii qaz, yanar şist Dağlıq Şirvan iqtisadi-rayonunun başlıca sərvətləridir. Lakin Şirvan iqtisadi rayonu faydalı qazıntılar ilə zəngin deyildir. Rayonda, əsasən, daş, çınqıl, qum, əhəng, habelə, digər tikinti materialları mövcuddur. Şamaxı, Ağsu, İsmayıllı rayonlarının gil yatağı mühüm tikinti əhəmiyyətinə də malikdir. Dağlıq-Şirvan iqtisadi rayonunun sənayesinin başlıca aparıcı sahəsini yeyinti-yüngül sənaye təşkil edir. İqtisadi rayonun yüngül sənayesi, demək olar ki, şərabçılıq, tikiş və xalçaçılıq sahələrilə təmsil olunmuşdur. Yeyinti sənayesində vacib yeri yerli üzüm məhsulunun emalı olan şərabçılıq tutmaqdadır. Konserva, yağ-pendir zavodları, tara müəssisələri fəaliyyət göstərir. Bundan başqa, rayonun iqtisadiyatında meşə və ağac emalı, tikinti materiallar istehsalı (İsmayıllı rayonunda ağac emalı müəssəsəsi, Şamaxı, Qobustan rayonlarnda Daş karxanaları, kərpic zavodu), kənd təsərrüfatı texnikasının təmir müəssisələri də mövcuddur.

Bununla birlikdə, Şamaxı rayonunda “Star MMC” televizor zavodu, “AzASamand” avtomobil zavodu, “AzerElektronika” məişət avadanlıqlar istehsalı zavodu, xalçaçılıq fabrikası fəaliyyət göstərir. Dağlıq Şirvan iqtisadi-rayonunun son zamanlardakı iqtisadi göstəricilərinin təhlili göstərir ki, istehsal olunan sənaye məhsulunun həcmi on il ərzində təqribən 4 dəfə, işçilərin sayı təqribən 4 dəfə, işçilərin orta aylıq əmək haqqı təqribən 6 dəfə, əsas sənaye istehsal fondları isə 2.5 dəfə artmışdır. Sənaye məhsulunun həcmində qeyri-dövlət sektoru payı isə 15 faizlik artımla artmışdır.

Gəncə-Qazax iqtisadi-rayonu öz vacib iqtisadi əhəmiyyətinə görə Abşeron iqtisadi rayonundan sonra ölkəmizdə ikinci yeri tutur. İqtisadi-rayonun sənayesi hasiledci və emaledici sahələrdən ibarətdir. Gəncə-Qazax iqtisadi rayonu Azərbaycan Respublikasının faydalı qazıntılarla zəngin olan rayonlarından biridir. Kükürdlü kolçedan, kobalt, barıt, dəmir filiz, alunit, əhəng daşı, mərmər, gips, sealit, bentonit gil, sement xammallı iqtisadi rayonun əsas yeraltı ehtiyatları hesab olunur. Daşkəsən dəmirfilizi, Zəylik alunit, qızıl, mis, Xoşbulaq isə əhəng daşı ehtiyatları ilə zəngindir və bunların hamısı sənaye əhəmiyyətlidir. Kür çayının burdan axan hissəsi hidroenerji ehtiyatlarilə zəngindir və bu imkanlardan geniş istifadə olunur.

Goranboyda lak-boya məhsullar istehsalı üçün müəssisə, Gəncədə “NEON” firmasının un dəyirmanı və tikinti materiallar istehsal edən müəssisəsi, ət məhsulları istehsalatı ilə məşğul olan “Elba” kolbasa şirkəti, “OKA” avtomobillərin yığım müəssisəsi, “Cardin-Royal” şokolad fabriki, “Det-AL” Alüminium MMC-nin Gəncə alüminium zavod-kompleksi, Gəncə avtomobil zavodu və s. fəaliyyət göstərir. Yüngül sənaye üzrə Dəliməmmədli şəhərində pambıq emalı, Gəncədə toxuculuq üzrə kombinat, Gəncə, Qazax və Daşkəsən rayonlarında xalça sexləri vardır. Gəncədə və Daşkəsəndə qara-əlvan metallurgiya xammallının hasilatı, onların ilkin emalı müəssisələri yerləşir. Maşınqayırma sənayesi sahəsi üzrə iqtisadi rayonda cihazqayırma, rabitə-avadanlıq istehsalı, avtomobillər və kənd təsərrüfatı maşınlarının təmiri müəssisələri də fəaliyyət göstərir.

Kimya sənayesi əsasən Gəncə şəhərində faaliyyət göstərən zavodlarda sulfat turşusu, kalium gübrəsinin istehsalı ilə təmsil edilir. Tikinti sənayesinin əsas müəssəsələri iripanelli evtikmə kambinatı, dəmir-beton, kərpic, kirəmit və mərmər zavodlarıdır.Yaşayış məntəqələrində, habelə, ağac emalı, tikinti və inşaat materialları, xalq istehlak malları istehsal edən obyektlər vardır. Yüngül və yeyinti sənayesinə aid olan müəssisələrdə, təməl olaraq, yerli xammallar emaldan keçirilir.Yüngül sənaye iqtisadi-rayonun sənaye məhsulunun xeyli hissəsinin payına düşür və əsas istehsal edilən məmulatlar pambıq və yun parça, xalçalar, tikiş və toxuculuq istiqamətlidir. İqtisadi rayonun yüngül sənayesi isə (Dəliməmmədlidə pambıq mahılıcı, Gəncədə pambıq-parça, yun-parça, trikataj məmulatlarının istehsalı, Gəncə, Qazax və Daşkəsəndə xalça toxuculuğu üçün müəssisələr) yerli xammalın emalına söykənir. Xalq istehlak malları istehsal eləyən sahələrə Gəncədə yerləşən çini və saxsı qablar istehsalı aiddir. Kənd təsərrüfatı məhsulları emalına əsaslanan yeyinti sənayesi şərab, kanyak, ət-süd məhsulları, qənnadı məmulatı, konserv məhsullar istehsalı, əsasən, yerli və regional tələbatı müəyyən qədər ödəyir. İqtisadi rayonun yeyinti sənayesi meyvə və tərəvəz konservi, ət, şərab, yağ, piy, süd, unüyütmə, çörək-bişirmə, çörəkçilik məmulatları, qənnadı və d. sahələrlə təmsil olunur.

Gəncə-Qazax iqtisadi-rayonunda mineral mənşəli təbii tikinti materialları ehtiyyatı çoxluq təşkil edir. Gəncə-Qazax iqtisadi-rayonunda maşınıqayırma, cihazqayırma, avtomobil və mexanika təmiri, rabitə avadanlığı, kənd təsərrüfatı texnikası təmiri istiqamətli müəssisələr vardır.

Yuxarı Qarabağ iqtisadi-rayonunun Xocavənd, Xocalı, Şuşa, Cəbrayıl rayonlarının, Xankəndi şəhərinin əraziləri tamamilə, Ağdam rayonunun (hazırda inzibati mərkəz Ağdam şəhəri də daxil) ərazisinin böyük bir qismi erməni işğalı altındadır. Yuxarı Qarabağ iqtisadi rayonunun başlıca təbii sərvətləri polimetal filizləri (Mehmana yatağında), neft, təbii-qaz, müxtəlif tikinti materiallardır (mərmər, sement xammalı, tikinti daşı). Meşələrdəki xammal ehtiyyatları yerli ağac emalı müəssisələrini xammalla təmin etmək üçün kifayət edir. Yuxarı Qarabağ iqtisadi rayonunda olan təbii-mineral bulaqlardan (Turş-su, Şırlan),

meşələrdən istirahət və müalicə üçün istifadə etmək mümkündür. İqtisadi rayonun sənayesi yerli kənd təsərrüfat xammalının emalına söykənir. Şərabçılıq, konserv məhsulları istehsalı, digər kənd təsərrüfatı məhsullarının emalı isə yeyinti sənayesinin əsas sahələridir.

Kəlbəcər-Laçın iqtisadi-rayonu ərazisində qızıl, civə, xramit, mərmər, üzlük tikinti daşları, koral, perlit və s. faydalı qazıntı ehtiyatları var. Burda İstisu, Minkənd, Tutqunçay kimi çoxlu sayda mineral bulaqlar, iqlim-balneoloji şərait, dağ meşələri özlüyündə turizm, kurort və rekreasiya məqsədləri üçün istifadə edilə bilər. Sənaye nıüəssisələri isə tütünçülük, üzümçülük, meyvəcilik, taxılçılıq kimi xammal növlərinin emalatına əsaslanmışdır. İqtisadi rayonda ət və süd məhsulları emal edilir, xalçalar toxunurdu. Kəlbəcər-Laçın iqtisadi-rayonu da Ermənistan işğalçı qüvvələri tərəfindən zəbt olunduğu üçün iqtisadiyyatı tamamilə dağıdılmış vəziyyətdədir.

Aran iqtisadi-rayonu respublikanın iqtisadiyyatında inkişaf etmiş çoxşaxəli sənaye rayonu kimi tanınır. İqtisadi-rayon öz sənaye potensialına görə Abşeron və Gəncə-Qazax iqtisadi rayonlarından sonra üçüncü yerdə qərarlaşıb. İqtisadi rayonun sənaye struktrunda yanacaq-energetika, kimya, neft-kimya, maşınıqayırma və metal emalı, tikinti materialları, yüngül və yeyinti sənayesi mühüm yeri tutur. Burada tikinti materialları, yeyinti sanayesi məhsulları, xalq istehlak malları istehsal edən müəssisələr yaradılmışdır. Ölkənin sənaye məhsulununun 3 faizini verir. Aran iqtisadi rayonunun əsas yeraltı sərvətləri isə neft, təbii-qaz, yodlu və bromlu mədən suları, fərqli tikinti materiallarıdır (mişar daşı, qum, çınqıl və s.). Neft və təbii qaz yataqları, əsasən, Şirvan, Səlyan, Neftçala, Kürdəmir, İmişli və Zərdabda yerləşir. Şirvanda və Mingəçevirdə DRES-lər, Mingəçevirdə və Varvarada SES-lər işləyir. Ona görə də elektro-energetika burada təsərrüfatın inkişaf etmiş və ixtisaslaşdırılmış sahələrindən biridir. Belə ki, rayonun sənaye məhsulunun hardasa 49,5 faizi elektrik enerjisi, qaz və suyun istehsalı, bölüşdürülmə sahəsinin payına düşür. Şirvan istilik elektrik stansyası yenidən qurulduqdan sonra imkanlarını daha da artırmışdır. Kimya sənayesi müəssəsələri Mingəçevir, Səlyan və Neftçala şəhərində fəaliyyət göstərir. Səlyanda plastiki kütlə

zavodu, Neftçalada yod-brom zavodu var. Son illərdə Səlyan plastik kütlə zavodu özəlləşdirilmiş və yeni mülkiyyətçilər zavodun faaliyyətini qismən bərpa etmişlər. Mingəçevir, Şirvan və Səlyan maşınıqayırmanın əsas mərkəzləri hesab olunur. Aran iqtisadi-rayonunun maşınqayırma sənayesini Mingəçevir kənd təsərrüfatı maşınqayırma zavodu, Şirvandakı məişət cihazlarının avtomat idarəetmə vasitələri istehsalı, Şirvan şəhərindəki palimer avadanlığı zavodu, Bərdədə dənəvər, yumşaq-konsentrat halında yem hazırlamaq üçün avadanlıq zavodu və sair müəssisələr təmsil edir. İqtisadi-rayon ərazisindəki bütün inzibat irayonlarda yüngül və yeyinti sənayesi müəssisələri mövcuddur. Sözügedən sahəyə aid müəssisələr arasında pambıq ilkin emalını həyata keçirən pambıq təmizləmə zavodları məhsul istehsalatına görə yüksək xüsusi çəkiyə malikdir. Bu rayonda pambıq və parça istehsalı, yunun ilkin emalı, xalçacılıq, meyvə, tərəvəz, balıq konservləri və s. yüngül və yeyinti müəssisələrinin inkişaf etdirilməsi imkanları mövcuddur. İqtisadi-rayonda müəyyən qədər pambığtəmizləmə zavodları, sapəyirimə, pambıq-parça toxuma, tütün fermentləşdirmə, xalça toxuma, gön-dəri və s. müəssəsələr fəaliyyət göstərir. Rayonun yeyinti sənayesi, əsasən, çörək, yağ-süd, pendir, unüyüdmə və konserv zavodları və s. ilə təmsil olunur.

Aran iqtisadi rayonunda faaliyyət göstərən müəssisələr bunlardır: Şirvan şəhərində "TeleMexanik" zavodu, Biləsuvar rayonundakı "Biləsuvar Aqro" süd məhsulları istehsalı zavodu, Neftçaladakı "Azər-Yod" MMC-nin eyni-adlı müəssisəsi, "Kürdəmir-Taxıl" ASC, Göyçayda "Göyçay Konserv" ASC, "Kərpic-Can" MMC, "Göyçay-Süd" ASC, Ağdaş rayonundakı "Orelay" qənnad fabriki, Bərdədə "Qarabağ Pambıq", "Bərdə Yağ-Pendir", mini makaron fabriki, Mingəçevir şəhərində "AzərKabel", Yevlaxdakı "Yevlax-Təmir" ASC, "Lalə Tekstil", ARFA möbel fabriki, Səlyanda süd emalı zavodu, Mingəçevirdəki meyvə şirəsi və pivə istehsalilə məşğul olan "Zeynalabdin-94" firması, beton dayaq və elektron avadanlıqlar zavodu, İmişlidəki "Araz" konserviləşdirilmiş şirə və konyak istehsalı müəssisəsi, şəkər zavodu və s.

Lənkəran iqtisadi-rayonundakı faydalı qazıntılar azdır, qeyri-filizlərdən əsasən tikinti qumu, gil, çay daşı, gipis ehtiyatları vardır, zəngin thermal və

mineral sulara malikdir. Sanaye sahələri kənd təsərrüfatı xammallarının emal edilməsi əsasında inkişaf etmişdir və bəcərilən kənd təsərrüfatı məhsullarının və Xəzər dənizindən tutulmuş balıqların emalına əsaslanır. Lənkəran iqtisadi-rayonunun iqtisadiyyatının əsasını isə aqrar-sənaye kompleksi təşkil edir.

Bundan əlavə, bu rayonda yeyinti sənaye müəssisələrinin inkişafı üçün böyük imkanlar var. Belə ki, kənd təsərrüfatından tərəvəzçilik, üzümçülük, çayçılıq və d. sahələrin inkişafı rayonda kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin yaradılma və inkişaf etdirilməsini perespektivli edir. Yeyinti sənayesində balıq emalı, çay, meyvə və tərəvəz konservi, şərab istehsalı mühüm yer tutur, ət, süd, pendir, çörəkçilik müəssisələri fəaliyyət göstərir.Astarada yeni kanserv zavodları, Masallıda şirniyyat fabrikləri, Lənkəranda “Ş-Mari” firmasının pivə istehsal müəssisəsi, istehsal gücü altmış ton süd olan “Nur-Süd” süd emal müəssisəsi fəaliyyət göstərir. 2006-cı ildə Astara rayonunda modul tipli elektrik stansiyasının istifadəyə verilməsi də sənaye müəssisələrinin elektrik enerjisilə təminatı baxımından mühüm bir əhəmiyyətə malikdir.

Son illərdə ölkənin bütün rayonlarında olduğu kimi Lənkəran iqtisadi rayonunda da güclü iqtisadi artım baş vermişdır. Belə ki, 2005-2018-ci illər ərzində rayonun sənaye məhsulunun həcmi 6 dəfə artmışdır.Nəticə etibarilə isə işçilərin orta aylıq əmək haqqı 5 dəfə, əsas sənaye-istehsal fondlarının həcmi təqribən 4 dəfə artmışdır.

Muxtar Respublikada energetika sənayesi “Araz” su-elektrik stansiyası və istilik-elektrik stansiyasilə təmsil olunur. 1970-ci ildə istifadəyə verilmiş Araz SES-in gücü Azərbaycan-İran tərəflərində olmaqla hər birində 22 mVatt-a bərabərdir. Muxtar Respublikasının maşınqayırma və metal emal sənayesi Alüminium Qablar Səhimdar Cəmiyyəti, Filiz İdarəsi, “Araz” Təcrübə Zavodu, Elektratexnika Zavodu, Ordubad Elektron Zavodu və Şahbuz Avtomobillərin Təmiri zavodundan ibarətdir. Sözügedən sənaye sahələri, əsasən, hazır məhsul istehsal etmələri baxımından çox əhəmiyyətlidir. Ancaq qeyd etmək lazımdır ki, hazırda bu müəssisələrin əksəriyyəti fəaliyyətlərini bərpa edə bilmirlər, bəziləri öz istehsal profilini dəyişmişdir. Yüngül və yeyinti sənaye sahələri iqtisadi rayonun

iqtisadiyatında mühüm yer tutur. Naxçıvan şəhərində sanaye məhsulunun 70 faizindən çoxu yeyinti sənayesinin, 10 faizi isə yüngül sənayenin payına düşür. İqtisadi-rayonun yüngül sənayesi, əsasən, tikiş (Naxçıvan, Culfa), ipəkəyrimə (Ordubad), xalçacılıq, trikotaj (Naxçıvan) müəssisələri, yeyinti sənayesi konserv (Ordubad, Şərur), tütünü fermentasiya, mineral su doldurumu, ət emalı, balıq zavodu (Naxçıvan, Şəhbuz, Şərur) müəssisələri ilə təmsil olunur. Konserv sənayesi ixtisaslaşdırılmış sənaye sahələrindən biri olmaqla, əsasən, Ordubad və Şərur meyvə-tərəvəz kanserv zavodlarından ibarətdir. Ordubad şəhərində yerləşən meyvə-konserv kombinatının bir sexi və altı əlavə yardımçı sexi vardır ki, burada da daha çox ərik, qızılgül, qoz, hayva və s. yüksək keyfiyətli konserv məhsulları istehsal edilir (Nadirov A, 2010, s.100).

Azərbaycan Respublikasının Prezidentinin 24 aprel 2013-cü il tarixli 865 saylı Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə" təsdiq olunmuşdur. Həmin Fərmanla müəyyən edilmişdir ki, "sənaye parkı - sahibkarlıq faaliyyətinin həyata keçirilməsi üçün mühüm infrastruktur və idarəetmə qurumlarına malik, müasir texnologiyaların tətbiq edilməsi yolu ilə rəqabətqabiliyətli məhsul istehsalı və xidmət göstərilməsi məqsədi üçün istifadə edilən, sahibkarların səmərəli faaliyyətinə və inkişafına kömək edən bir ərazidir". Ölkəmizdə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, habelə, Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 26 dekabr 964 saylı Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda da nəzərdə tutulmuşdur. Bununla bağlı xarici dövlətlərin bu sahədə müsbət təcrübəsinin ölkəmizdəki tətbiq istiqamətində ardıcıl və davamlı tədbirlər həyata keçirilmişdir. Xarici ədəbiyyatlarda sənaye parkına verilən tərifdən göründüyü kimi, bu - sahəsi 20,000 kv m-dən az olmayan daşınmaz əmlak və infrastruktura malik və vahid operator tərəfindən idarə edilən obyektlər (sənaye parkı fəaliyyətini təmin eləyən torpaq sahələri, inzibati, istehsal, anbar və s. binalar) kompleksidir. Sənaye parkının yaradılması məqsədi hər hansı bir ərazinin investisya cəlbediciliyinin yüksəldilməsi və parklarda biznesin inkişafının formalaşdırılmasıdır. Daha ətraflı

deyilsə, bu məqsədlər aşağıda qeyd olunanlardan ibarətdir: – innovativ və yüksək texnalogiyalar əsasında rəqabətəqabiliyətli sənaye istehsalının inkişafı, xidmətlərin göstərilməsi üçün münbüt şəraitin yaradılması və həmin sahədə sahibkarlığın dəstəylənməsi; – iqtisadiyatın, o cümlədən, qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması; – ölkənin yerli və xarici investisyalar üçün əlverişliliyinin artırılması; – əməkqabiliyətli əhalinin istehsalat sahəsində məşğulluğunun artırılması.

Ölkəmizdə uğurla həyata keçirilməkdə olan sənayeləşmə siyasəti və Prezident İlham Əliyevin 26 dekabr 2014-cü il tarixli Sərəncamilə təsdiq olunmuş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nın icrasının uğurlu nəticəsidir ki, həmin Proqram çərçivəsində sənaye parkları və məhəllələrnin yaradılması istiqamətində böyük işlər görülmüşdür. Dövlət Proqramı ölkədə sənayeləşmə prosesinin sürətlənməsi baxımından xüsusi əhəmiyət kəsb edir və hazırda uğurla icra edilməkdədir. Dövlət Proqramında qeyd olunan məqsədlərə nail olunması üçün mövcud olan istehsal sahələrinin genişləndirilməsi və yeni-yeni sahələrin yaradılması, qeyri-neft sənayesinin ixracat potensialının artırılması, elmtutumlu, innovativ istehsalının inkişaf etdirilməsi, sənaye zonaları və klasterlərinin yaradılması və s. nəzərdə tutulmuşdur. Qeyri-neft sənayesinin davamlı inkişafında, sahibkarlıq faaliyyətinin genişləndirilməsində, xüsusilə, kiçik və orta sahibkarlığın inkişafı və məşğulluqda sənayenin xüsusi çəkisinin artırılmasında sənaye parkı və sənaye zonaları mühüm əhəmiyyət kəsb edir. Modern infrastruktura malik olan, qabaqcıl texnika və texnalogiyalar tətbiq olunmaqla yaradılmış Sumqayıt, Balaxanı, Mingəçevir və Qaradağ sənaye parkları, Neftçala sənaye məhəlləsi rəqabətqabiliyətli və idxal əvəz edən məhsul istehsalının genişləndirilməsi, həmçinin, ixrac qabiliyətinin artırılması, investisyaların və müasir texnologiyaların cəlb edilməsi baxımından da önəmlidir (www.economy.gov.az, 2018).

# III Fəsil AZƏRBAYCANDA SƏNAYENİN İNKİŞAFININ ƏRAZİ ÜZRƏ TƏŞKİLİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ İSTİQAMƏTLƏRİ

## 3.1. Sənayenin ərazi strukturunun təkmilləşdirilməsinin və regionlarda sənayenin inkişafının prioritet istiqamətləri

Azərbaycan Respublikasında məhsuldar qüvvələrin səmərəli şəkildə yerləşdirilməsi və ayrı-ayrı regionların iqtisadi patensialından tam istifadə olunması ölkənin iqtisadi inkişaf baxımından mühüm əhəmiyyət kəsb edir. Azərbaycan üçün məhsuldar qüvvələrin ərazi baxımından qeyri-bərabər yerləşməsi xarakterikdir. Belə ki, hələ keçmiş sovetlər dönəmində respublikada regionlar arasında sosial-iqtisadi inkişaf səviyəsinə görə böyük fərqlər var idi. Ölkənin məhsuldar qüvvələrinin çox böyük hissəsi Bakı şəhəri və ətrafında cəmlənmişdi ki, bu meyil müasir dövrdə də davam edir. Ölkə iqtisadiyyatının bazar münasibətlərinə keçidi dövrundə ayrı-ayrı regionlarda istehsalın azalması nəticəsində işsizliyin yüksəlməsi sosial-iqtisadi vəziyyətin ağırlaşması, əhalinin regionlardan Bakı və xarici ölkələrə axını, bütövlükdə isə ölkənin iqtisadi potensialından istifadə edilməməsi və əlavə sosial problemlərin yaranmasına səbəb olmuşdur. Buna görə, müasir dövrdə respublikanın iqtisadi rayonlarında mövcud iqtisadi potensialdan tam, səmərəli istifadə etməklə onların sosial-iqtisadi inkişaf səviyyələrinin artırılması ölkəmizdə aparılan iqtisadi islahatların strateji istiqamətlərindən biri kimi müəyyən olunmuşdur.

Bütövlükdə isə, ölkənin sosial-iqtisadi inkişafının təmin olunması regionnarın təbii-iqtisadi, demoqrafik, ekoloji və d. şərait və xüsusiyyətlərinin hərtərəfli nəzərə alınması sayəsində mümkündür. Buna görə də regionlarda mövcud olan problemlərin həlli, iqtisadi resursların təsərrüfat dövriyəsinə cəlb edilməsi məsələləri dövlətin iqtisadi siyasətinin mühüm istiqamətlərindən hesab olunur. Müasir dövrdə ölkə iqtisadiyyatının bazar münasibətləri və prinsiplərinə əsaslanması iqtisadi inkişafın idarə olunmasında direktiv (birbaşa) planlaşmadan indikativ planlaşmaya keçidi zəruri etmişdir. Məlumdur ki, planlı iqtisadiyyatda planların qanuni qüvvəsi və yerinə yetirilməsi icbari xarakterə malik idi. Bazar

münasibətləri şəraitində də, öz növbəsində, planlaşdırma həyata keçirilir. Belə ki, hökumət iqtisadi inkişafın əsas prioritet istiqamətlərini müəyyən etməli, bu sahədə həyata keçiriləcək tədbirləri dəqiqləşdirməli, müəyyən olunmuş məqsədlərin yerinə yetirilməsi üçün tənzimlənmə metodlarından istifadə etməlidir. Bu metodlar özlüyündə inzibati və iqtisadi metodlara bölünür. Hökumət həmin metodlardan istifadə edərək qarşıya qoyulan məqsədlərə nail olur. Hökumətin iqtisadi siyasətinin prioritet (özül) istiqamətlərindən biri də məhsuldar qüvvələrin ərazi baxımından rasional yerləşdirilməsinə nail olmaqdır. Bu isə hər bir iqtisadi-rayonda inkişaf prioritetlərinin müəyyənləşdirilməsini zəruri edir. Hal-hazırda hökumətin əsas məqsədi ölkənin rayonlarında mövcud olan potensialdan səmərəli istifadə etmək yolu ilə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha genişləndirilməsinə, ixrac yönümlü məhsul istehsalının stimullaşdırlmasına, yerli sahibkarlığın inkişaf etdirilməsi yolu ilə əhalinin həyat səviyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyəsinin, xüsusilə də gənclərin faydalı əməyə cəlb olunmasının artırılmasına, ümumilikdə isə, ölkə iqtisadiyyatının dinamik inkişafının təmin edilməsinə nail olmaqdır.

Azərbaycanda istənilən bir regionun sosial-iqtisadi inkişafının qarşısında duran əsas məqsədlərə aşağıdakılar daxildir:

-iqtisadi-rayonda davamlı iqtisadi artıma nail olunması;

-region iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi;

-iqtisadi-rayonda əməkqabiliyətli əhalinin məşğulluq probleminin həlli;

-bir işçiyə düşən əmək haqqı və adambaşına real gəlirlərin yüksəldilməsi;

-iqtisadi-rayonda istehsalın texniki-iqtisadi səviyəsinin və istehsal olunan məhsul-xidmətlərin rəqabətəqabiliyyətinin yüksəldilməsi;

-əhalinin ümumi həyat səviyyəsinin yüksəldilməsi və sosial bərabərsizliyin mümkün ola bildiyi qədər azaldılması.

Qeyd edilənlərlə birlikdə, dövlət yeni müəssisələrin yaradılmasın və onların inkişaf edirilməsində iştirak edə bilər və ya bəzi müəssisələr tamamılə dövlət mülkiyyətində yaradıla bilər.

**Şəkil 6. Azərbaycanda regionların sosial-iqtisadi inkişafının qarşısında duran əsas məqsədlər**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** www.economy.gov.az

Qarşıya qoyulan məqsədlərə çatılması üçün aşağıdakı vəzifələrin yerinə yetirilməsi nəzərdə tutulur:

-müəssəsələrin istehsal fəaliyyətini bərpa eləmək və yeni istehsal müəssisələri yaratmaq;

-yerli resurslardan istifadə olunmasının səmərəsini artırmaq;

-regionların inkişafı üçün zəruri olan infrastrukturun yaradılması və inkişafını təmin etmək;

-aqrar sektordakı islahatların ikinci mərhələsini sürətləndirmək, bunun üçün regionlarımızda fermerlərə və digər kənd təsərrüfatı işçilərinə kömək etmək məqsədilə müxtəlif xidmət mərkəzləri yaratmaq, toxumçuluq bazasını genişləndirmək, texniki avadanlıqlarla təminatı yaxşılaşdırmaq və digər zəruri tədbirlər həyata keçirtmək;

-investorların regionlara cəlb edilməsi üçün əlverişli şəraitin yaradılmasını təmin etmək;

-yeni və çoxlu sayda iş yerlərinin yaradılmasını həvəsləndirmək;

-əhalinin kommunal xidmətlərlə təminat səviyyəsini yaxşılaşdırmaq.

Qeyd olunanlar baxımından, regionlarda sənayenin inkişafı əhalinin məşğulluğunun təminatı və sosial vəziyyətinin artırılması baxımından mühüm əhəmiyyətə malikdir. İndiki şəraitdə ölkə regionlarının sənayesinin inkişafında dövlət sosial-iqtisadi inkişafa nail olmaq məqsədilə özəl bölmənin inkişafını stimullaşdırmalı, dövlət tənzimləməsi vasitələrindən səmərəli istifadə etməli, münasib bazar-istehsal infrastrukturlarının formalaşdırılması və təsərrüfat subyektlərinə bəzi servislərin göstərilməsi istiqamətində fəaliyyət göstərməlidir. Təhlillər göstərir ki, müasir dövrdə ölkədə (xüsusilə də regionlarda) xüsusi sahibkarlıq iqtisadi inkişaf qarşısında duran bir çox məsələləri həll etmək iqtidarında deyil. Bu baxımdan, dövlət özünün səfərbəredici imkan və resurslarından istifadə edərək iqtisadi inkişafa əhəmiyətli təsir göstərən iri müəssisələri dövlət mülkiyyətində və ya xüsusi sahibkarlarla əməkdaşlıq şəklində yarada bilər.

Qeyd olunan vəzifələrin içərisində mühüm əhəmiyyət kəsb eləyəni işgüzar təşəbbüslərin sürətlənməsinə səbəb olacaq əlverişli sahibkarlıq (özəl) mühitinin yaradılması yolu ilə özəl sektorun ümumi fəaliyyətini, yeni müəssisələrin yaradılmasını stimullaşdırmaq, habelə, onların fəaliyyətini dəstəkləməkdir. Belə ki, xüsusi mülkiyyətin qorunulması, qanunun aliliyi, bürokratik maneələrin aradan qaldırılması və şəffaflıq birlikdə iqtisadi inkişafın əsasını təşkil edir. Regionlarda münasib nəqliyyat və kammunikasiya sistemlərinin inkişafı, su və enerji istehsal-təsərrüfat obyektləri üçün fasiləsiz verilməsi kimi məsələlər iqtisadi inkişaf üçün zəruri şərtlərdir. Dövlət tənzimlənmə vasitələrindən səmərəli istifadə etməklə, məhsulların bazara çıxarılması, həmçinin, satışı zamanı yaranan problemlərin həllinə kömək eləməli və haqsız rəqabətin aradan qaldırılması üçün tədbirlər də görməlidir.

Ölkə regionlarında mövcud olan sənaye müəssisələrinin əksəriyyətinin uzun müddət işləməməsi və ya maliyyə çətinlikləri ilə əlaqədar onların texniki iqtisadi səviyəsinin aşağı düşməsi bu müəssisələrin bəzilərinin profilinin dəyişdirilməsini,

bəzilərinin isə köklü şəkildə yenidən qurulmasını tələb etmişdir. Sənaye müəssisələrinin yenidən qurulmasına maneçilik törədən əsas amillərə ilkin növbədə, yerli sahibkarlığın zəif inkişafı təsir göstərir. Sahibkarların maliyyə imkanlarının aşağı (arzuolunmaz həddə) olması, həmçinin, onların biliklərinin xarici bazarlarda səmərəli fəaliyyət baxımından arzuedilən səviyyəni təmin edə bilməməsi xarici ticarətdən asılı sənaye müəssisələrin bərpasına maneçilik törədən amillərdəndir. Təhlillər göstərir ki, sənaye müəssisələrinin əksəriyəti daxili bazara istiqamətlənmişdir. Son illərdə ölkən regionlarında kənd təsərrüfatı istehsalının artımını nəzərə alaraq, istehsal edilmiş məhsulun bazara çıxarılması məqsədilə onun markalanması və qablaşdırılmasnın təşkil olunması bu sahənin inkişafı baxımından mühüm əhəmiyətə malikdir. Regionlarda ət, süd, dəri emalı müssisələrinin, eləcə də süd və dəri tədarük məntəqələrinin yaradılması həmin müəssisələr ilə ilkin istehsalçılar, eyni zamanda, müvafiq müəssəsələrin özləri arasında kooperasiya əlaqələrinin qurulması regionda heyvandarlığın inkişafı baxımından da səmərəli nəticələr verə bilər. Bundan əlavə, qoyunçuluğun inkişafı üçün yun tədarükü müəssisələrin yaradılması və inkişaf etdirilməsinin dəstəklənməsi də mühümdür.

İqtisadi rayonların xeyli qismində (Lənkəran-Astara, Gəncə-Qazax və s.) şərabçılığın inkişaf etdirilməsi məqsədəuyğun sayılır. Son dövrlərdə regionlarda üzüm bağları salınması və kənd təsərrüfatının bu sahəsinin inkişafı imkanlarının böyük olması üzüm emal müəssisələrinin yaradılmasını məqsədəuyğun edir. Emal müəssisələrinin yaradılması və bunun üzüm bağlarının salınmasilə əlaqələndirilməsi regionun iqtisadi inkişafına əhəmiyətli dərəcədə təsir göstərə bilər. Ölkənin regionlarında böyük həcimdə meyvə-tərəvəz məhsulları istehsal edilir. Bu məhsulların emalı üçün müəssisələrin yaradılması və inkişafının dəstəklənməsi də zəruridir. Həmçinin, rayonlarda heyvandarlıq məhsullarının inkişafı sahəsində tədbirlər görülməsi vacibdir. Bu sahədə mövcud olan ət və süd kombinatlarının ləğv olunması heyvandarlıq məhsularının kompleks emalının sıradan çıxarılması ilə nəticələnmişdir. Qeyd eləmək lazımdır ki, son dövrlərdə meyvə tərəvəz və heyvandarlıq məhsulları istehsalının artımı konserv, ət-süd

məhsullarının istehsalı üçün xammal təmin etmək baxımından əlverişli şərait yaratmışdır.

Regionlarda kənd təsərrüfatı üçün emalı müəssisələrinin inkişafında mühüm problemlərdən biri onlarla təsərrüfatlar arasında əlaqələrinn yaradılmasıdır. Hal-hazırda kəndli təsərrüfatlarında istehsalın həcmi kiçikdir. Bu da tədarük xərclərinin artmasına gətirib çıxarmışdır. Eyni zamanda, kənd təsərrüfatı xammalı kompleks emalat tələb edir. Belə ki, bəzən kənd təsərrüfatı xammalının 10-15 %-i həcmində əsas məhsul alınır. Belə olan halda isə, əsas məhsulla yanaşı, istehsal edilən məhsulların alıcılarının olması da vacibdir. Bəzən sözügedən alıcılar kəndli təsərrüfatlarının özləri olurlar. Qeyd edilən baxımdan, regionda tədarük-satış müəssisələrinin yaradılması və kənd təsərrüfatı məhsullarının tədarük edilməsi üçün təsərrüfatların zəruri avadanlıqlar ilə təmin olunması vacibdir. Məsələn, rayonlarda südün tədarük edilməsi üçün pasterizasiya aparatlarının olması tələb olunur.

Yerli əhalinin istehlak qabiliyətliliyinin və məşğulluğunun təmin edilməsinin zəruriliyi nəzərə alınaraq, iqtisadi rayonlarda yüngül sənaye sahəsinin tikiş, toxuculuq, trikotaj, xalçaçılıq növlərinin inkişaf etdirilməsi məqsədəuyğundur. Qeyd eləmək lazımdır ki, vaxtilə ölkədə istehsal olunan yüngül sənaye məhsullarının əhəmiyətli hissəsi regionların payına düşürdü.

Tikiş sahəsi sənayenin yüksək əməytutumulu və nisbətən aşağı fondtutumlu sahəsidir. Burada tək bir iş yerinin yaradılması üçün nisbətən az investisiya qoyuluşu tələb olunur. Buna görə, bu sahənin inkişaf etdirilməsi əmək qabiliyətli əhalinin məşğulluğunun təmin edilməsi baxımından mühüm əhəmiyətə malikdir. Qarışıq yem istehsalı sahəsində müəssisənin optimal və lazımi ölçüsü nisbətən kiçikdir. Bu baxımdan, regionlarımızda qarışıq yemə olan təlabatı ödəmək məqsədi ilə qarışıq yem istehsal müəssisəsinin yaradılması məqsədəuyğundur. Ölkənin heyvandarlıq üçün imkanları olan regionlarında bu sahənin yaradılması kənd təsərrüfatının inkişafına əhəmiyyətli dərəcədə təsir göstərəcək. Bu baxımdan, regionlarda heyvandarlıq sənayesinin yüksək qidalı yemlərlə təmin olunması məqsədilə qarışıq yem istehsal eləyən sexlərin yaradılması da stimullaşdırılmalıdır.

İqtisadi rayonların bir çoxu təbii-mineral sularla zəngindir. Məsələn, Naxçıvanda “Badamlı”, “Sirab” mineral sularının, Gədəbəy rayonundakı Slavyanka kəndində "Nazran", “Mor-mor” və s. mineral sularının istehsalı və qablaşdırılması olduqca uğurlu bir biznesdir. Bu baxımdan bu sahənin daha da inkişaf etdirilməsi üçün sudoldurma müəssisələri tərəfindən düzgün marketinq siyasəti həyata keçirilməklə, satışın həcmini artırmaq olar. İqtisadi rayonlarda tikinti materiallar sənayesinin inkişaf üçün imkanlar böyükdür. Məsələn, Naxçıvan, Abşeron və digər regionlarda tikinti xammalının böyük ehtiyatları mövcuddur.

İqtisadi-rayonlar yerli sənaye sahələrilə yanaşı, maşınqayırma və metallurgiya sahələrinin inkişaf imkanlarına da malikdirlər. Məsələn, Gəncə-Qazax iqtisadi-rayonunda sənayenin mühüm sahələrindən biri maşınqayırma sahəsidir. Burada Gəncə Cihazqayırma Büllur Elm-İstehsalat Birliyinin, “Rabitəsənaye” zavodunun bərpası olduqca əhəmiyyətli bir hadisədir. Bu zavodların yenidən qurulmasından snra növbəti inkişaf imkanlarının öyrənilməsi, eləcə də müvafiq istiqamətdə tədbirlərin həyata keçirilməsi vacibdir. Həmçinin, Gəncə-Qazax iqtisadi rayonunun mühüm sahələrindən biri də əlvan və qeyri-əlvan metallurgiya sənayesidir. Dağ-mədən sənayesinin böyük bir hissəsi Daşkəsən rayonunun ərazisində yerləşir. Bunlara Daşkəsən dəmir-filiz yataqları, Zəylik alunit mədəni, Çovdar qızıl yataqları, Gədəbəyin mis yataqları və s. aiddir. Qeyd etmək lazımdır ki, dağ-mədən sənayesi vaxtilə sovet dönəmi və ondan əvvəlki vaxtlarda Daşkəsən rayonunun iqtisadiyyatının əsasını təşkil edirdi. Bu sahələrin daha da inkişaf etdirilməsi bu rayonda, o cümlədən digər rayonlarda məşğulluğun daha da artmasına gətirib çıxarar. Eyni zamanda, ölkənin metallurgiya sahəsi üzrə əsas müəssisələri olan “Azərboru” Açıq tipli səhmdar cəmiyyəti və “Azəralüminium” şirkəti Sumqayıt şəhərində yerləşir. Bu müəssisələrin inkişafı Sumqayıt şəhərinin iqtisadiyyatına əhəmiyyətli dərəcədə təsir göstərməkdədir. Ölkənin kimya sənayesinin əsas hissəsi Sumqayt şəhərində yerləşir. “Azərkimya” şirkətinə daxil olan Səth aktiv maddələr zavodu, Üzvi-sintez zavodu, Sintetik kauçuk zavodu, etilen-proppilen zavodu ölkənin neft kimya sənayesinin əsasını təşkil edir. Eyni zamanda, hazırda bərpa olunan Səlyan plasmast məmulatları zavodunun inkişaf

etdirilməsi neft-kimya sənayesinin inkişaf baxımından mühüm əhəmiyyətə malikdir. İqtisadi rayonlarda yeni yaradılan sənaye müəssisələrinin işinin stimullaşdırılması üçün sənaye zonalarının yaradılması məqsədəuyğundur, bu zərurəti nəzərə alaraq cənab Prezidentin göstərişi ilə sənaye məhəllələrinin yaradılmasına başlanmışdır. Təcrübə göstərir ki, hazırki zamanda regionlarımızda iqtisadi inkişafa nail olmaq yalnız kiçik və orta müəssisələrin yaradılması hesabına mümkündür. Buna görə, onlarda istehsal edilən məhsulların maya dəyərini aşağıya salmaq, istehsalda xidmət keyfiyyətini artırmaq üçün sənaye zonalarının yaradılmasına ehtiyac var idi, odur ki, sənaye məhəllələrinin yaradılması uğurlu iqtisadi siyasətin davamıdır. Bu sənaye məhəllələrində infrastruktur obyektlərindən ümumi istifadə, müəssisələrin qarşılıqlı fəaliyyəti, onlara xidmət göstərən təchizat-satış müəssisələrinin yaradılması son nəticədə istehsal olunan məhsulun rəqabətqabiliyyətinin artmasına gətirib çıxarır. Beləliklə, qeyd edilən amillərin nəzərə alınması regionlarda sənayenin səmərəli şəkildə inkişaf etdirilməsinə kömək edər.

## 3.2. Sənaye istehsalının ərazi üzrə yerləşməsinə dövlətin təsir mexanizmi

Müasir dövrdə ölkə sənayesinin ərazi sturukturunda mövcud olan qeyri-bərabərlik sənayenin ərazicə optimal yerləşdirilməsinin dövlət tənzimləməsini zəruriləşdiri. İnkişaf etmiş ölkələrin təsərrüfat təcrübələri göstərir ki, məhsuldar qüvvələrin inkişafı regionların inkişafının hüquqi əsası – dövlətin regional siyasəti olmadan uğurla həyata keçirilə bilməz.

Regional siyasət, ümumilikdə, sosial-iqtisadi inkişaf siyasətinin mühüm tərkib hissələrindən biri olmaqla həmin siyasətin yerinə yetirilməsinə xidmət etməkdədir. Regional iqtisadi-inkişaf siyasətinin başlıca xüsusiyyətlərindən biri özəl sektorun, xüsusilə də, kiçik sahibkarlığın hərtərəfli dəstəklənməsi, onun daha genişlənməsi üçün əlverişli mühitin yaradılması, sözügedən sahədə dövlət tərəfindən müxtəlif yardım və təşviqat mexanizmlərinin tətbiq edilməsidir.

Regional siyasətin həyata keçirilməsi zamanı mütləq hər bir regionun özünəməxsus coğrafi şəraiti və həmin regionun əhalisinin tarixən məşğul olduğu

sahə nəzərə alınmalıdır. Belə ki, hər bir regionun əhalisi müxtəlif sahə üzrə ixtisaslasmış və təkmilləşmişdir. Digər bir tərəfdənsə, sosial-iqtisadi inkişaf siyasətinin hər hansı bir növünə nisbətən regional siyasət mürəkkəbdir. Regional siyasətin həyata keçirilməsi zamanı həm ümumrespublika xarakterli amillər, həm də hər bir regionun konkret şəraitindən irəli gələn amillər təsir göstərir. Regional siyasətin müvəffəqiyəti üçün prioritet sahələrin düzgün seçilməsi və inkişaf istiqamətlərin düzgün müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Məsələn, ölkədə və onun regionlarının sosial-iqtisadi inkişafında ədalətlilik və səmərəlik prinsipləri real şəraitə uyğun olaraq əlaqələndirilməlidir. Eyni zamanda, ölkə üçün prioritet sahələrin inkişafının regionlarımızda prioritet təsərrüfat sahələrinin və infrastruktur sahələrinin inkişafilə nə dərəcədə düzgün əlaqələndirilməsi də nəzərə alınmalıdır. Bazar iqtisadiyyatı dövlətin iqtisadi proseslərə birbaşa və dolaysız müdaxiləsini inkar etsə belə, tənzimləyici funksiyaların rolunu daha da artırır. Təbii, bütün bunlar ümumi iqisadiyyata aid olduğu kimi, eyni dərəcədə, milli iqtisadiyyatın ayrı-ayrı sahələrinə və regional iqtisadiyyata aiddir. Ona görə, regional inkişafın dövlət tənzimləməsinin səmərəli təşkili, zaman keçdikçə müvafiq təkmilləşdirilmələrin aparılması çox mühüm əhəmiyyət kəsb edir. Bunun əsasında bazar iqtisadiyyatı prinsiplərinə müvafiq olaraq mühüm dövlət tədbirlərinin qəbul edilməsi zəruridir. Beynəlxalq təcrübələr göstərir ki, regionların inkişafına nail olmadan ölkənin baza iqtisadiyyatını gücləndirmək, həmçinin, məhsuldar qüvvələrin yerləşdirilməsini təkmilləşdirmək qeyri-mümkündür. Dünya təcrübəsində səmərəli regional siyasəti təmin eləyə biləcək regional idarəetmə üsullarının inkişafını, adətən, bir neçə mərhələyə ayırırlar:

1. İlkin mərhələ XX əsrin 30-cu illərini əhatə edir. 1929 – 1933-cü illərin "böyük böhranı"ndan sonra regional inkişaf problemlərinin öyrənilməsinin zəruriyəti şübhə doğurmurdu;
2. İkinci mərhələ əsrin 40-50-ci illərini əhatə edir. Bu dövr istehsalatın tənəzzülü sənayenin ənənəvi sahələrində eniş ilə xarakterizə olunur. Bu, müharibədən sonra baş verən iqtisadi böhranla əlaqədar idi;

3. Üçüncü mərhələ 60cı və 70-ci illəri əhatə edir. Bu dövrdə regional siyasət sisteminin formalaşdırılmasınn effektivliyi əsas və prioritet prinsip kimi qəbul edildi və Qərbi Avropanın inkişaf etmiş dövlətlərində geniş tətbiq edilməyə başlandı;

4. Dördüncü mərhələyə 70-80-ci illəri aid edirlər. 1974-cü ildəki böhrandan sonra regional xarakterli planlardan daha ziyadə makro-iqtisadi xarakter daşıyan planlar ön plana çıxır;

5. Beşinci mərhələ isə 1993-cü ildən sonrakı dövrü əhatə edir. 1993-cü ilin Maastrix razılaşması əsasında Avropa Birliyi çərçivəsində yeni regional siyasətin həyata keçirilməyə başlanması inteqrasiya proseslərini aktiv inkişaf etdirir (Boudeville, 1966, s.110).

Fərqli ölkələrdə regional siyasət sahəsində mərkəzi, yerli icra hakimiyyətləri arasında vəzifə bölgüsünün müxtəlif prinsipləri, makro və mikro-alətlərin uyğunlaşdırılmasının spesifık sxemləri mövcuddur. Makro-alətlərə monetar, fiskal və ticari siyasəti, mikro-alətlərə işçilərə (əmək) və sahibkarlara (kapitala) təsir vasitələri aid edilir. Makrosiyasətin hansısa konkret alətinin seçilməsi prosesi həmin anda regional idarəetmə subyektlərində həll olunacaq məsələlərdən və spesifik şəraitlərdən asılıdır. Məsələlərin və şəraitin müxtəlifləşməsinə baxmayaraq, regionlarda problemlərin həll vasitələrinin müəyyənləşdirilməsində ümumi-spesifik qanunauyğunluqlar mövcuddur. Mikrosiyasətin mümkün istiqamətləri təsir obyektlərinın seçilməsi yolu ilə formalaşdırılır. Unitar dövlətlərdə isə regional siyasət mərkəzi hökumət tərəfindən makro və mikro-alətlərdən bərabər səviyədə istifadə etməklə həyata keçirilir. Aktiv regional siyasət həyata keçirən inkişaf etmiş ölkələrin aşağıdakı xarakterik xüsusiyyətləri mövcuddur:

-zəif inkişaf eləmiş problemli regionların "mənimsənməsi" (yəni inkişaf etdirilməsi), böhranlı sənaye rayonlarının əvvəlki mütərəqqi vəziyyətə gətirilməsi;

-sənaye istehsalının həddən artıq cəmləşdiyi rayonların və aqlamerasiyaların əks-təmərküzləşdirilməsi;

-mövcud sənaye mərkəzlərilə bağlı olmayan yeni sənaye mərkəzləri və sənaye qovşaqlarının yaradılması.

**Şəkil 7. Aktiv regional siyasət həyata keçirən inkişaf etmiş dünya ölkələrinin xarakterik xüsusiyyətləri**




**Mənbə:** Business Insider saytının məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. **Link:** www.businessinsider.com

Regional siyasətin daha müvəffəq həlli məqsədilə regional siyasətin birbaşa dövlət tənzimləməsi tez-tez tətbiq edilir. Məsələn, regional siyasət vasitəsi kimi birbaşa dövlət tənzimlənməsi Avropa ölkələrində ağır vəziyyətdə olan regionların problemlərin həll edilməsində fəal istifadə olunur. Xarici investisiyaların çatmaması Avropa ölkələrini daxili potensiallarının stimullaşdırılması yollarını axtarmağa sövq edirdi. Belə yol kimi aşağıdakı iki problemi həll edə biləcək dövlət investisiya kampaniyalarının yaradılması seçildi:

-problemli regionlara yeni investorların cəlb olunması, onlara fəaliyyətlərinin genişləndirilməsi, özəl firmaların yaradılması və rekonstruksiyasına kömək edilməsi;

-regionların iqtisadi və sosial inkişafına təkan verəcək dövlət layihələrinin realizasiyası vasitəsilə dövlət sektorunun regional inkişafa stimullaşdırırıcı təsirinin gücləndirilməsi.

Burada ən əsas diqqət yeni məhsulların istehsalı və yeni texnologiyaların tətbiqi, istehsalın yeniləşdirilməsi və artımı, yerli və xarici kapitallı müəssisələrin təşkili və yeni məhsulların və texnologiyaların yaradlması üçün aparılan tədqiqat işlərinə köməyə yönəldilir. ABŞ-da ölkənin cənubi-şərqində (Tennes çayı vadisində) yeddi ştat ərazisini əhatə edən "problemli regionun" iqtisadiyatını inkişaf etdirmək üçün xüsıısi dövlət korparasiyası – Tennes Vadisi İdarəsi yaradılmışdır. Belçikada inkişaf bankı funksiyalarını yerinə yetirən regional investisiya kampaniyaları mövcuddur. Onlar özəl firmaların yaradılması, rekanstruksiyası və genişləndirilməsini stimullaşdırır, yeni dövlət şirkətlərinə kömək edir, dövlət və regionların sənaye siyasətini həyata keçirirlər. Bundan əlavə, bir sıra ölkələrdə regional inkişaf şirkətləri mövcuddur. Bu kompaniyaların funksiyaları  regional informasiya bankları idarəsinə məxsus pis vəziyyətə düşmüş firmaların idarə edilməsində iştirak eləmək və sektor maraqlarının müdafiəsi və s.-dir. İsveçdə inkişafdan "geridə qalmış" regionların inkişafına kömək eləmək məqsədilə dövlət regional kompaniyalar yaradır. Bu kompaniyalara müvafiq maliyyə yardımı edir, yeni məhsullar istehsalında iştirak edir, kiçik və orta müəssisələrə kömək edirlər. Niderlandda beş dövlət regional inkişaf kompaniyası yaradılmışdır. Onların əsas məqsədi işsizlik probleminin həllinə və regionların iqtisadi strukturunun təkmilləşdirlməsinə kömək etməkdir. Belə şirkətlər əyalətlərin potensial inkişafını, region və milli sənaye arasında əlaqələrin gücləndirilməsini stimullaşdırır, mövcud olan firmalara, əsasən də, kiçik və orta fırmalara kömək edirlər.

Regional siyasətin reallaşdırılmasının vasitələrindən biri məqsədli proqram - proqnozlasdırma üsuludur. Regional proqramlar məqsədli və kompleks proqramların bir növü hesab olunur və problemlərin həll edilməsi üçün resursların cəmləşdirilməsi üsulu kimi elmi, texniki, sosial və iqtisadi inkişafın regional starategiyasının idarəetmə və tənzimləmə aləti kimi çıxış edir.

Regional proqramların başlıca məqsədi aşağıdakılardır:

-elmi, texniki, sosial və iqtisadi inkişaf göstəricilər üzrə rayonlar arasındakı fərqlərin azaldılması;

-iqtisadiyyatın optimal ərazi-sahə strukturunun formalaşdırılması;

-bazar şəraitində tarazlandırılmış təsərrüfatçılıq;

-regionun əmək, material, təbii qaynaqlarının maksimal, tam və effektiv şəkildə istifadəsi;

-ətraf-mühitin mühafızə olunması.

Proqram hazırlanarkən regionun mövcud olan sosial - iqtisadi vəziyyəti təhlil edilir və qiymətləndirilir. Regionun sosial və iqtisadi vəziyyəti və bu vəziyyətin region üçün hazırki nəticəsi qeyd edilir, proqram əsasında həll edilməsi planlaşdırılan prioritet problemlər seçilir. Təbii resursların, habelə, ətraf mühitin vəziyyəti qiymətləndirilir. Regionlarda təbii resursların müxtəlif cür növlərinin (torpaq, su, meşə, yanacaq və energetika, mineral və s.) mövcudluğıı və onların kəmiyəti, regiondaxili məqsədlərlə istifadəsi və regiondan xaricə daşınma imkanları qeyd olunur, regionun ekoloji vəziyyəti və onun yaxşılaşdınlması naminə tədbirlər nəzərdən keçirilir. Regionun sosial və iqtisadi inkişafının təhlili, həmçinin, təbii resurslarının qiymətləndirilməsi, ekoloji vəziyyətin, demoqrafik vəziyyətin, əmək bazarının vəziyətinin qiymətləndirilməsi regionun cari təsərrüfat struktur və miqyası haqqında, material, istehsal bazası, iqtisadiyyatda üzə çıxarılmış bərabərsizliklər haqqında, əmək resurslarının ümumi sayı və əmək resursu potensialından istifadə imkanları haqqında məlumat verir. Bu məlumatlardan istifadə eləməklə regionun gələcək texniki inkişaf meylləri və region qarşısında qoyulan məqsədlər hesaba alınmaq yolu ilə regionun sosial-iqtisadi inkişaf konsepsiyası işlənib hazırlanır.

Konsepsiyada resursların səmərəli və çoxvariantlı istifadə istiqamətləri müəyyənləşdirilir və bütöv təsərrüfat kompleksinin düzgün formalaşdırılması yolları müəyyən edilir. Sahə, funksional və problem əlamətlərinə görə tərtib edilən əsas proqram tərkibləri (hissələri) seçilir. Bütün bu proqram tərkiblərində (hissələrində) məqsədlər və məsələlər müəyyənləşdirilir. Proqramda nəzərdə

tutulan hər tədbir kəmiyyət və keyfiyyət göstəricilərinə müvafiq olaraq qiymətləndirilir. Boşuna deyil ki, “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda qeyd edilir ki, ölkənin uzunmüddətli iqtisad və sosial inkişafını təmin eləmək üçün investisiya siyasəti mühüm alətlərdən biridir. Bu sahədə başlıca vəzifə iqtisadiyyatın bütün sahələrinə investisya qoyuluşu imkanlarının genişləndirilməsi və daha alverişli investisiya mühitinin təmin edilməsi məqsədilə bütün investorlar üçün azad rəqabət mühiti yaradılmasından və bu sahədə mövcud olan normativ-hüquqi bazanın təkmilləşdirilməsindən ibarətdir. Proqramda o da vurğulanır ki, özəlləşdirməyə açılmış bütün müəssisələrdə şəffaf və səmərəli özəlləşdirmə prosesinin həyata keçirilməsi davam etdirilməlidir. Qeyri-neft sektorunda müəssəsələrin investisiya fəaliyyətinin dəstəklənməsi istiqamətində məqsədyönümlü işlər həyata keçirilir, müasir istehsal avadanlıqlarının idxal təşviq edilir. Proqramda o da həmçinin bildirilir ki, sənaye sahəsində əsas məqsədlərdən biri regionlarda olan mövcud sənaye müəssisələrinin fəaliyyətinin bərpa və yenidən qurulması, yeni müəssisələrin yaradılmasıdır. Bu zaman kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin bərpası və ixrac potensialının artırılmasına xüsusi diqqət yetirilir. Sənaye sektorunda əsas məqsədə nail olunması üçün növbəti tədbirlər seçilir:

-sənayenin qeyri-neft sektoru üzrə inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi;

-rəqabətdavamlı sənaye məhsulları istehsalının dəstəklənməsi və ixracayönümlü istehsal sahələrinin yaradılmasının təşviqi;

-dövlət mülkiyyətində olan, yaxud səhmlərinin nəzarət zərfi dölətə məxsus olan sənaye müəssisələrinin sağlamlaşdırılması və özəllləşdirilməsi;

-özəlləşdirmədən sonra müəssisələrin faaliyyətinin dəstəklənməsi;

-istehsalın texnoloji cəhətdən yenidənqurulması;

-ixtisaslı və peşəkar kadrların hazırlanması.

“Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı” ölkənin bütün bölgələrinin hərtərəfli inkişafı sahəsində məqsədyönümlü siyasətin stimulu olmaqla, yeni müəssisələr və iş yerlərinin

yaranmasında, irimiqyaslı infrastruktura layihələrinin həyata keçirilməsində müstəsna rol oynayır. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın başlıca məqsədi ölkədə qeyri-neft sektorununun inkişafı, iqtisadiyyatın diversifikasyası, regionların sürətli inkişaf istiqamətində tədbirlərin davam etdirilməsi, xüsusilə də, kəndlərin inkişafı ilə bağlı infrastruktur və sosial xidmətlərin daha da yaxşılaşdırılmasından ibarətdir. Bu məqsədlərə nail olunması üçün regionlarda infrastruktur təminatının, habelə, əhalinin rifahının daha yaxşılaşdırılması, ixracyönümlü və rəqabətdavamlı məhsul istehsalı istiqamətində sahibkarlığın inkişafı sürətləndirilməsi, əhalinin, xüsusilə də, kənd əhalisinin məşğulluq səviyyəsinin artırılması və yoxsulluq səviyyəsi üzrə azaldılması istiqamətində tədbirlərin davam etdirilməsi kimi mühüm vəzifələrin yerinə yetirilmişdir (Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramının (2004-2008-ci illər) icrasının yekunları “uğurlu siyasətin nəticələri”, 2009).

Ümumilikdə götürdükdə, dövlət proqramlarının icra edildiyi 2004–2018-ci illər ərzində ümumdaxili məhsul 3,3 dəfə, habelə, qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye sektoru üzrə 2,6 dəfə, kənd təsərrüfatı sektoru üzrə isə 1,7 dəfə artmışdır. Sözügedən müddətdə həyata keçirilən məqsədyönlü və düşünülmüş tədbirlər nəticəsində ölkəmizdə 1,5 milyonu daimi olmaqla 2 milyondan çox yeni iş yeri açılmış, 100 minə qədər yeni müəssisələr yaradılmış, işsizliyin ümumi səviyyəsi 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enmişdir. Dövlət proqramlarının icrası çərçivəsində icra edilmiş genişmiqyaslı və əhatəli işlər regionların növbəti illər üçün də inkişafı üçün möhkəm bir dayaq və ya zəmin yaratmışdır.

Prezident İlham Əliyev “Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının yekunlarına həsr olunan konfrans”da şəxsən bildirmişdir ki, “İlkin hesablamalara əsasən, regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icraatı üçün ən azı 17 mlrd. manatdan çox vəsait nəzərdə tutulmuşdur. Hesablanılmışdır ki, bunun 4,6 mlrd. manatı özəl sektor tərəfindən hazırda icra edilməkdə olan və hazırlığı gedən layihələrə investisya

şəklində qoyulacaqdır. Dövlət tərəfindən təqribən ümumilikdə 13 mlrd. manata yaxın kapitalın qoyuluşu gözlənilir".

2019-cu ilin yanvarında qəbul olunan "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" da bu uğurlara yeni töhfələr verəcəkdir.

Qeyd edildiyi kimi, vaxtilə regionlarda yeni yaradılan müəssisələrin ən başlıca problemlərindən biri də onların dövlət qeydiyatına alınması ilə əlaqədar idi. Bu baxımdan isə "Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin "vahid pəncərə" prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında"Azərbaycan Respublikasının Prezidentinin 25 oktyabr 2007-ci il tarixli Sərəncamının icrasını təmin etmək üçün rayonlarda müvafiq işlər həyata keçirilməsi mütərəqqi rol oynadı. Həmçinin, "vahid pəncərə" prinsipinin sadəcə müəssisələrin yaradılmasına deyil, habelə, bütövlükdə sahibkarların üzləşdikləri əksər problemlərin həllinə şamil olunması sözügedən siyasətin uğurunu şərtləndirmişdir.

İndiki dövrdə iqtisadi rayonların sənayesinin inkişafına təkan verən əsas şərtlərdən biri də respublikanın regionlarında Azad İqtisadi Zonaların (AİZ) yaradılmasıdır. Bildiyimiz kimi, XX əsrin ikinci yarısından başlayaraq dünya təcrübəsində sahibkarlığın inkişafının müxtəlif təşkilati iqtisad modelləri müvəffəqiyətlə tətbiq edilməkdədir. Bu modellərin yaradılması vasitəsi ilə dövlət prioritet sahələrdə və ya regionlarda sahibkarlığın inkişafına təşviq edərək sosial-iqtisadi inkişafın sürətləndirilməsi məqsədi güdür. Avropa və Asiya ölkələrində, həmçinin, ABŞ-da öz məqsəd və miqyaslarına görə çox fərqli olan belə modellər ölkə iqtisadiyyatının strukturu və texnoloji bazasının yenilənməsinin, bu əsasda rəqabətqabiliyətinin yüksəldilməsinin güclü amilinə çevrilmişdir. Artıq Azərbaycan Respublikasında da bu müsbət təcrübənin tətbiq olunur. Xüsusi iqtisadi zonaların yaradlması hazırda sahibkarlığa dövlət dəstəyinin ən mühüm istiqamətlərindən biridir. Xüsusi iqtisadi zonaların yaradılması zamanı məqsəd ölkə iqtisadiyyatının öncül sahələrinin inkişafının sürətləndirilməsi, yerli-xarici investisiyaların cəlb edilməsinə və regionların iqtisadi potensialının inkişafına əlverişli şəraitin yaradılması, habelə, yüksək texnoloji sahələrin inkişafının, yeni

rəqabətqabiliyyətli və səmərəli istehsal və xidmət sahələrinin təşkilinin dəstəklənməsidir.

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında xüsusi iqtisadi zonaların yaradılması haqqında" 6 mart 2007-ci il tarixli Fərmanı ilə ölkəmizdə xüsusi azad iqtisadi zonaların yaradılması və fəaliyyət göstərməsilə əlaqədar dövlət siyasətinin bilavasitə Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi (indiki İqtisadiyyat Nazirliyi) tərəfindən həyata keçirilməsi müəyyən edilmişdir. Fərmanda qeyd olunmaqdadır ki, "müasir dövrdə bir sıra ölkələrdə mövcud olan sosial-iqtisadi problemlərin həll edilməsinə, elmi-texniki nailiyyətlərin daha geniş və səmərəli istifadəsinə və bu ölkələrin beynəlxalq əmək bölgüsündə fəal iştirak etməsinə xüsusi iqtisadi zonalar kimi iqtisadi fəaliyyətin yeni formasının tətbiqi vasitəsilə nail olunur. Beynəlxalq təcrübə göstərir ki, xüsusi iqtisadi zonalar ayrı-ayrı ərazilər, həmçinin, bütövlükdə ölkələrin iqtisadi inkişafına güclü təsir imkanına malikdir". Daha sonra isə Fərmanda "ölkə iqtisadiyyatı və onun ayrı-ayrı regionlarının inkişaf etdirilməsi üçün əlverişli şəraitin yaradılması, investisiyaların təşviqi və prioritet sahələrə yönəldilməsi, yeni iş yerlərinin açılması, müasir idarəetmə təcrübəsinin istifadəsi, rəqabətqabiliyyətli mal və xidmətlərin təqdim edilməsi kimi məsələlərin həllinə nail olunması məqsədilə Azərbaycanda xüsusi iqtisadi zonaların yaradılması məqsədəuyğun hesab olunur". Fərmanda Nazirlər Kabinetinə xüsusi iqtisadi zonalar haqqında qanun layihəsinin və əsasnamənin, bu cür zonalarda güzəştli vergi və gömrük rejimi, valyuta tənzimlənməsi barədə təkliflər, habelə belə zonaların hüdudlarında gömrük nəzarəti, gömrük məntəqələrinin fəaliyyəti, malların sənədləşdirilməsi, nəqliyyat vasitələri və fiziki şəxslərin buraxılma rejiminin sadələşdirilmiş qaydalarının hazırlanması tapşırılır. Fərmanda verilmiş tapşırıqların icrası məqsədilə o zamankı İqtisadiyyat və Sənaye, indiki İqtisadiyyat Nazirliyi aidiyyəti dövlət orqanları ilə birgə "Xüsusi iqtisadi zonalar haqqında" Azərbaycan Respublikasının Qanun layihəsini hazırlamış və Azərbaycan Hökumətinə təqdim etmişdir. Qanun layihəsində xüsusi iqtisadi zonalarda güzəştli vergi-gömrük rejimi barədə təkliflər öz əksini tapmışdır. 31 oktyabr, 2008-ci il tarixdə Qanun layihəsi

Azərbaycan Respublikasının Milli Məclisində qəbul olunmuşdur (https://www.economy.gov.az, 2008).

İnkişaf etmiş ölkələrdə azad iqtisadi zonaların müxtəlif və çoxçeşidli növlərindən istifadə olunur. Lakin onların hamısı əksərən aşağıdakı xarakterik cəhətlərə malikdir:

-vergilərdən azad olma, yaxud vergilərin sayının xeyli azaldılması;

-ixracat məhsullarının istehsalı üçün idxal edilən malların gömrük rüsumundan azad olması;

-valyuta nəzarətinin zəifləşdirilməsi və güzəştli kreditlər verilməsi;

-vahid idarəetmə orqanları yaradılması;

-100 faiz xarici kapital əsasında fimaların yaradılması.

Azərbaycanda azad və birgə iqtisadi zonaların yaradılması baxımından əlverişli bölgələri müəyyən eləmək məqsədilə aparılan təhlilin nəticələri göstərir ki, ən perespektivli bölgələr Abşeron, Naxçıvan MR, Gəncə-Qazax, Lənkəran, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi-rayonlarıdır. Regionlarda kənd təsərrüfatı məhsullarının emal edilməsinə əsaslanan istehsal sahələrinin (qida məhsullarının hazırlanması, konservləşdirmə, texniki bitkilər emalı, toxuculuq və tikiş istehsalları və s.) formalaşması üçün bu cür müəssisələri təşkil edən sahibkarlara güzəştli kreditlərin verilməsi təşkil olunmalı və üzləşdikləri hər cür əsassız maneələr aradan qaldırılmalıdır.

Sənaye obyektlərinin ərazi üzrə səmərəli yerləşdirilməsinin stimullaşdırılması formalarından biri də dövlət, yerli və xarici investorlar (sərmayəçilər) arasında müqaviləyə əsaslanan sənaye layihələridir. Bu layihələrin əsas məqsədi ölkədə istehsal olunan xammal və materialların emallıq səviyyəsinin dərinləşdirilməsi, onların keyfiyyətinin artırılması, regionlarda mövcud olan sənaye müəssisələrin yenidən-qurulması və modernləşdirilməsidir. Belə layihələrin reallaşdırılması sənaye istehsalının texniki-iqtisadi səviyəsinin yüksəlməsinə, hazır məhsulun tərkibində yerli kamponentlərin artmasına imkan verər. Hökumətin bu cür layihələrin dəyərinin cəmi 25 faizinə qədərini maliyyələşdirməsi məqsədəuyğundur. Bu, xarici investorların ölkəmizin ayrı-ayrı regionlarına cəlb

edilməsini stimullaşdırar. Regionlarda sənaye istehsalı inkişafını stimullaşdıran əsas vasitələrdən biri də məhsul və xidmətlərin qiymətlərinin tənzimlənməsidir. Hər şeydən əvvəl, dövlət sifariş qiymətləri və dövlət müəssisələrinin istehsal etdikləri məhsulların və infrastruktur obyektlərinin göstərdiyi xidmətlərə verilən qiymətləri nəzərdə tutulur. Dövlətin inhisarında olan enerji daşıyıcılarının və infrastruktur obyektlərinn xidmətlərinin daxili qiymətlərinin beynəlxalq səviyyədən aşağı saxlanması hesabına istehsal xərclərinin azaldılması yerli sanaye məhsullarının rəqabətqabiliyətinin artmasına və ixracına kömək edər.

Qeyd edildiyi kimi, sahibkarlığa dövlət dəstəyinin mühüm istiqamətlərindən biri sahibkarların güzəştli kreditlərlə təmin edilməsidir. Dövlətin sahibkarlara maliyyə dəstəyi müəyyən istiqamətlər üzrə həyata keçirilməkdədir. Bu mənbələr arasında Sahibkarlığa Kömək Milli Fondunun (İndiki Sahibkarlığın İnkişafı Fondu) fəaliyyəti xüsusi əhəmiyyət kəsb edir. “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”na və “2014-2016-cı illərdə Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair Dövlət Proqramı”na müvafiq olaraq, sahibkarlığın inkişaf etdirilməsinə dövlət dəstəyinin gücləndirilməsi məqsədilə Sahibkarlığa Kömək Milli Fondu tərəfindən 2014-cü il ərzində regionlarda 38, Bakı şəhərinin qəsəbələrində 9 olmaqla 47 işgüzar tədbir keçirilmişdir. Bu tədbirlərdə regionlarımızda və Bakı qəsəbələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinə Sahibkarlığa Kömək Milli Fondunun vəsaitləri hesabına kredit təşkilatları vasitəsilə güzəştli kreditlər təqdim edilmiş, tədbirlərdə iştirak etmiş 4280 sahibkara, habelə, regionlarda 3550, Bakı qəsəbələrində isə 730 sahibkara “Güzəştli kreditlərin verilməsi mexanizmi, investisiya layihələrinin hazırlanması və təqdim olunması” mövzusunda maarifləndirici treninq-təlimlər keçirilmiş, onlara biznes sahəsində fəaliyyətlə bağlı iqtisadi biliklər verilmiş, nümunəvi investisiya layihələrinin təqdimatı keçirilmişdir (www.anfes.gov.az, 2018).

2018-ci ilin birinci rübünə olan statistik məlumatlara əsasən, Fond iqtisadiyyatın müxtəlif sahələri üzrə 611 layihəni dəstəkləmiş, 100185.4 mln.

manat məbləğində kredit ayrılmasına kömək etmiş və nəticədə 7036 yeni iş yerinin yaradılmasına rəvac vermişdir.

**Şəkil 8. Sahibkarlığa Kömək Milli Fondunun 2018-ci ilə olan fəaliyyətinin bəzi göstəriciləri**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** http://edf.gov.az/

Ölkəmizdə sahibkarlığın inkişafına dövlət dəstəyi göstərən maliyyə institutlarından ən öncülü olan Sahibkarlığa Kömək Milli Fondunun fəaliyyəti dövründə ümumi dəyəri 4,7 milyard manat olan investisiya layihələrinin maliyyələşdirilməsi məqsədi ilə 34,963 sahibkara 2,1 milyard manatdan çox güzəştli kredit verilmiş, bu kreditlər hesabına 160 minədək yeni iş yeri yaradılmışdır. Güzəştli kreditlərin faiz bölgüsünə gəldikdə, 71%-i aqrar sektorun, 29%-i sənaye və sair sahələrin inkişafına yönəldilmişdir. Ən əsas cəhət odur ki verilmiş bu kreditlərin əksər hissəsi - 75%-i ölkə regionlarının, 25%-i Bakı qəsəbələrinin payına düşmüşdür. Maliyyələşdirilmiş layihələrin 93%-ni isə kiçik və orta həcmli kreditlər təşkil etmişdir. İndiyədək təmin olunmuş 2,1 milyard manat güzəştli kreditin təqribən yarıya yaxını - 1 milyard manatı büdcə (47%), digər 1,1 milyard manatı isə geri qayıdan vəsaitlərin (53%) payına düşür (www.anfes.gov.az, 2018)

**Cədvəl 4. 2018-ci ilə qədər Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan ümumi kredit və həmin kreditin bölgüsü və istifadəsi**

| | |
|---|---|
| 2018-ci ilə qədər Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan ümumi kredit | 2,1 mlrd. AZN |
| Bu kreditlərlə maliyyələşdirilən layihələrin ümumi dəyəri | 4,7 mlrd. AZN |
| Kredit alan sahibkarların sayı | 34,963 |
| Yeni yaradılan iş yerlərinin sayı | 160,000 |
| Ayrılan kreditlərin büdcə üzrə maliyyələşməsi | 1 mlrd. AZN (47%) |
| Ayrılan kreditlərin digər maliyyə qaynaqları | 1,1 mlrd. AZN (53%) |

**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** http://edf.gov.az/

**Şəkil 9. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan kreditlərin iqtisadi sektor və regionlar üzrə bölgüsü**




**Mənbə:** Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi Sahibkarlığın İnkişafı Fondunun məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir.
**Link:** http://edf.gov.az/

2018-ci ilin ikinci yarısının əvvəlinə kimi müasir texnologiyaların tətbiq olunmasına əsaslanan ümumi dəyəri 3,5 milyard manat olan 451 investisiya layihəsi, o cümlədən 82 logistik mərkəz və taxıl anbar, 62 müasir istixana və 27

cins-heyvandarlıq kompleksləri, 40 quşçuluq və 23 iri fermer təsərrüfatı, 18 ət və süd emalı müəssisələri, 42 intensiv bağçılıq-üzümçülük təsərrüfatı, 18 meyvə-tərəvəz emalı və 30 çörək zavodu, 28 tikinti materialları və 81 digər sahələr üzrə istehsal müəssisələrinə 1.4 milyard manatadək güzəştli kredit verilmişdir. Bu müəssisələrdən 412-si (91%), yəni böyük əksəriyyəti artıq istifadəyə verilmişdir, digər 39 (9%) müəssisədə tikinti-quraşdırma işləri davam etdirilir.

Aqrar sektorun innovativ meyarlara uyğun şəkildə qurulması, o cümlədən aqroparkların yaradılması da bugünkü regionlarda sənaye inkişafı siyasətinin əsas hədəflərdəndir. Dövlət başçısının tapşırıqlarına müvafiq olaraq, respublikanın 30 rayonu üzrə 191,8 min h. ərazidə 45 aqropark müəssisəinin yaradılması prosesi sürətlə və inamla davam etdirilir. 3 aqroparkda birinci mərhələ üzrə işlər başa çatdırılmış, 26 aqroparkda tikinti, təmir, quraşdırma və 16 aqroparkda isə layihələndirmə işləri aparılmışdır. 2018-ci ildə 15 aqropark istifadəyə verilmişdir. Aqroparkların yaradılması ümumilikdə ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsinə, habelə, emal sənayesinin davamlı şəkildə yüksək keyfiyyətli və maya dəyəri aşağı olan xammal ilə təmin olunmasına, yerli məhsullarımızın rəqabət qabiliyətinin daha da artmasına səbəb olacaq.

Ailə biznesinin formalaşdırılması və əhalinin məşğulluq səviyyəsinin artırılması məqsədilə yaradılmış və uğurlu bir layihə kimi davam etdirilən "ABAD" layihəsinin iştirakçısı olan sahibkarara dövlət güzəştli kreditlərinin verilməsilə bağlı Sahibkarlığa Kömək Milli Fondu, "ABAD" publik hüquqi-şəxsi və "Azər-Türk Bank" ASC arasında əməkdaşlığa dair Niyyət Protokolu imzalanmış, ilkin olaraq isə 12 "ABAD"çıya illik minimal 4% ilə 150.000 manat güzəştli kredit verilmişdir.

Regionlarımızın sosial-iqtisadi inkişafının daha da sürətləndirilməsi, habelə, həyata keçirilən Dövlət Proqramlarının nəticələrinin daha da yaxşılaşdırılması və ən əsası isə, tarazlı iqtisadi-inkişafı təmin etməklə davamlı inkişafa nail olmaq üçün dövlət tənzimləməsinin gücləndirilməsi, tənzimləmənin müsbət təsirlərinin artırılması və s. məqsədi ilə aşağıdakı tədbirlərin həyata keçirilməsi məqsədəuyğun olar:

-Ölkədə həyata keçirilməkdə olan dövlət tənzimləməsilə bazar iqtisadiyyatı prinsiplərinin uzlaşdırılması vacib şərtdir. Bu isə o deməkdir ki, artıq tənzimlənmə tədbirləri hamı tərəfindən başa düşülən, həmçinin, həvəsləndirici xarakterdə olmalıdır;

-Dövlət tənzimləməsi və regional siyasət tədbirlərinə vahid kompleks şəkildə yanaşılmalı və bu tədbirlər biri o birini tamamlamalıdır;

-Strateji məhsul istehsalçıları, habelə, gündəlik tələbat məhsulları istehsal eləyən iş adamlarına dövlət qayğısının gücləndirilməsi, onlara maliyyə-vergi güzəştləri, yaxud digər güzəşt paketlərinin təklif edilməsi məqsədəuyğundur;

-Ölkədə investisya və kapital qoyuluşlarının istehsal sahələri və regionnar arasında inkişaf səviyyələri nəzərə alınmaqla səmərəli bölgüsü təmin edilməlidir;

-Zəif inkişaf eləmiş regionlarda istehsal, o cümlədən, xidmət sahələrinin vergidən qismən azad edilməsi, yaxud onlara digər güzəştlərin təklif olunması vacibdir;

-Regionlarda yeni növ və keyfiyyətdə məhsul istehsalı ilə məşğul olan iş adamlarına spesifik yardım proqramlarının qəbul edilməsi məqsədəuyğun olar. Bu həm məhsul bolluğuna stimul verər, həm yeni iş yerlərin yaradılmasına təkan verər, həmçinin, yeni müəssisələrin daha çox regionlarda yerləşdirilməsinə rəvac verər;

-Vergi siyasəti və gömrük siyasətinin ölkədə qəbul olunan Dövlət Proqramlarının, eləcə də regional siyasətin məqsədlərinə uyğun olaraq mütəmadi olaraq təkmilləşdirilməsi;

-Ölkədə, xüsusilə də, regionlarımızda istehsalın rekonstruksiya və modernizasiyasına xidmət edən vergi güzəştlərinin tətbiq olunması həm keyfiyyətli məhsul istehsalına, həm ekoloji problemlərin azaldılmasına şərait yaradar;

-Ölkədə spesifik idxal limitlərinin müəyyən edilməsi və həmin limitlərə hər il yenidən baxılması müsbət addım olar.

### 3.3. Regionlarda sənayenin inkişafı üçün sənaye məhəllərinin yaradılması

Azərbaycan Respublikasının dövlət siyasəti iqtisadiyyatımızın hərtərəfli şəkildə inkişafının təmin edilməsini, o cümlədən, yüksək texnologiyalar əsasında sənaye sektorunun dinamik şəkildə inkişaf etdirilməsi və şaxələndirilməsini nəzərdə tutur. Müvəffəqiyyətlə həyata keçirilən bu siyasətin başlıca nəticəsi kimi, son illərdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair hazırlanan və icra edilən dövlət proqramları çərçivəsində müxtəlif təyinat və növlü yüzlərlə sənaye müəssisələri tikilib istifadəyə verilmiş, minlərlə yeni (daimi) iş yerləri yaradılmışdır. Ölkədə rəqabətədavamlı sənaye məhsulları istehsalını genişləndirmək məqsədi ilə hazırda sənaye parkları və məhəllələrinin yaradılması istiqamətində də güclü işlər aparılır. Həmin istiqamətdə qabaqcıl beynəlxalq təcrübələr öyrənilmiş, onların ölkəmizdə tətbiq imkanları araşdırılmışdır. Beynəlxalq təcrübəyə əsaslanmaqla qurulan sənaye məhəllələri, bir qayda olaraq, ölkədən-ölkəyə spesifik xüsusiyytlərinə görə fərqlənərək 5 hektar ilə 300 hektar arasında dəyişməkdədir.

Ölkəmizdə sənaye məhəllələrinin yaradılması Azərbaycan Respublikasının Prezidentinin "Sənaye məhəllələrinin yaradılması və fəaliyyətinin təşkili haqqında" 2014-cü il 8 oktyabr tarixli 288 saylı Fərmanı ilə müəyyən olunmuşdur. Sənaye məhəlləsinin yaradılmasında əsas məqsəd sənaye və xidmət sahələrində faaliyyət göstərən kiçik və orta sahibkarların inkişafı üçün əlverişli şəraitlə təmin edilmə və əhalinin istehsal, həmçinin. xidmət sahəsində məşğulluğunun artırılmasıdır. Prezidentin qeyd olunan Fərmanına əsasən, sənaye məhəlləsinin terminoloji mənası bu cürdür: sənaye məhəlləsi - sahibkarlıq və biznes fəaliyətinin həyata keçirilməsi üçün zəruri və lazımi infrastruktura malik, kiçik və orta sahibkarlar tərəfindən məhsul istehsal edilməsi və xidmətlər göstərilməsi üçün istifadə edilən vahid bir ərazidir. Sənaye məhəllələri istehsalat prosesinin təşkil olunmasında infrastruktur xərclərinin azaldılıması, kooperasiya əlaqələrinin və münasibətlərin gücləndirilməsi, ölkədə kiçik-orta sahibkarlığın inkişaf etdirilməsi və s. kimi mühüm məsələlərin həlli baxımından böyük əhəmiyyətə malikdirlər.

Prezidentin 2014-cü il 8 oktyabr tarixli 288 saylı Fərmanına əsasən, sənaye məhəllələrinin fəaliyyətinin ümumi təşkili və tənzimlənməsi “Azərbaycan İnvestisiya Şirkəti” adlanan Açıq Səhmdar Cəmiyyətinə həvalə edilmişdir. Sözügedən istiqamətdə Azərbaycan İnvestisiya Şirkətinin əsas fəaliyyəti sənaye məhəllələrində sənaye istehsalının, müvafiq xidmət sahələrinin təşkili üçün zəruri infrastruktur və biznes şəraitini yaratmaq, sənaye məhəllələrində sənayeləşmə siyasətinin icrasın zamanı əsas vasitələrdən birinə çevirməkdir.

Sənaye məhəllələrinin fəaliyyətinin təşkil olunması, kiçik və orta sahibkarlıq subyektlərinin sənaye məhəllələrində məhsul istehsal etməsi və xidmət göstərməsi üçün bir sıra stimullaşdırıcı tədbirlərin həyata keçirilməsilə bağlı təkliflər hazırlanmışdır. Bunlar torpaq sahəsi və tikililərin icarə haqqının aşağı hədlə müəyyən edilməsi, güzəştli kreditlər verilməsi, inzibati prosedurların sadələşdirilməsi, sahibkarlıq fəaliyyətinin səmərəli şəkildə həyata keçirilməsi üçün xidmətlərin təşkili kimi məsələləri əhatələyir.

Sənaye məhəlləsi üçün nəzərdə tutulmuş dövlət mülkiyətində olan torpaq sahəsi idarəedən təşkilatın daimi istifadəsinə o torpaq sahəsini icarəyə vermək hüququ ilə ayrılır və sadəcə sənaye məhəlləsinin fəaliyyəti məqsədi ilə istifadə edilə bilər. Sənaye məhəlləsinin ümumi ərazisində torpaqlar sənaye məhəlləsi iştirakçılarına sahibkarlıq fəaliyətinin həyata keçirilməsinə dair imzalanmış müqavilənin tarix və müddətina uyğun olaraq icarəyə verilir.

Azərbaycan Respublikasının Prezidentinin 2014-cü il 8 oktyabr tarixli 288 saylı Fərmanına əsasən “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə”nin ilkin layihəsi hazırlanmış, təsdiq edilməsi üçün aidiyəti üzrə təqdim edilmişdir. “Sənaye məhəllələri haqqında Nümunəvi Əsasnamə” dövlət tərəfindən sənaye məhəllələrinin fundamentinin qoyulması, idarə olunması və onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı məsələlərin tənzimlənməsini əhatə etməkdədir.

Azərbaycanda ilk sənaye məhəlləsi hesab olunan Neftçala Sənaye Məhəlləsi 2 fevral 2015-ci il tarixli, 1012 saylı Prezident Sərəncamı ilə yaradılmışdır. Hal-hazırda Neftçala Sənaye Məhəlləsində 9 səhmdar-tərəf

qeydiyyatdan keçmişdir. Təklif edilən layihələrin icrası məqsədilə 45 mln. manatdan çox investisiya qoyulması nəzərdə tutulmuşdur. Hal-hazırda 225 nəfər işçinin çalışdığı Sənaye Məhəlləsində residentlər tam gücləri ilə fəaliyyətə başladıqdan sonra 500 nəfərə qədər işçinin çalışması proqnozlaşdırılır. Avtomobil ehtiyat hissələrinin istehsal edilməsi layihəsilə bağlı "AzEvrocar" MMC, "Azərbaycan İnvestisiya Şirkəti" ASC və İranın "Khodra" şirkətləri arasında minik avtomobilləri ilə onların ehtiyat hissələrinin birgə istehsalatının həyata keçirilməsi üçün 21 aprel 2016-cı il tarixində Razılaşma Memorandumu imzalanmışdır və bu layihənin icrası nəticəsində istehsal ediləcək "Runna", "Samand", "Soren", "SAİPA X200 (TIBA)", "Tondar SR (Renault)", "Peugeot", "Dena" modelli minik avtomobillərinin həm ölkə daxilində satılması, həm də xarici ölkələrə ixrac olunması nəzərdə tutulmuşdur (http://www.smb.gov.az ,2016).

Eyni zamanda Prezidentin 13 iyun 2016-cı il tarixli, 2115 saylı Sərəncamı ilə Masallı Sənaye Məhəlləsi də yaradılmışdır. Müvafiq Sərəncamla verilmiş tapşırıqların icrasına başlanılmaqla, Sənaye Məhəlləsinin tikinti işləri tam yekunlaşdırılmışdır. Masallı Sənaye Məhəlləsinə sahibkarlar böyük maraq göstərməkdədirlər və onlar tərəfindən icra edilməsi üçün ümumi dəyəri 33 milyon manatdan çox olan 33 layihə və təklifləri (600-a yaxın iş yerinin açılmasını nəzərdə tutur) "Azərbaycan İnvestisiya Şirkəti"nə təqdim olunmuşdur.

İlkin olaraq, Sənaye Məhəlləsində ümumi dəyər 7,1 mln. manat olan 9 layihənin icrasına başlanılması planlaşdırılır. 229 yeni iş yerinin yaradılacağı bu layihələrdən 4-ü mebel istehsalı, digərləri isə plastik məhsullar, metal məmulatlar, tikinti materiallar, kabel istehsalı və həmçinin dulusçuluq məmulatı istehsalı sahələrini əhatə edir.

Respublikada sənaye məhəllələrinin yaradılması, sahibkarlıq və biznes mühitinin inkişaf etdirilməsi, habelə, kiçik və orta sahibkarlıq subyektləri üçün əlverişli və səmərəli investisiya mühitinin formalaşdırılması, qeyri-neft sektorunun inkişaf etdirilməsi və iqtisadiyyatın modernizasiyası qarşıda duran ən əsas və prioritet vəzifələrdəndir.

Prezidentin 25 iyul 2017-ci il tarixli, 3127 saylı Sərəncamı ilə yaradılan Hacıqabul Sənaye Məhəlləsində ümumi dəyəri 44 mln. manat olan 8 layihənin icrasının nəticəsi qismində 870-ə qədər yeni iş yerinin yaradılması planlaşdırılır. Prezidentin 27 noyabr 2017-ci il tarixli, 3406 saylı Sərəncamı ilə yaradılmış Sabirabad Sənaye Məhəlləsinin əsasının qoyulması istiqamətində də işlər müvəffəqiyyətlə aparılır. Belə ki, hal-hazırda Sənaye Məhəlləsinin inşası məqsədilə əsas layihə sənədlərinin və smeta xərclərinin hazırlanması yekunlaşmaq üzrədir.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR

Azərbaycanda sənaye müəssisələrinin ərazi baxımında təşkilinin kompleks tədqiq olunması əsasında dissertasiya işində bir sıra nəticə və təkliflər irəli sürülür. Bunlar, əsasən, aşağıdakılardan ibarətdir:

1. Sənaye müəssisələrinin respublika miqyasında səmərəli yerləşdirilməsi məhsuldar qüvvələrin ərazi baxımından təşkili məsələlərinin bir cəhəti olmaqla, milli iqtisadiyyatın inkişafını və ümumilikdə sosial tərəqqini təmin edə biləcək mühüm təsərrüfat tədbirlərindən biri hesab olunur. Sənaye istehsalının səmərəli yerləşdirilməsi öz növbəsində təbii sərvətlərdən səmərəli şəkildə istifadə, əhalinin məşğulluq səviyəsinin yaxşılaşdırılması, əmək məhsuldarlığının yüksəldilməsi və iqtisadi resurslardan qənaətli istifadə əsasında istehsalın səmərəliliyinin yüksəldilməsi, habelə, iqtisadi rayonların optimal şəkildə sosial-iqtisadi inkişafını təmin edir. Sənaye müəssisələrinin yerləşməsi regionda nəqliyat, rabitə və digər sahələrin inkişafına, istehsalın enerji və xammal ilə təminatı, rayonlararası və sahələrarası əlaqələrinin mürəkkəbləşməsinə, ətraf mühitin qorunmasına əhəmiyyətin artmasına və s.-ə təsir göstərir. Bütün bunların nəticəsi qismində, ərazi üzrə səmərəli yerləşdirilmə müəyyən mənada həm cəmiyyətin, həm də ölkəmizin inkişafında müsbət rol oynayır;

2. Aparılan tədqiqatlardan məlum olur ki, respublikanın hər bir regionu güclü potensial və imkanlara (sənaye əhəmiyətli təbii sərvətlərə, ucuz işçi qüvvəsinə) malik olmasına baxmayaraq, hazırda ölkə miqyasında sənaye müəssisələrinin ərazicə yerləşdirmə səviyyəsi bu potensial imkanların mövcudluğuna uyğun gəlmir. 2018-ci ildə ölkədə fəaliyyət göstərən sənaye müəssisələrinin böyük hissəsi bir regionda cəmlənməsi tendensiyası yavaş-yavaş azalmağa başlamışdır.

3. Sənaye istehsalını ərazi üzrə yerləşdirilərkən elmi cəhətdən əsaslandırılmış prinsiplərə riayət olunmalı və ona təsir edə biləcək bütün amillər nəzərə alınmalıdır;

4. Regionlarımızda sənayenin inkişafı investisya mühitinin əlverişli

olmasından əhəmiyyətli dərəcədə asılı olur. İnvestisiya siyasətinin məqsədlərinə nail olunması üçün regionlarda əlverişli investisiya mühitinin yaradılması vacibdir. Bu da aşağıda qeyd olunanları tələb edir:

- regionlarda investisya mühitinin əlverişliyini artıran etibarlı və stabil hüquqinormativ bazanın yaradılması, sahibkar və yerli dövlət orqanları arasında sıx təşkilati və işgüzar əlaqələrin yaradılması;

- ərazi infrastrukturunun inkişaf etdirilməsi, tikinti bazası və kommunikasiya şəbəkəsinin (nəqliyyat, rabitə, informatika) inkişaf etdirilməsi.

5. Regionlarda real sektorun prioritet sahələrinin inkişaf etdirilməsi və məhsulların rəqabət qabiliyətinin artırılması innovasiya tədbirlərinin həyata keçirilməsindən bilavasitə asılıdır.

Müəssisələrin mövcud vəziyyətini nəzərə almaq şərtilə, innovasiyaların tətbiqinə geniş şəraitin yaradılması üçün aşağıda qeyd olunan istiqamətdə tədbirlərin həyata keçirilməsi məqsədəuyğun hesab olunur:

- innovasiya tətbiqinin kompleks dəstəklənməsi və istehsal olunan məhsulların rəqabətqabiliyətliyinin artırılması sisteminin yaradılması;

- informasiya təminat sistemi, ekspertiza sistemi, maliyə sistemi və həmçinin, kadrların hazırlanması da daxil, innovasiya prosesinin infrastrukturunun inkişafı;

- istehsal səmərəliliyinə və rəqabətqabiliyətinə əhəmiyyətli təsir göstərən müvafiq sahələrdə yeni texnologiyalara keçid prosesinin təmin edilməsi.

6. Müasir dövrdə respublika sənayesinin ərazi strukturunda mövcud olan qeyri-bərabərlik sənayenin ərazicə optimal yerləşdirilməsinin dövlət tənzimləməsini zəruri edir. İnkişaf etmiş ölkələrin təsərrüfat təcrübəsi göstərməkdədir ki, məhsuldar qüvvələrin inkişafı regional inkişafın hüquqi əsası, yəni dövlətin regional siyasəti olmadan uğurla həyata keçirilə və tətbiq edilə bilməz. Sənaye obyektlərinin ərazicə səmərəli şəkildə yerləşdirilməsinin stimullaşdırılma formalarından biri dövlət, yerli və xarici investorlar arasında müqaviləyə əsaslanan sənaye layihələrinə başlamaqdır. Bu layihələrin əsas məqsədi ölkədə istehsal edilən xammal və materialların emallıq səviyyəsinin

dərinləşdirilməsi, onların keyfiyətinin artırılması, regionlarda mövcud olan sənaye müəssisələrinin yenidənqurulması və modernləşdirilməsi ola bilər. Belə layihələrin reallaşdırılması sənaye istehsalının texniki-iqtisadi səviyyəsinin yüksəlməsinə, hazır məhsulun tərkibində yerli komponentlərin artmasına imkan verər.

7. Sənayenin ərazi üzrə təşkilinin təkmilləşdirilməsi üçün dövlətin sənaye məhəllərinin inkişafı proqramı davam etdirilməlidir. Hal-hazırda uğurla fəaliyyət göstərən Neftçala Sənaye Məhəlləsi və faəliyyətlərinə yeni başlamış, lakin uğurla irəliləyən digər sənaye məhəllələri nümunə təşkil etməli və sözügedən tendensiya yüskəən xətlə davam etdirilməli və inkişaf etdirilməlidir.

8. Müasir şəraitdə regionlarda sənaye inkişafına təkan verən əsas şərtlərdən biri də ölkənin əlverişli regionlarında azad iqtisadi zonaların yaradılmasıdır. Azərbaycan Respublikasında azad və birgə zonaların yaradılması baxımından əlverişli və səmərəli bölgələri müəyyənləşdirmək məqsədilə aparılan təhlilin nəticələri göstərməkdədir ki, ən perspektivli bölgələr Abşeron, Naxçıvan Mutxar Respublikası, Gəncə-Qazax, Lənkəran, Quba-Xaçmaz və Şəki-Zaqatala iqtisadi rayonlarıdır.

# İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT:

## Azərbaycan dilində


1. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2004-2008)”. Bakı 2004.

2. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2009-2013)”. Bakı 2009.

3. “Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramı (2014-2018)”. Bakı 2014.

4. Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramının (2004-2008-ci illər) icrasının yekunları “uğurlu siyasətin nəticələri”. Bakı – 2009

5. “Azərbaycan 2020: Gələcəyə baxış” İnkişaf Konsepsiyası. Azərbaycan Republikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.

6. “Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət proqramı”. Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

7. Azərbaycan Respublikası İqtisadi İnkişaf Nazirliyi “Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı dovlət proqramı”nın icrasının üçüncü ilinin yekunları. Uğurlu siyasətin nəticələri. Bakı-2012.

8. Azərbaycan sənayesi. Statistik məcmuə. B., 2015.

9. Azərbaycan regionları. Statistik məcmuə. B., 2017.

10.“Azərbaycanda iqtisadi islahatların həyata keçirilməsi xüsusiyyətləri və problemləri”. Elmi əsərlər toplusu. B –2001.

11. Allahverdiyev H.B. “İqtisadiyyatın dövlət tənzimlənməsi”, B-2002.

12. Əliyev R.R. İstehsal infrastrukturunun regional aspektləri. Azərbaycanın vergi xəbərləri, 2/2011.

13. Əmiraslanov A. Regional layihələrin həyata keçirilməsi Azərbaycan iqtisadiyyatının davamlı və tarazlı inkişafını təmin edəcək. “Xalq qəzeti”. Bakı, 2004 №40.

14. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. B., 2000.

15. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı. B., 2005.

16. Hüseynov T.Ə., Həmidova L.A. Maşınqayırma istehsalının iqtisadiyyatı (dərs vəsaiti), Bakı, 2015.

17. Məmmədov R.H.,Bəhərçi Tofiq,Mehdiyeva V.Z.,Quliyev T.S. Dünyanın iqtisadi və sosial coğrafiyası. Bakı-2006.

18. Məmmədov R.H., Hüseynov T.B., Hüseynov A.A. Məhsuldar qüvvələrin yerləşdirilməsi. B., 1992.

19. Mahmudov M.M, Mahmudov İ.M. Regionaliqtisadiyyatıntənzimlənməsi. B., 2001.

20. Nadirov A.A. "Azərbaycan sənayesinin səmərəli yerləşdirilməsinin iqtisadi problemləri". B-1976.

21. Nadirov A.A. Bazar iqtisadi münasibətləri sistemində Azərbaycanın regionlarının iqtisadi inkişaf məsələləri // AMEA –nın Xəbərləri. İqtisadiyyat seriyası, 1998, №3, s. 3-15.

22. Nadirov A.A. "Müstəqil Azərbaycan iqtisadiyyatının inkişaf məsələləri" B-2001.

23. Nadirov A.A., Əbdürrəhmanov B.E, Nəbiyev N.Ə. Sənaye istehsalının təşkilinin təkmilləşdirilməsi problemləri. Bakı: Elm, 1977, 84 s.

24. Nuriyev Ə.X. Sənayenin böyük şəhərlərdə təmərküzləşməsi səbəbləri və regional inkişaf siyasəti // AMEA –nın Xəbərləri. İqtisadiyyatseriyası. 2000, №3-4, s. 68-77.

25. Nuriyev Ə.X. Regional inkişafın strateji məsələləri /Azərbaycani qtisadiyyatının strateji problemləri Respublika elmi praktik konfransının materialları. Bakı: Elm, 2002, s 210-215.

26.Nadirov A.A. Akademiyada regionların sosial-iqtisadi inkişaf problemləri üzrə tədqiqatların ümumi qısa tarixi səlnaməsi. Bakı: Elm, 2010.

27. Rzayev İ.M. Azərbaycan Respublikasında regionların davamlı sosial-iqtisadi inkişafı; mövcud vəziyyət və gələcək perspektivlər. Bakı: Elm, 2010.

28. Qurbanova T.H. Regional siyasətin dövlət tənzimlənməsi və aqrar sahənin səmərəliliyinin yüksəldilməsi istiqamətləri. Azərbaycanın vergi xəbərləri – 7/2011.

**Xarici dildə**

1. Алиев Б.Г. Региональные проблемы переходной экономики. М. Экономика, 2002, 466 с.

2. Алиев Б.Г. Региональные проблемы переходной экономики. М. Экономика, 2002, 466 с

3. Государственное воздействие на размещение производительных сил в капиталистических странах, М., “СОПС”, 1970.

4. Государственное воздействие на размещение производительных сил в капиталистических странах, М., “СОПС”, 1970.

5.Гусейнов С.К. Эффективность структуры промышленного производства в условиях его интенсификации, Б., “Елм”, 1987.

6. Кушлина В.И. Государственное регулирование рыночной экономики. Москва, Издательство РАГС, 2008.

7. Миско К.М. Ресурсный потенциал региона, М., “Наука”, 1991.

8. Юзбашева Г.П. Проблемы структурной перестройки экономики Азербайджана в новых условиях развития, Б., 1994.

1. Boudeville J., Problems of Regional Economic Planning (Edinburgh University Press, 1966)

2. Hoover E. M., The Location of Economic Activity (McGraw Hill, New York, 1963), p. 48

3. Richardson H. W., Regional Economics, (Weidenfe1d & Nicolson, London, 1969) p. 4

## İnternet Resursları


1. http://president.az
2. http://www.anl.az
3. https://az.wikipedia.org
4. https://www.economy.gov.az/article/esas-iqtisadi-gostericiler-2018/29109
5. https://www.stat.gov.az/source/industry/
6. www.anfes.gov.az
7. www.smb.gov.az
8. https://aic.az
9. https://www.businessinsider.com
10. https://www.investing.com
11. https://economy.gov.az//uploads/fm/files/diger/2018%20sosialiqtisadi.pdf
12. https://www.stat.gov.az/source/regions/
13. https://www.economy.gov.az/legislation/laws/
14. http://www.smb.gov.az/nav/snaye-mhlllri

## Cədvəllərin siyahısı

Cədvəl 1. Regionlarda fəaliyyət göstərən sənaye müəssisələrinin sayı ................46

Cədvəl 2. Regionlar üzrə sənaye məhsulunun həcmi ...........................................46

Cədvəl 3: Ölkənin iqtisadi rayonları üzrə hər nəfərinə düşən məhsul buraxılışı, cari qiymətlərlə, manatla ..........................................................................................48

Cədvəl 4. 2018-ci ilə qədər Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan ümumi kredit və həmin kreditin bölgüsü və istifadəsi...........................................80

## Şəkillərin siyahısı

Şəkil 1. 2018-ci ilin ikinci yarısının əvvəlinə olan məlumata əsasən sənayedə ümumi buraxılışın istehsalı (milyon manatla) ......................................................42
Şəkil 2. 2018-ci ilin ikinci yarısının əvvəlinə olan məlumata əsasən sənaye sahəsində çalışan işçilərin sahə bölgüsü ..................................................................43
Şəkil 3. Ötən illə müqayisədə real artım tempi(%-lə) ...........................................44
Şəkil 4. İqtisadiyyata kredit qoyuluşları (milyon, AZN) .......................................45
Şəkil 5. Əhalinin əmanətləri (milyon,AZN) ..........................................................45
Şəkil 6. Azərbaycanda regionların sosial-iqtisadi inkişafının qarşısında duran əsas məqsədlər..................................................................................................62
Şəkil 7. Aktiv regional siyasət həyata keçirən inkişaf etmiş dünya ölkələrinin xarakterik xüsusiyyətləri ...........................................................................70
Şəkil 8. Sahibkarlığa Kömək Milli Fondunun 2018-ci ilə olan fəaliyyətinin bəzi göstəriciləri.................................................................................................79
Şəkil 9. Sahibkarlığa Kömək Milli Fondu tərəfindən ayrılan kreditlərin iqtisadi sektor və regionlar üzrə faiz bölgüsü...................................................................80